**Cahan Ağamirov**



# İran ədəbiyyatşünaslığında Nizami Gəncəvi irsinin öyrənilməsi və tədqiqi.

**Bakı-2015**

Azərbaycan Respublikası Təhsil Nazirliyi
Gəncə Dövlət Universiteti

Azf-286040

Cahan Ağamirov

# İran Ədəbiyyatşünaslığında Nizami Gəncəvi irsinin öyrənilməsi və tədqiqi.

Monoqrafiya GDU-nin Elmi Şurasının 29.05.2015-ci il
5 saylı protokolunun qərarı ilə çap edilir.

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Bakı-2015

Elmi redaktor: AMEA müxbir üzvü M.Nağısoylu

Rəyçilər: f.e.d., prof. M.Yusifov

f.e.d., prof. N.Cümşüdoğlu

f.e.d., Ş.Əlibəyli

Monoqrafiya, Nizami irsinin öyrənilməsi sahəsində yeni bir mərhələnin açılması kimi çox önəmlidir. Azərbaycan Nizamişünasları və eləcə də bizim oxucular üçün bu əsərin maraq doğracağına inanırıq.

İran İslam Respublikasında Nizamidən rəsmi olaraq 659 müəllif yazmışdır. Fikrimizcə biz bu sahədə hələ çox çalışmalıyıq.

**MÜNDƏRİCAT**

Giriş ………………………………………………………………………… 5
I fəsil. Nizami Gəncəvi irsinin öyrənilməsi və təbliğində ümummilli liderimiz Heydər Əliyevin rolu....……….........……………………............................................ 9-27
1.1. Heydər Əliyevin 01.01.1979-cu il sərəncamı ilə “Azərbaycan KPMK-nin xüsusi qərarı”.
1.2. Heydər Əliyevin 1981-ci il yeni sərəncamı.
II fəsil. İran ədəbiyyatşünaslığında Nizami irsinin öyrənilməsi və tədqiqi……………….....................................… ...............................28-47
2.1. İran ədəbiyyatşünaslığında Nizamiyə maraq.
2.2. V.Dəstgerdi. “Gəncineye Nezami”.
2.3. S.Nəfisi. Nizami Gəncəvi.
III fəsil. İran ədəbiyyatşünaslığında Nizami haqqında yazılmış elmi əsərlərin bəzi tərcümələri……...................................................................................48-140
3.1. Ə.Zərrinkub. “Gəncə piri”.
3.2. M.Sərvət. “Azərbaycan Atabəylərinin şəcərəsi”.
3.3. K.Əhmədnejad. “Nizami Gəncəvi əsərlərinin təhlili”.
Nəticə ……………………………………………………………………..141-146
İstifadə olunan ədəbiyyat……………………………………………………147-152
1.1 Heydər Əliyevin 01.01.1979-cu il sərəncamı ilə “Azərbaycan KPMK-nın xüsusi qərarı”.
1.2 Heydər Əliyevin 1981-ci il yeni sərəncamı.
2.1 İran ədəbiyyatşünaslığında Nizamiyə maraq.
2.2 V.Dəstgerdi. “Gəncineye Nezami”.
2.3 S.Nəfisi. Nizami Nəncəvi
3.1 Ə.Zərrinkub. “Gəncə piri”.
3.2 M.Sərvət. “Azərbaycan Atabəylərinin şəcərəsi”.
3.3 K.Əhmədnejat. “Nizami Gəncəvi əsərlərinin təhlili”.

# I FƏSİL

## NİZAMİ GƏNCƏVİ İRSİNİN ÖYRƏNİLMƏSİ VƏ TƏBLİĞİNDƏ ÜMUMMİLLİ LİDERİMİZ HEYDƏR ƏLİYEVİN ROLU.

Böyük iftixar hissi ilə deyə bilərik ki, Nizami Gəncəvi qədər Azərbaycan xalqını dünyada tanıdan ikinci bir şəxsiyyətə rast gəlmədik. Nizaminin təxminən bütün dünya xalqlarının dillərinə tərcümə olunması və sevilə-sevilə oxunması buna ən gözəl göstəricidir. Digər tərəfdən Nizami elə böyük sənətkarlardandır ki, o, təkcə poeziyanın zirvəsini kəşf etməklə deyil, elm sahələrinin əksəriyyəti haqqında məlumat verməsi və öz ölməz "Xəmsə"si vasitəsilə bunu əks etdirmişdir. Azərbaycanda ayrı-ayrı alimlər Nizaminin dil, ədəbiyyat, riyaziyyat, fizika, astronomiya, təbabət, nəbatat, kənd təsərrüfatı, rəssamlıq, heykəltaraşlıq, fəlsəfə, tarix və s. elmlərə bələd olduğunu və "Xəmsə"sindən məlum olur ki, onlardan konkret misallar gətirməklə ustalıqla istifadə etmişdir. XII əsrdə bu, ancaq dərin zəkanın və şəxsi geniş mütaliənin sayəsində ola bilərdi. (96-5)

Əlbətdə, Nizami türk, fars və ərəb dillərini mükəmməl bildiyi üçün böyük poliqlot kimi bu xalqların ədəbiyyatı, tarixi ilə yaxından tanış idi. Nizamiyə qədərki şairlər ancaq Şərqdən yazmış və ondan kənara çıxmamışlar. İlk dəfə məhz Nizami bu tilsimi sındıraraq Qərbə çıxmışdır. Bunun nəticəsi olaraq o, Makedoniyalı İskəndərdən söhbət açmışdır. Elmi araşdırmalar onu göstərir ki, klassik yunan fəlsəfə və tarixini bilmədən bu haqda danışmaq mümkün deyildi. Nizami demək olar ki, Çin, Rusiya, Gürcüstan, Ərəb ölkələri, İran, Azərbaycan və Rumdan bəhs edib bu ölkələrin adət-ənənələri və məşğuliyyətlərindən danışırsa, bir daha biz bu mütəfəkkir insanın nə qədər yüksək bilik potensialı və fövqəladə zəka sahibi olduğunu görürük. Elə bunun nəticəsidir ki, Nizaminin "Xəmsə"sindəki hər bir poemasından bütün dünya şairlərinin ən yüksək məqamında dayananların on nəfəri çıxar. Dünya təcrübəsi göstərir ki, böyük dahilər hər

100-200 ildə bir yetişirlər. Çox qəribədir ki, onlar da zamanın təpikləri altında tapdalandıqdan sonra yetişirlər. Ancaq Nizami bu sahədə öz zəkası hesabına elə öz zəmanəsində qiymətləndirilmişdir. O, saraya gedib mədh yazmasa da, bütün hökmdarlar tərifdən o zamanın yüksək maaşı ilə təmin edilmişdir. Hətta, Nizami aldığı axçadan kasıblara əl uzatmışdır. Poemalarını yazıb bitirdikdən sonra isə hökmdarlar tərəfindən mükafatlandırılmışdır. Bunların təsdiqi kimi yenə ölməz şairin öz yazdıqlarına nəzər salaq:

Qüvvət elmdədir, başqa cür heç kəs,
Heç kəsə üstünlük eyləyə bilməz. (87-28)

Yuxarıda qeyd etdik ki, nadir dahilər hər bir xalqın həyatında hər əsrdə yetişməyə də bilər. Azərbaycan xalqının payına XX əsrdə daha bir dahi insan bəxş edilmişdir. Bu, əlbətdə, hörmətli el ağsaqqalımız 35 il respublikamıza rəhbərlik etmiş, dünya siyasət arenasında özünə layiqincə yer almış, fenomenal bilik potensialına malik olan, ölməz prezidentimiz, xalqımızın elm, mədəniyyət, musiqi, ədəbiyyat, dil dostu, Azərbaycan xalqının müstəqilliyini özünə qaytaran, onu dünyada tanıdan möhtərəm Heydər Əliyev cənablarıdır. Heydə Əliyev həmin şəxsdir ki, Azərbaycana rəhbərlik etmək missiyasını öz çiyinləri üzərinə götürməsəydi, ölkəmizdə baş verən hərc-mərcliyi tez bir zamanda ləğv etməsəydi, bəlkə də, indi Azərbaycan adlı bir məmləkət də yox idi. Bütün bu işlərinə görə biz Heydər Əliyevə borcluyuq. Bizi maraqlandıran cəhət odur ki, o, klassiklərin dostu, gənclərin hamısı olmuşdur.

Konkret olaraq Nizami Gəncəvi və Heydər Əliyev arasındakı bağlılığı açmaqla bu iki böyük şəxsiyyətin əməlləri qarşısında borcumuzdan qismən də olsa çıxmağa çalışaq. Heydər Əliyev cənabları ömrünün çox hissəsini dövlət işlərinə sərf etmişdir. Ancaq o, ömrünün sonuna kimi ədəbiyyat, dil, incəsənətin vurğunu olmuşdur. Azərbaycanın böyük sənətkarlarının iştirakı ilə konsertlərdə, yubileylərdə və beynəlxalq tədbirlərdə böyük qürur hissi ilə çıxış edər, sənət adamlarına maddi və mənəvi dayaq olardı. Hətta, vaxtının məhdud olmasına baxmayaraq səhnə arxasına keçib onların çıxışlarını, gördükləri işləri dəstəkləyər və problemləri ilə maraqlanıb, elə yerindəcə həll etməyə

çalışardı. Doğrudan da, nə qədər sənət adamına yubileylər keçirib, neçə sənətkara fəxri fərmanlar təltif edib, onları fərdi təqaüdlərlə təmin etmişdir. Bir sözlə I Pyotr Rusiya üçün, Mustafa Kamal Paşa Türkiyə cümhuriyyətinə, Heydər Əliyev Azərbaycana millət atasıdır. Bunları sadalamaqla cənab Heydər Əliyevin geniş qəlb diapozonuna malik olmasını göstərmək və Nizami Gəncəviyə bəslədiyi xüsusi rəğbəti açıb göstərməkdən ibarətdir. Yuxarıda qeyd etdiyimiz kimi böyük Azərbaycan şair və mütəfəkkiri Nizami Gəncəvi 800 il öyrənilib araşdırılmış deyildir. Bu fikir cənab Əliyevi narahat etməyə bilməzdi. Nə üçün, İran-fars ədəbiyyatçıları Nizamini araşdırır, doğma vətəni Azərbaycanda isə bu iş tamamilə unudulub, arxa plana çəkilmişdir? Buna görə də Nizami Gəncəvinin 840 illik yubileyi ilə əlaqədar olaraq H.Əliyevin şəxsi, uzaqgörən siyasəti nəticəsində 01.01.1979-cu ildə «Azərbaycan KPMK-nin xüsusi qərarı ilə böyük şair və mütəfəkkiri Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsini, nəşrini və təbliğini yaxşılaşdırmaq tədbiqi haqqında» fərman verilir. Bu isə Nizami Gəncəvi haqqında işin güclənməsinə təkan verir. Cənab Əliyev yaxşı dərk edirdi ki, biz klassik irsimizə və böyük dahilərimizə qiymət verməyi bacarmasaq, bu, bizim tərəfimizdən ən böyük biganəlik olar, zaman bizi bağışlamaz, bizim özümüzün aqibəti də belə ola bilər.

Heydər Əliyev bu işlərə daima özü bir qayda olaraq nəzarət və rəhbərlik edərdi. Bütün bunlar azmış kimi əbədi prezidentimiz iki il sonra 1981-ci ildə Nizami Gəncəvinin doğum gününü nəzərə alaraq, onun 840 illiyi haqqında yeni bir sərəncam imzalayır. Məhz bunun nəticəsidir ki, Azərbaycanda Nizamini təbliğ edənlərin hamısına imkan yaranır. Dövlət fərman və sərəncamları və müəlliflərə çap imkanı və maddi maraqğın artması bu sahəyə öz bəhrəsini verir. Onlarla Nizamişünas alim, şair, yazıçı riqqətə gəlib, şair haqqında illərcə yatıb qalan mətləbləri həyata keçirməyə başladılar. Bundan sonra xeyli iş görüldü. Dövlət əhəmiyyətli bu iki qərar, fərman və sərəncamla kifayətlənmək olardı. Ancaq uzaqgörən Heydər Əliyev cənablarının şəxsi təşəbbüsü diqqəti cəlb edir. Belə ki, Bakıda metronun «Nizami» stansiyası tikilərkən cənab Əliyev özü şəxsən bir neçə dəfə oraya gəlmiş, işin gedişi ilə maraqlanmış, metro dayanacaqlarındakı rəsimlərin Nizami əsərlərindən alınan qəhrəmanların və əməkçı

insanların olmasına öz tövsiyələrini vermişdir. Sevindirici haldır ki, şairin doğma yurdu Gəncədə Nizami məqbərəsinin yenidən qurulub, onun adına layiq olması ilə əlaqədar göstəriş vermişdir.

Çox ciddi bir məsələni də xatırlatmaq yerinə düşərdi. Aydındır ki, cənab Heydər Əliyev öz xalqını və onun bacarıqlı insanlarını çox sevirdi. Bu baxımdan Nizami xüsusi yer tuturdu. Milli rəhbərimiz hər zaman bu barədə fəxarətlə və özəl olaraq gözəl nitq qabiliyyəti ilə diqqəti cəlb edirdi. Cənab Əliyev Moskvada işləyərkən təklif etmişdir ki, Nizaminin 840 illiyi qeyd edilsin. Lakin o zaman Kremlin daha yüksək məmurlarının buna etirazı olmuşdur. Hətta onlar Heydər Əliyevə irad tutmağa çalışmışlar ki, 800-850 illik olsa keçirmək olar. Ancaq «Qeydar Aliyeviç» 840 illik yuvarlaq yubiley deyil, bunu məqsədəuyğun saymaq olmaz. Heydər Əliyev isə özünəməxsus soyuqqanlılıqla cavab verir: «Nizami elə böyük dahidir ki, biz onu hər il keçirməliyik». Bu kəlamdan sonra hamı Əliyevlə razılaşır. Buradan belə nəticəyə gəlmək olur ki, başqalarına vaxtında əsl qiyməti verməyi bacar ki, sənə də qiymət verə bilsinlər.

Son illər yaşlaşan prezidentimiz güman etmək olardı ki, artıq yorğunluq hiss edəcək. Amma bunun əksinə oldu. O, daha da müdrikləşdi. 2002-ci ildə Rusiyanın paytaxtı Moskva şəhərində və 2004-cü ildə elm mərkəzi sayılan Sankt-Peterburqda dahi Azərbaycan şairi Nizami Gəncəvinin heykəlinin təntənəli açılışı oldu. Cəsarətlə demək lazımdır ki, cənab Heydər Əliyevin bu sahədə böyük rolu və şəxsi iştirakı fikirlərimizi bir daha təsdiq edir. Siyahini daha çox uzada bilərdik, lakin Heydər Əliyev cənablarını yurdunun və xalqının vətənpərvər oğlu kimi görmək istəyiriksə, böyük şair H.Cavidin məzarını uzaq Sibirdən Azərbaycana, şairin doğma yurdu Naxçıvana gətirilməsi və Nizami məqbərəsinə uyğun bir məzar tikilməsi kifayət edər.

Elə Cavid Əfəndinin misraları bu yerdə yada düşür:

Həyat var ki, ölüm qədər zəhərli,
Ölüm var ki, həyat qədər dəyərli.

Klassiklərimizə verdiyi qiymətə görə Heydər Əliyev cənablarının özü də hər cür hörmətə layiqdir.

Ümummilli liderimiz göstərilənlərlə kifaytələnməyib Nizami irsinin daha yaxsı öyrənilməsi üçün AMEA-da xüsusi Nizamişünaslıq şöbəsi yaratmış, respublikanın görkəmli Nizamişünas alimlərini oraya cəlb etməyə nail olmuşdur. Heydər Əliyev cənabları Nizaminin vətəni Gəncə şəhərində olarkən AMEA-nın Gəncə Elmi Mərkəzində də Nizamişünaslıq şöbəsinin açılması təşəbbüsündə bulunmuşdur. Ölməz liderimiz böyük uzaqgörənliklə dərk etmişdir ki, bu nəcib iş gələcəkdə öz bəhrəsini verəcəkdir. Bəli, illər keçdi, onun fikirləri çin oldu. Belə ki, respublikada tanınmış Nizamişünas alim professor X.Yusifli hazırda bu şöbəyə rəhbərlik edir. Nizami irsinin öyrənilməsi üçün GDU-nun fars dili məüllimi Ağamirov Cahan və ərəb dili ixtisasçısı Səfərov Nizami elmi işçi kimi burada fəaliyyət göstərirlər. Heç şübhəsiz ki, Nizamişünaslıq sahəsindəki bu çalışmalar öz bəhrəsini verəcək, Azərbaycan xalqının iftixarı Nizami Gəncəvi onun ikinci dahisi Heydər Əliyevin təşəbbüs və əməlləriylə millətimizə lazımi dərəcədə çatdırılacaqdır. Bu, elmimizin təntənəsi kimi qiymətləndirilməlidir.

Adı ictimai fikir tarixinə qızıl həriflərlə yazılmış ümumilli liderimiz Heydər Əlirza oğlu Əliyev Azərbaycan mədəniyyətinə, ədəbiyyatına və mənəviyyatına qayğı və diqqət yetirən, himayə edən böyük şəxsiyyət idi. O, Nizami, Nəsimi, Füzuli, M. F. Axundov, M. Ə. Sabir, C. Məmmədquluzadə əsərlərinin fəlsəfi mənasını hər hansı bir alimdən də, ədəbiyyatşünasdan da, filosofdan da dərindən açan, nəzəri təhlillərində tayı – bənzəri olmayan söz sərrafı idi. Yubiley tədbirlərində, müxtəlif məzmunlu, məqsədli görüşlərdə, ədəbi – ictimai yığıncaqlarda çıxışları, verilən suallara təmkinli cavabları onun həyata baxışının fəlsəfiliyi heyranlıq doğururdu, Azərbaycan və dünya ədəbiyyatına, eləcə də mədəniyyətinə dair fikirləri insanı düşündürürdü. O, ən qüdrətli söz ustaları haqqında fikir söyləyəndə özünün də nəhəngliyini dərk etdirirdi. O, ədəbiyyat nümayəndələri ilə daim təmasda olmuş, onların ehtiyaclarından xəbər tutmuş, qayğısını əsirgəməmiş, sovet ideologiyasının tüğyan etdiyi vaxt yazıçıların mənəvi hamisi olmuşdur. Elə buna görə də demək olar ki, Heydər Əliyevin ədəbiyyatımız və mənəviyyatımız haqqında fikirlərini nəzəri cəhətdən öyrənmək və onu hər hansı bədii əsərin təhlilinə tədbiq etmək şərəflidir.

Çünki Heydər Əliyevin ictimai – siyasi fəaliyyəti, fəal həyat mövqeyi xalqının sosial vəziyyətinin yaxşılaşdırılmasına, sülh şəraitində yaşamalarına yönəldilmişdir. O, təkcə görkəmli diplomat, fenomen insan deyil, həm də, ədəbiyyatımızı – mədəniyyətimizi dərindən bilən alim, analitik yaddaşa malik erudisiyalı şəxsiyyət idi. Bir sözlə onun ədəbiyyat və mənəviyyat, mədəniyyət sahəsində xidmətləri ölçüyə gəlməzdir. (81-116)

***"Ədəbiyyat riyaziyyat deyil, dəqiqlikdən çox mübhəmlik və fantaziya tələb edir".***

**Nizami**

Ədəbiyyat – istedadın məhsuludur. Ədəbiyyat "doğruya bənzəyən yalanı, yalana bənzəyən doğrudan" üstün tutur.

Ədəbiyyat doğrunu dada gətirmək üçün, ona dırnaq qədər olsa da yalan – duz qatan yazıçıları qınamır. Bu onların fantaziyasıdır. Özü də bəzəkli fantaziyadır. Ədəbiyyat vətəndaşlıq, vətənpərvərlik, insanpərvərlik məktəbidir. Ədəbiyyat uzaq vuran toplardan daha qüdrətlidir. Deməli, ədəbiyyat – mahiyyət etibarilə insan idrakının mənəvi təminatçısıdır. Ədəbiyyat güzgüdür. Cəmiyyətdə baş verən hadisələri ya müstəqim, ya da qeyri müstəqim formada insanı onun özünə göstərir. Hadisələri obrazlı şəkildə əks etdirir. Məhz buna görə də yazıçılar canlı təbiətdə gördüklərini ümumiləşdirir, saf – çürük edir, bədii fabula daxilinə salır, ziddiyyətlər düyünü üçün zəmin yaradır, sonra əhvalatların süjet xəttini hazırlayır, hadisələrin bir – biri ilə əlaqələrini nizamlayır. Lakin sovetlər dövründə yaradıcı şəxsiyyətlər kommunistlərin "Ədəbiyyat partiyalı olmalıdır" tapşırığından kənara çıxa bilməmiş, mənəvi, yaradıcı təfəkkür çərçivəyə salınmışdır, ciddi senzor nəzarəti vardır. Müasirlik baxımından bu vəziyyəti indi nəzərdən keçirsək görəsəyik ki, XX əsrin 20 – 30 – cu illərində Azərbaycan ədəbiyyatı və incəsənəti sıxıntılara məruz qalmışdır:

a) “Partiyanın bədii ədəbiyyat sahəsində siyasəti haqqında” 18 iyun 1925 – ci il tarixdə qəbul etdiyi qətnamə;

b) “Ədəbi – bədii təşkilatların yenidən qurulması haqqında” 23 aprel 1932 – ci il tarixli qərar.

Birinci qətnaməni – Rusiya Proletar Yazıçıların Cəmiyyətinin 1932 – ci il tarixli qərarı ləğv etdi, vahid Sovet Yazıçıları İttifaqını yaratdı. Belə məkrli əməliyyat iqtisadi sahədə də həyata keçirildi. 1930 – cu ildə kommunist dövləti insanların mülkiyyətini, torpağını, qoşqu heyvanlarını, iş alətlərini represiyalarla onların əlindən aldı. Güc tətbiq eməklə insanları kollektivləşdirdilər, adını da qoydular – kəndlilərin könüllü ictimai birliyi. Beləliklə, insanlar mülkiyyətdən, fərdi təsərrüfatdan məhrum edildilər...

Lakin bu da bir həqiqətdir ki, o dövrün deyim tərzinə söykənsək, sosializm quruculuğu illərində millətlərin adət və ənənələrini nəzərə almadan hamını sovet xalqı adlandıran yeni ictimai quruluşda Azərbaycan xalqının da mənəvi dünyası, sosial şəraiti XIX əsrin həyat tərzindən fərqli olaraq kökündən dəyişmiş, lakin fərdiyyət və onun xarakteri, fəal və qeyri – fəal mövqeyi nəzarət altında saxlanılmışdır. Buna istinadən də deyirlər ki, dünyanın ziddiyyətləri insan fikrinin səylərində kristallaşır, cəmləşmiş şəkildə ifadə olunur. Yaradıcılıq fəaliyyətində tətbiq edilən, əməkdə cisimləşən fikir və ziddiyyətləri ən səmərəli və dolğun şəkildə həll edir. Çünki yaradıcılıq azadlığın sinonimi və zirvəsidir, yaradan insanlar isə Allaha yaxın olan ən xoşbəxt adamlardır. Deməli, insan fəaliyyəti nə qədər müxtəlif və rəngarəngdirsə, mənəviyyatla bağlı olan yaradıcılıq da bir o qədər çoxcəhətlidir. Heydər Əliyevin ədəbiyyata və mədəniyyətə (incəsənətə) aid söylədiyi fikirlərin elmi – nəzəri obyektivliyindən alınan nəticədə isə müəyyənləşir ki, yaradıcılıq ünsürləri hər yerdə mövcuddur, çünki yaradıcı əmək həmişə gəlir gətirir, hörmət qazandırır, toxluq yaradır, sərvəti çoxaldır, ümumilikdə cəmiyyətə və insana maddi və mənəvi cəhətdən xidmət göstərir.

Lakin bu prosesdə elə fəaliyyət növləri də var ki, onlar xüsusi, yaradıcı,məhsuldar fəaliyyətdir, yaratmaq, qurmaq, onun əsasını, məzmununu təşkil edir. Yaradıcılıqla

azadlığı bir – birinə yaxınlaşdıran çox səciyyəvi əlamətlərdən biri də odur ki, bunların hər ikisində biz obyektiv zərurətin subyektiv ifadəsi ilə rastlaşırıq.

Heydər Əliyevin ədəbiyyat qarşısına qoyduğu problem məsələlərə – varlığın inikasına istinad edib belə bir nəticəyə gələ bilərik ki, azadlıq sosializm dövrü ədəbiyyatında formal xarakter daşımışdır. O vaxt bir tərəfdən sosialist realizmi adlı metod və ona uyğun xüsusi hazırlanmış reyestrlər hökm sürürdü. Minlərlə nüsxə elmi və bədii əsərlərin kitabxana rəflərindən götürülüb yandırılması ("Yandırılmış kitablar" S. Vurğun) və məhvi bu reyestlərin hökmü ilə bağlı idi. Yaradıcı şəxsiyyətin azadlığı, əməyinə verilən qiymət sovet dövründə belə idi. Bu senzor nəzarəti idarəsi birbaşa SSRİ Nazirlər Sovetinə tabe idi və bura "ideoloji nəzarət qapısı" sayılırdı. Sovet ideologiyasına uyğun gəlməyən adicə bir "vergül" bu "qapıdan" keçə bilməzdi, onun müəllifi də dərhal göz altında saxlanılır, adı "qara dəftərə" düşürdü. Yaradıcı adam sanki qula çevrilir, qarmaqarışıqlıq içərisində "başını itirir" və bu zaman yazıçı qələmə aldığı mövzunu öz məqsədinə uyğun həyata keçirə bilmirdi. "Dünya qopur", "Dumanlı Təbriz" in göyləri od tutub yanırdı. "Kimdir müqəssir?" (A.İ. Gertsen) sualına cavab axtarılırdı. Buna "Kimin sualı var?" (N. Həsənzadə). Əlbətdə heç kəsin. Burada əsas müqəssir cəmiyyətin özü idi və sual da ona verilirdi. Lakin bunu da inkar etmək olmaz ki, XX əsrin birinci yarısında Azərbaycan geridə qalmış kənd təsərrüfatı ölkəsindən o zaman deyildiyi kimi, qabaqcıl sosialist adlanan fəhlə – kəndli respublikasına çevrildi. Azərbaycan ədəbiyyatı da bu tarixi mərhələnin yetişdirdiyi dövrün adını daşıyan sovet ədəbiyyatı oldu. Bu mərhələdə "Tarixin təcrübəsi ən yaxşı müəllimdir" (Heydər Əliyev - 1975) – beləki kənd təsərrüfatı və sənayesi iqtisadi cəhətdən möhkəmlənən dövlətin bazisi üzərində onun üstqurumu sayılan ədəbiyyatı da inkişafa qədəm qoydu. Ona görə də iqtisadiyyat istehsal münasibətlərinin məcmusu cəmiyyətin iqtisadi bazisidir, onun inkişafında həlledici rol oynayır, hüquqi və siyasi üstqurum bu bazis üzərində "yüksəlir", ictimai şüur formalarından biri kimi bədii ədəbiyyat məhz bu bazisə "məhsuldarlığına görə" minnətdardır. Bu sahədə ədəbiyyat ayrıca götürülmüş, müstəqillik əldə etmiş bir xalqın fərqləndirici xüsusiyyətlərinə daha çox diqqət yetirir.

Buna görə də o, maddi deyil, qeyri – maddidir. İctimai şüurun çox zəngin forması sayılan bu hadisə bütövlükdə xalqın dünyagörüşüdür. Bu dövrün, prosesin siyasi – iqtisadi və mədəni inkişafını nəzərdə tutan Heydər Əliyev deyir: "Azərbaycan xalqı öz müqəddaratını əlinə aldıqdan sonra əvvəlki nəsillər tərəfindən yaradılmış zəngin klassik mənəvi irsə də yiyələnmiş, öz tarixini dərk və bərpa etmişdir... Orta əsr Şərqinin ən böyük şairləri və mütəfəkkirləri Xaqani, Nizami, Nəsimi, Füzuli qədim Azərbaycan mədəniyyətinin digər korifeyləri, dünya sivilizasiyasını dahiyanə əsərlərlə zənginləşdirən ön şəxsiyyətlər məhz sovet dövründə, xalqımızın mənəvi həyatında vətəndaş hüququ qazanmış, müasir mədəniyyətlə qaynayıb - qarışmışdır".

Heydər Əliyevin dediyi kimi, keçmişdə "o olub, bu da olub". Sovetlər dövründə elm və mədəniyyət ocaqları, bir sıra dünya əhəmiyyətli sənaye obyektləri tikilmişdir. Heydər Əliyev tarixin bu mərhələsinə aydınlıq gətirmək üçün respublika gənclərinin birinci forumundakı nitqində Azərbaycanın 70 il Sovet İttifaqı tərkibində olan dövrünü onun böyük inkişaf dövrü kimi qiymətləndirmiş və əlavə edib demişdir ki, "o dövrə qara yaxmaq olmaz, o dövrdə Azərbaycan xalqının elmi, təhsili, mədəniyyəti sürətlə inkişaf etmişdir"...

Yazıçılarımız, musiqiçilərimiz, rəssamlarımız, heykəltəraşlarımız öz sadə əməkləri ilə həyatı gözəlləşdirən zəhmət adamlarının obrazını yaratdılar.Şərq və Qərb memarlıq üslubunun sintezi əsasında arxitektorlarımız böyük yaşayış binaları tikmiş, bir sıra ictimai – mədəni abidələr ucaltmışlar.

Yeri gəlmişkən qeyd edək ki, əvvəllər ötən əsrlərin adamlarının bədii obrazlarının necə yarandığını öyrənmək istəyəndə XI – XVI əsrlərdə yaşayan klassiklərin əsərlərinə üz tuturduq. Lakin indi çox uzağa getmək lazım deyil. C.Məmmədquluzadə, M.Ə.Sabir, H.Cavid, C. Cabbarlı, M. S. Ordubadi, S.Vurğun, R.Rza, S. Rəhimov, S.Rüstəm, M.İbrahimov, Ü.Hacıbəyov, M.Maqamayev, S.Bəhlulzadə, İ.Şıxlı, Q.Qarayev, M.Abdullayev, M.Hüseyn, Xəlil Rza Ulutürk, M.Araz kimi böyük sənətkarlardan, alimlərdən tutmuş bu gün bizimlə bir yerdə yaşayıb yaradan B.Vahabzadə, N.Xəzri, Anar, Elçin, N.Həsənzadə, S.Əhmədli, T.Nərimanbəyov, Qabil və başqa görkəmli

qüdrətli istedadlara qədər hamının yaradıcılığında Aşərbaycan xalqının keçdiyi tarixi mərhələlərin əksini, insanların bədii obrazını görmək mümkündür. "Bizim ədəbiyyat və incəsənətimiz bir küll halında götürüldükdə o Azərbaycan sovet cəmiyyətinin mənəvi həyatını, əxlaqi və fikri inkişafının, psixoloji aləminin həqiqi, bədii salnaməsi adlandırmağa layiqdir".

Deyilənlərə əsaslansaq, Azərbaycanın sovet dövrü ədəbiyyatı və incəsənətinin ən yaxşı əsərləri mövzu və materialından asılı olmayaraq "Dəli Kür", "Beşmərtəbəli evin altıncı mərtəbəsi", "Qətl günü" romanları, "Gülüstan" poeması, "Qız qalası", "İldırımlı yollarla", "Məhəbbət əfsanəsi", "Min bir gecə" baletləri, "İstintaq", "Yarasa" filmləri və başqaları bu dövrdə aydın fikir mövqeyindən yazılıb bəstələnərkən varlığın real mənzərəsini onun gələcəyə istiqamətlənmiş qabaqcıl tendensiyaları ilə əks olunmuş, ideya siyasi baxımdan böyük tərbiyəvi əhəmiyyətə malik bədii incəsənət əsərləridir. Lakin burada ideya başlıca şərtdir. Çünki, incəsənət əsərində olduğu kimi bədii ədəbiyyatda özünün əsas ideyası ilə yanaşı, çox hallarda bu ideya ilə sıx bağlı olan əlavə ideyalara da malik olur. İdeya sənətkarın qayəsini və əsərin əsas məzmununu təyin edir. Mövzunun və süjetin sənətkar tərəfindən şərhi, eyni zamanda əsərin tendensiyası ideyanın xarakterindən doğur. Eyni bir həyat materialı, ideya istiqamətləri və dünyagörüşlü müxtəlif olan Ə. Haqverdiyevin "Ağa Məmməd Şah Qacar", S. Vurğunun "Vaqif", İ. Əfəndiyevin "Xan qızı" dramlarında hadisələr hərəkət etdirilən obrazlar müxtəlif şəkildə səhnəyə gətirilmişdir. Heydər Əliyev bunları qiymətləndirərkən şəraitin tələbinin əsas götürülməsində müəllifləri günahkar saymır. Məsələn: görkəmli xalq şairi R. Rzanın "Qızıl gül olmayaydı" poemasında Müşfiq üçün necə yandığını, "Axı mənim də ailəm vardı" deyimini, Heydər Əliyev həqiqi, real yanğı kimi qiymətləndirir və R.Rza bununla XX əsrin 30 cu illərinin xofundan özünü qorumasını düşünülmüş çıxış yolu sayır. Əgər R. Rza açıq – açığına Müşfiqin müdafiəsinə qalxsaydı, bu gün biz R.Rza yaradıcılığına həsrət qalacaqdıq. R.Rzanın düşünülmüş, mütərəqqi ideyaları ona qırmızıların represiyasından düzgün baş çıxarmaq, canını qurtarmaq imkanı vermişdir.

Heydər Əliyevin ədəbiyyat, elm və mədəniyyətlə bağlı fikirlərində ikinci bir həqiqətdə budur ki, görkəmli sənətkarlarla görüşlərin xoşa gələn, ürəkaçan səviyyədə təşkili və yubileylərin yüksək səviyyədə keçirilməsi 1969 – cu ildən başlayır. Bu tarixi ədəbiyyat və incəsənət adamlarına, klassiklərə diqqətin intibahı adlandırmaq olar: Nəsimi, Vaqif və Zakirin yubileylərinin keçirilməsi, heykəllərin qoyulması, əsərlərinin nəfis şəkildə nəşri də Heydər Əliyevin adı ilə bağlıdır. 6 yanvar 1979 – cu ildə Azərbaycan KP MK Nizaminin anadan olmasının 850 illik yubileyinin təntənəli keçirilməsi, məqbərəsinin yenidən klassik və muasir memarlığın köhnə və yeni müsbət ənənələrinə uyğun bərpası, hər il sentyabr ayında böyük şairin şərəfinə, adına layiq poeziya günlərinin keçirilməsi, əsərlərinin Azərbaycan və dünya xalqlarının dillərində gözəl, bədii tərtibatla çap edilməsi, eləcə də “Azərbaycannın maarifpərvər şairi Mirzə Şəfi Vazehin yaradıcılıq irsinin öyrənilməsini gücləndirmək haqqında” çıxarılan qərar da, 1982 – ci ilin noyabr ayında Şuşada Molla Pənah Vaqifin məqbərəsinin açılışı da Heydər Əliyevin şəxsi təşəbbüsü ilə bağlıdır.

XX əsrin son rübü daha mühüm və çox vacib vətəndaşlıq və millilik aşılayan əsərlərin yaranmasına səbəb oldu. Müstəqillik ideyalarının şüurda təşəkkülü, inkişaf edib formalaşması, qələbəsi, milli sərvətin özününküləşdirilməsi, mənəvi yetkinliyin mahiyyətcə kamilləşməsi, Heydər Əliyevin rəhbərliyi altında azadlıq əldə edən Acərbaycan xalqının ən səciyyəvi xüsusuyyətinə çevrildi. Milli ruh və milli xarakter özünün kamil obrazını tapdı. Həyat və insan probleminin, humanizminin ön plana çəkilib təhlil olunması və tədqiqi bir – biri ilə yalnız bədii deyil, ictimai – siyasi baxımdanda əlaqələndirildi. Xəlil Rza poeziyasında bu özünün yüksək zirvəsinə çatdı: “Azadlığı istəmirəm qram – qram...” deyən azadlıq carçısı vəfatından sonra soydaşlarının qəlbində əbədi yaşadı.

20 avqust 1997 – ci ildə “Azərbaycan vokal sənətinin banisi görkəmli müğənni, pedaqoq və ictimai xadim Bülbülün anadan olmasının 100 illiyi”nin qeyd edilməsi barədə verdiyi fərmanla yubiley komissiyasının yaradılması da, müxtəlif bayram

tədbirlərinin keçirilməsi də hörmətli Prezidentin  milli mədəniyyətimizin böyük ustalarına, sənət adamlarına bəslədiyi qayğının nəticəsi idi.

İllər ötəcək, Heydər Əliyevin bu sahədəki xidmətləri əbədi yaşayacaqdır.

Nizami Gəncəvi Şərq, Azərbaycan, Türk, İran, İslam, Fars mədəniyyəti, mənəviyyati, ədəbiyyatı və şeriyyətini bütün dünyaya yayan və öz ölməz «Xəmsə»si ilə aytək parlayan, günəştək nur saçan dahi sənətkarlardan biridir.

Onun anadan olma tarixi 1140-1141 illərə təsadüf edir. Lakin təəsüflər olsun ki, bu günə qədər də tam dəqiq bir məlumat yoxdur. Ancaq ayrı-ayrı Nizamişünasların yazdıqları sənədlərdə buna toxunulur. Bir həqiqət aydındır ki, şairin doğulduğu yer Gəncədir. Onun nisbəsi də buna işarədir. Digər tərəfdən Gəncə Orta əsr Azərbaycanın intibahı ilə bağlıdır. Bu şəhərdə elm, mədəniyyət, ticarət o qədər yüksək olmalı idi ki, Əbül Əla Gəncəvi, Məhsəti Gəncəvi kimi böyük şairləri kölgədə qoyub özün irəliləyəydin.

Nizaminin əsl adı İlyas, atasının adı Yusif, babasının adı Zəkiəddin, Böyük babasının adı Müyyədfiddin olmuşdur. Qeyd edək ki, o dövrdə belə titullu adları ancaq yüksək mənsəb sahiblərinə verirdilər. Nizami sözünün lüğəvi mənasi nəzmə çəkən, sıraya düzən deməkdir.

Şairin anası Gəncə kürdlərindən olub dayısı Ömər «Xacə» adı daşıyır. Bu məlumatlara əsasən Nizaminin ailəsi savadlı və dövrün mədəni insanları hesab olurdu. Nizami mükəmməl təhsilini də Gəncədə alıb özünün geniş mütaliəsi nəticəsində «Şeyx» və «Həkim» kimi yüksək rütbələri kəsb etmişdir. Nizami dahiliyinin göstəricilərindən biri də odur ki, o, özünün sələf və xələflərinə böyük hörmətlə yanaşmış, digər tərəfdən Nizami Şərqin elmi dili ərəb dilini mükəmməl bilmiş, şeir dili sayılan fars dilini ən yüksək zirvəyə qaldırmış, türk, yunan və kürd dillərini bilməklə poliqlot bir şəxsiyyət kimi yüksəlmiş dünyanın ən layiqli sənətkarı kimi bütün xalqlar tərəfindən hörmət qazanmışdır. Nizaminin həyat və yaradıcılığı bircə poeziyayla bitmir, onun yaradıcılığı çoxşaxəlidir. Nizami quranı oxumuş, özü təhlil etmişdir. Xalq rəvayətlərindən əsərlərində istifadə etmiş, elmin bütün sahələrinə baş vurmuş, antik dövrün fəlsəfəsini

öyrənmiş və nəticədə əsərlərində bunu göstərmişdir. Nizamiyə qədər heç bir yazar Şərqlə Qərbi bu qədər birləşdirə bilməmişdir. Nizami əsərlərini oxuyarkən bu qənaətə gəlmək olur ki, heç mübaliğəsiz o, öz dövrünün mövcud olan bütün elm sahələrindən xəbərdar olmuşdur. «Xəmsə»dən başqa Nizaminin şeirlər divanı olmuşdur. Lakin təəsüflər olsun ki, bu divan bizə gəlib çıxmamışdır. Bununla belə onun bir hissəsi Sankt-Peterburqdakı Saltıkov Şedrin adına kitabxanada saxlanılmaqdadır. Nizamiyə dünya şöhrəti gətirən əlbətdə onun ölməz «Xəmsə»sidir. Şair öz dövrünün hər işi ilə razılaşmır, hər cür zülmə və ədalətsizliyə qarşı öz etirazını bildirir, şahlara nəzirələr yazıb tərifdən qaçırdı. Nizaminin amalı insanlara təmiz xidmətdən ibarət idi. Şairin fikrincə insan yer üzünün əşrəfi olaraq, o, oyuncaq deyil, onun ağlı və düşüncə tərzi vardır. Nizami Gəncəvi əsərlərini oxuduqda təkcə Azərbaycan haqqında deyil, bütün Yaxın və Orta Şərq barədə dünyamız haqqında geniş və doğru məlumatlara sahib olursan. Nizaminin hər misrası fəlsəfi-didaktik fikrin təcəssümüdür. Nizami yaradıcılığının ən yüksək zirvəsində insan dayanır. O, insanın hər şeyə qadir olduğunu dəqiq həyatı misallarla açmağa müvəffəq olmuşdur:

Poladdan dağ olsa yenə də inan,
Vurub parça-parça dağıdar insan. (87-213)

Nizami bəşəriyyə sevimlisi ona görə olmuş və əsərləri bütün dünya dillərinə dönə-dönə tərcümə edilmişdir ki, o, həyat eşqi ilə yazıb-yaradan nadir sənətkarlardandır.

«Xəms» ərəb kəlməsi olub «beş» deməkdir. «Xəmsə» isə «beşlik» mənasına gəlir. Nizami yaradıcılığının da əsasını 5 poema təşkil edir.

Şairin həyat tərzi yaxşı keçmişdir. Belə ki, tanınmış ailədən olması ona mükəmməl təhsil almağa imkan yaratmış, yazdığı əsərlərə görə dövrün hökmdarları tərəfindən mükafatlandırılmış və hətta ona hər ay 40 axça maaş kəsilmişdir. O dövr üçün bu məbləğ az sayılmırdı.

Şairin həyat yoldaşı Afaq qıpçaq qızı olmuş və ondan da Məhəmməd adlı bir oğlu olmuş şairin həyatı Afaq ölənə qədər mənalı keçmiş, lakin Afaqın ölümü onu

sarsıltmışdır. Afaq kəniz kimi Nizamiyə hədiyyə edilsə də, şair humanistlik edərək onu özünə ömür-gün yoldaşı seçmişdir. Dünya şairləri içərisində qadına bu qədər yüksək qiymət verən insan ancaq Nizami olmuşdur.

«Xəmsə»sindəki bütün əsərlərində «Sirlər xəzinəsi», «Xosrov və Şirin», «Leyli və Məcnun», «Yeddi Gözəl», «İskəndərnamə»də bu məsələ özünü bariz şəkildə göstərir.

Şirin surəti, Leyli obrazı, Nüşabə mərdanəliyi buna misaldır.

Nizami, insan, onun problemləri, zəhmət, əmək, sevgi motivlərini o qədər gözəl bir surətdə oxucuya təqdim etməyi bacarmışdır ki, illər, qərinələr, əsrlər, nəsillər ötüb keçsə də, yenə oxunacaq bəşəriyyətin istifadəsi üçün yararlı olacaqdır. Bununla da Nizami hələ sağlığında əbədilik libasını geymiş sənətkar olaraq milyonların qəlbində yaşayacaqdır.

Şair, nə üçün mən «Xəmsə»ni yazdım sualına «İskəndərnamə» proloqunda cavab verir:

Oturub-durdum dünya görmüş müdriklərlə, ona görə də çalışdım yazım tarixi simalardan. Bu sehirli-sirli dünyanın xəzinəsini açmağa çalışdım. Onun üçün də «Sirlər xəzinəsi»ni açdım. Buna bir şirinlik gətirmək üçün «Xosrov və Şirin» yaratdım. Şərq qadınının sadiqliyini göstərən «Leyli və Məcnun» meydana gətirdim. Ruhlanıb atımı «Yeddi gözəl» üzərinə çapdım. İndi söz meydanında «İskəndərnamə»dən danışım. Şairin özünün dediklərindən aydın olur ki, «İskəndərnamə» onun şah əsəridir. Həqiqi mənada bu əsərlə Nizami öz fəlsəfi fikirlərini burada tərənnüm etməyə nail olmuşdur. Şairin ilk əsəri «Sirlər xəzinəsi» dünya poeziyasının ən gözəl nümunəsi kimi şöhrət qazanmışdır, Nizami nəinki təkcə bu əsəriylə, hətta, hər beyt, misra, kəlamıyla insan mənəviyyatına təsir etmiş, onu düşündürmüş və özünə cəlb etmişdir. Bu əsərdə insan əsas meyar olaraq onun bütün potensialını açıqlanmışdır. Əsər yaradanın adı, peyğəmbərin tərifi, ithaf olduğu hökmdarın istəyi və ən əsası şairin öz ideyası bəhrəsi olaraq yazılmışdır. Nizami başqalarından fərqli olaraq məddahlıqdan, boş tərifdən və asılılıqdan uzaq olmağı, öz fikirlərini sərbəst söyləməyi üstün tutmuşdur. Buna

baxmayaraq dövrün hökmdarları ona böyük ehtiramla, hörmətlə yanaşmışlar. Gəncəli şairin özü demişkən:

Ucalmaq istəsən bir kamala çat,
Kamala ehtiram göstərir həyat. (87-89)

Əgər belə bir sual ortaya çıxsa ki, Nizamidə nə var ki, bəşəriyyət onu bu qədər sevə-sevə oxumaqdadır? Cavabı çox sadə olacaq ki, bəs Nizamidə nə yoxdur ki, onu oxumayasan?

İnsan, əmək, zəhmət, doğruluq, düzlük, yaşayış tərzi, məhəbbət, mərdlik, kişilik, qadın azadlığı, müharibə, sülh, pislik, yaxşılıq, zülm, azadlıq, hökmdarlıq, rəiyyət, qanun, haqsızlıq, insaf, vicdan, xəbislik, comərdlik, xainlik, ailə, cəmiyyət, uşaqlıq, gənclik, qocalıq, doğum, aqibət, abad, xərabə, dövr, zaman şairin yaradıcılığında öz əksini tapmışdır. «Sirlər xəzinəsi» poeması dünya xəzinəsinin əsl açarıdır. Bu əsər həm tərbiyə edir, həm də yaşam tərzini öyrədir. Nəticəsi oxucunun gözləri qarşısında canlanır. Dünya ədəbiyyatında belə maraqlı traktatla qurulan əsərə rast gəlmək çox çətindir. Nizami təkamül, irsiyyət, nəsil, adət məsələlərinə çox dəqiq yanaşmış, onları fəlsəfi baxımdan izah etmişdir. «Sirlər xəzinəsi» dastanı ayrı-ayrı mövzulardan bəhs etsə də, bir mütəşəkkil cərəyan üzərində dayanıb ümumi bir vəhdət təşkil edir. Buradakı mövzular arasında sinxron bir ardıcıllıq özünü göstərməkdədir. Bir hekayə o birinin davamı olaraq oxucunu heyran edir. «Sirlər xəzinəsi» didaktik bir əsər kimi çox qiymətlidir. Dahi şairin ikinci əsəri «Xosrov və Şirin»dir. Təbiət təsvirləri bu poemada o qədər gözəl verilmişdir ki, sanki, Nizami özü böyük təbiət alimidir. Şapurun rəssamlığı, onun yaratdığı boyalar, əsrarəngiz təbiət hadisələri, Fərhadın adi Külünglə Bisitun dağının çapılması mənzərəsi çox güclü bir poetik dillə verilmişdir. Nizami göstərmişdir ki, hər kəs öz işinin mahir ustası olmalıdır. Tutduğun vəzifənin böyük-kiçikliyindən asılı olmayaraq sən onu sevməlisən və xalqa bu yolda xidmət etməlisən. Vəzifə insana şan-şöhrət deyil, insan vəzifəsinə şöhrət olmalıdır. Nizami, şahı, dilənçi, işçi, əkinçi,

zəhmətkeşlə üz-üzə qoymaqdan çəkinmir, hətta şahı onların vasitəsilə ədalətlə, düzlüyə dəvət edir.

Heç mübaliğəsiz oxuduğumuz məhəbbət əsərləri içərisində «Xosrov və Şirin» qədər ecazkarına rast gəlməmişik. Bu poema təkcə eşq tərənnümü ilə bitmir, o, eyni zamanda tərbiyəvi əhəmiyyət kəsb edir. Nizami Xosrovu eşy-işrətlə məşqul olan bir şah kimi versə də sonda əsl sevginin nə olduğunu ona anladır. Şair göstərir ki, başqalarına xəyanət edənin öz başına gəlməsi qanuna uyğundur. Bildiyimiz kimi Xosrovun öz oğlu Şiruyyə də Şirinə vurulur və nəhayət atası Xosrovu Şirinlə yataqda olduğu vaxt öldürüb onu sıradan çıxarmaqla Şirinin eşqinə nail olmaq istəyir. Lakin Şirin eşqini ancaq Xosrova vermişdir. Şiruyyə atası Xosrovu xəncərlə vurub öldürmək istədikdə belə Xosrov qan içində istəyir ki, Şirinə desin ki, ona bir içim su gətirsin, ölüm ayağında olan Xsrov Şirinin şirin-şirin yatdığını görüb onu oyatmağa qıymır. Bax, budur Nizami dühasının bəhrəsi!

Böyük İran alimi Vəhid Dəstgerdi ömrünün 30 ilini Nizami yaradıcılığına sərf etmişdir. O, yüz dəfədən artıq Nizami “Xəmsə”sini oxusa da, hər dəfə Xosrovun ölüm səhnəsi ilə qarşılaşanda gözlərindən qeyri-ixtiyarı yaşlar gəldiyini etiraf etmişdir.

Nizaminin özünün yazdığı kimi:

Pislik də, yaxşılıq da etsən inan
Unutmaz bunları bu qoca dövran. (87-127)

Nizami Gəncəvinin üçüncü poeması «Leyli və Məcnun»durr. Ərəb şifahi xalq ədəbiyyatından götürülmüş bu mövzu Nizami boyaları vasitəsiylə bütün Yaxın və Orta Şərq ölkələrinə, oradan da dünya arenasına çıxmışdır. Əsər, Şərq qadınının dəyanəti, onun ailəyə bağlılığı, məişətdəki rolunu və sevgisinə sadiqliyini göstərməklə yanaşı, onun məhdudiyyətindən danışır. İlk dəfə Şərq ədəbiyyatında qadın azadlığı məsələsinə ancaq Nizami toxunmuşdur. O, qadına kölə kimi deyil bəşəriyyətin 50%-lik üzvü şəklində tam, bərabər hüquqlu insan kimi baxmağı tövsiyə etmişdir. Nizamiyə görə ən

böyük qəhrəmanları belə ana dünyaya gətirmişsə, onun buna tam hüququ çatır. Poemanın ən gözəl xüsusiyyətlərindən biri odur ki, sevgi, eşq, mehr, məhəbbətə sadiqlik özünü bariz bir şəkildə göstərir və yaşadığı yerdən, milliyyətindən asılı olmayaraq bütün insanlara şamil edilir. Bu əsər gənclərin sevib-sevilmək məsələsində mühüm rol oynayır.

Nizami belə dar bir çərçivədə qala bilməzdi. Ona görə də şair özü dediyi kimi atını dünya üzərinə çapıb özünün dördüncü əsəri «Yeddi gözəl»i yaradır. Burada artıq dünyanın yeddi məmləkətindən, onların adət və ənənələri, qadınları haqqında ətraflı və mükəmməl məlumat verən Nizami ilk dəfə ədəbiyyatda Şərqlə-Qərbin interqasiyasına toxunmuşdur.

Ədəbiyyatımızda ruslar haqqında ilk təəssüratı məhz Nizami verməyə nail olmuşdur.

İran şahı Bəhrami-Guru Nizami adi çoban vasitəsilə nəsihətamiz sözlərlə ayıltmağa çalışmışdır. Şair yazırdı:

Sərxoşluq edən dövlət huşyar olacaq bir gün
İllərcə yatan bəxtim bidar olacaq bir gün. (87-326)

Şərq aləmində yeddi müqəddəs rəqəmdir. Nizami bundan istifadə edərək yeddi ölkə haqqında, onların məşğuliyyəti, həyat tərzi, qadınları barədə çox dəqiq məlumat verməklə onların mənəviyyatı və mentaliteti barəsində dolğun fikirlər vermişdir. «Yeddi gözəl» poeması Nizaminin özünün kamil bir sənətkar olmasına bir işarədir. Bunları əlbətdə, bilmədən yazmaq mümkün deyildir.

Şairin sonuncu əsəri «İskəndərnamə»dir. Əvvələn görək məhz nə üçün İskəndərnamə? Bizcə Yunan hökmdarı İskəndər və ya Aleksandr Makedonski öz 30 il yaşadığı tarixi bir dövrdə hamıya ölkələr fəth edən bir sərkərdə kimi məlum idi. Əsərin oxunaqlı olması və şairin fəlsəfi fikirlərinin tərənnümü məhz bu surət vasitəsilə gerçəkləşə bilərdi. Digər tərəfdən Nizami «yoldaşını mənə göstər, sənin kim olduğunu deyim» prinsipini əsas tutaraq İskəndərin başına o qədər qədim alimləri toplaması nəticəsində özü də alim olmuşdu prinsipi durur. 30 yaşlı cavan bir sərkərdə bu kiçik

zaman kəsiyində demək olar ki, güclə dünyanı fəth edə bilməzdi. Nizami İskəndər surəti vasitəsiylə elmin hər şeydən üstün olduğunu sübut etmişdir.

«İskəndərnamə» poeması iki hissədən hökmdarın gənclik və istila dövrünü əhatə edən «Şərəfnamə» və onun son aqibəti «İqbalnamə»dən ibarətdir. Tarixdə İskəndər Azərbaycanı istila etmək faktı yoxdur.

Ancaq Gəncəli şair öz vətənpərlik və qadını yüksək tutmaq ideyasını tərənnüm etdirmək üçün o, İskəndəri Azərbaycanın paytaxtı Bərdə şəhərinə gətirməyə nail olur.

Əlbətdə, Nizami kimi böyük dahi, filosof, həkim, şeyx və ən əsası misilsiz bir şair haqqında bir məqalə ilə kifayətlənmək olmaz. İllər ötəcək gənc alimlər Nizami yaradıcılığına yenə dönə-dönə müraciət edəcəklər. 900 il ərzində təravətini qoruyub saxlamış Nizami yaradıcılığı hələ açılmayan sirlərlə doludur.

Şairin özü demişkən:

Özüntək diri san məni cahanda,
Mən də canlanaram, sən canlananda. (87-446)

Göstərilənlər mövzunun aktuallığından xəbər verir. İlk olaraq biz, Nizamini araşdırmaqla onun türk olduğunu bir daha sübut etmiş oluruq ki, bu da Nizamini özünküləşdirməyə çalışanlara ən tutarlı cavabdır. Digər tərəfdən tədqiqatın predmeti Nizaminin əsərlərində farsca yazmasına baxmayaraq türkcə sözlər, idiomlar, atalar sözləri və Azərbaycan zərbi-məsələlərini sıx-sıx işlətməsidir. Burada məqsəd fars dilli şairlərin ən məşhurlarından sayılan Firdovsi, Xəyyam, Hafiz, Sədidən fərqli olaraq Nizamidə türklük və ona bağlılığı açıb göstərməkdir.

Əsərin metodologiyasına gəldikdə Nizami "Xəmsə"sində verilmiş türk sözləri və Azərbaycan zərbi-məsələlərini seçib, onları xronoloji, mütəmadi və ardıcıl surətdə göstərməkdən ibarətdir. Praktik əhəmiyyəti o olacaq ki, oxucu türk sözləri və Azərbaycan zərbi-məsələlərinə rast gəldikdə praktik olaraq Nizaminin türklüyünə zərrə qədər olsa belə şübhələnməyəcək. Elmi iş kimi ələ aldığımız bu mövzu bu strukturla davam edib, fəsil və bölmələrlə tam ardıcılığı ilə nəzərə çatdırılacaqdır. İnanmaq istərdik

ki, bu əsər Nizamişünaslıq sahəsində irəliyə atılmış yeni bir addım kimi bu sahədə çalışanların və eləcə də geniş oxucu kütləsinin marağına səbəb olacaqdır.

Azərbaycan ədəbiyyatı tarixində ilk dəfə Azərbaycan Demokratik Cümhuriyyətinin banisi M.Ə.Rəsulzadə Nizamiyə "Azərbaycan şairi Nizami " deməklə kifayətlənməyib, onun "Xəmsə"də işlətdiyi türk sözləri və Azərbaycan zərbi-məsəllərini işlətdiyini misal gətirərək sübut etmişdir ki, hətta fars ədəbiyyatının əsasını qoyan böyük Firdovsidə bu qədər türk sözləri işlənməmişdir. Bu da Nizaminin öz ana dilinə ehtiramı ilə bağlıdır.

Kitab 1953-cü ildə işıq üzü görsə də, bizə elə gəlir ki, M.Ə.Rəsulzadə hələ on illərcə əvvəl bu barədə düşünmüşdür. (bax. Azərbaycan şairi Nizami Bakı, 1953)

Məsələ aktuallaşdığı üçün kitab 1991-ci ildə yenidən nəşr edilmişdir.

Ümummilli liderimiz Heydər Əliyev də çox ehtimal ki, ədəbiyyatla maraqlanan bir insan kimi bundan faydalanmışdır.

Azərbaycan ədəbiyyatşünasları Nizami haqqında kifayət qədər yazmışlar, lakin hələ araşdırılmalı məsələlər çoxdur.

## II FƏSİL

## İRAN ƏDƏBİYYATŞÜNASLIĞINDA NİZAMİ İRSİNİN ÖYRƏNİLMƏSİ VƏ TƏDQİQİ.

Demək lazımdır ki, ədəbiyyatşünaslıq elmi yeni elmlər siyahisinə daxildir. Iranda Nizamiyə diqqət çox böyükdür. Onu demək kifayətdir ki, 600 nəfər müəllif Nizamidən yazmış, onun əsərlərini təhlil etməyə çalışmışlar. Bu alimlər içərisində V.Dostgerdi, S.Nəfisi, Ə.Şəhabi, M,Sərvət, Ə.Zərrinkub, B.Zəncani, S.Həmidi və başqalarını göstərmək olar. Göstərilən alimlərin Nizaminin öyrənilməsi, tədqiqi və təbliğində əvəzedilməz əmək və zəhmətləri vardır. Digər tərəfdən Nizaminin şair kimi dahiliyi və əsərlərini farsca yazmasını da nəzərə alsaq, maraq dairəsinin nə dərəcədə geniş olacağına şübhə yeri qalmır. Ancaq onu da demək lazımdır ki, İran mütəxəssislərinin Nizamiyə fars prizması ilə baxılmasının da əsas səbəbi onun fars dilində yazılmasıyla əlaqədardır. Bir çox müəlliflərin əsərlərində hətta, internet səhifələrində buna rast gəlirik. Baxmayaraq ki, Nizaminin Gəncədə doğulmasını heç bir ədəbiyyatşünas inkar etmir, lakin yeri gəldikdə onu farslaşdırma meylləri özünü göstərir.

Azərbaycan ədəbiyyatşünasları M.Rəfili, H.Araslı, A.Rüstəmova, R.Əliyev sübut etmişlər ki, Nizami məhz Azərbaycan şairidir. M.Ə.Rəsulzadə isə fakt, arqument, sübut və dəlillərlə bunu bir daha təsdiq etdi.

Digər tərəfdən onu vurğulayaq ki, İran ədəbiyyatı çox qədim köklərə malik dünya ədəbiyyatının ən parlaq bir hissəsidir. Heç təsadüfi deyil ki, bu ədəbiyyat Firdovsi, Xəyyam, Ənvəri, Sədi,Hafiz, Şəhriyar kimi sənətkarları dünya ədəbiyyat səhnəsinə bəxş etmişdir.

Əgər Firdovsi bu ədəbiyyatın bünovrəsini qoymuşsa, Xəyyam öz fəlsəfəsi ilə bəşəriyyəti mat qoymuş, Sədinin öyüd və nəsihətlərini demək olar ki, dünyada bilməyən insan yoxdur.

Hafiz kimi qəzəlxan hələ yetişməmişdir. Müasir İran ədəbiyyatının görkəmli nümayəndəsi Şəhriyar isə dünyaya səs salmışdır.

Sadaladığımız bu şairləri yetişdirən torpaq, heç şübhəsiz ki, ədəbiyyat və ədəbiyyatşünaslıq sahəsində inkişaf etməli idi.

Iran ədəbiyyatşünaslığından danışarkən demək lazımdır ki, hələ orta əsrlərdən bu iş öz təşəkkülünü tapmışdır. Bir çox təzkirəçilər bu barədə öz fikirlərini ifadə etmişlər. Az da olsa bizim əlimizdə olan məlumatlara görə məşhur təzkirəçi Dövlət Şah Səmərqəndi ədəbiyyatşünaslıqdan xəbər verir. Lakin ədəbiyyatşünaslığın ayrıca bir elm sahəsi kimi inkişafı XIX əsrə təsadüf edir. Bu zərurət İran əhalisinin ədəbiyyata həddindən çox meyl etçəsiylə əlaqədardır. Iranda elə bir insan tapmaq olmaz ki, Firdovsi, Xəyyam, Sədi, Hafiz və Şəhriyardan bir neçə beyt əzbərdən bilməsin. Şeirə olan maraq ədəbiyyatşünasların yetişməsinə zəmin yaratdı. Belə demək mümkünsə, bu qədər oxucu kütləsi qarşısında yüzlərcə şair və yazıçısı olan bir ölkədə mütləq ədəbiyyatşünaslar da olmalı, onlar nəyi oxuyub, necə təhlil etməyi millətə izah etməlidirlər.

Irana şəxsi səfərlərim zamanı bunun bir daha şahidi oldum. Tehranda "İnqilab" meydanında dörd yol ayrıcında onlarla kitabxanalar mövcuddur ki, bu satış mərkəzlərində istənilən şair və yazıçıların əsərlərini tapmaq mümkündür. Kitab mağazalarında alıcı izdihamı hökm sürür.

Nizamiyə gəldikdə isə, dahi şairin farsca yazması və dünyada heç bir şairlə müqayisəsi mümkünsüz görünməsi buna təkan vermiş və zəmin yaratmışdır. Demək yerinə düşər ki, İranda 600 nəfər Nizami əsərlərinə və onun təhlilinə vaxt ayırmışır. Nəticədə şairi bizə məhz onlar daha yaxşı tanınmışlar. Bu sahədə İran ediblərinin rolu danılmazdır.

Ədəbiyyat haqqında elm " Ədəbiyyatşünaslıq" adlanır. Onun sahələri: ədəbiyyat nəzəriyyəsi, ədəbiyyat tarixi və ədəbi tənqiddən ibarətdir[1] . Azərbaycan ədəbiyyatşünaslığının əsası qədimlərə söykənsə də, inkişafının yüksək mərhələsi M.F.Axundovun, daha sonra isə F.B.Köçərlinin adı ilə bağlıdır.

---

*1. Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları, Bakı, 1963 səh.4*

M.F.Axundovun ədəbiyyat haqqındakı fikirləri indi də öz əhəmiyyətini itirməmişdir. F.B.Köçərli isə minlərcə zəhmət bahasına II cilidlik "Azərbaycan ədəbiyyat tarixi" kitablarını yazmaqla bu sahədə misilsiz iş görmüşdür.

Klassik ədəbiyyatda XI əsr Qətran Təbrizidən başlayan ədəbiyyat sonralar "Divan ədəbiyyatı" adıyla məşhurlaşır. Füzuli və Saib Təbrizi dövründə (XVI-XVII əsr) özünün yüksək inkişaf dövrünə qədəm qoyur.

Əgər ədəbiyyatşünalığın daha qədim dövrünə nəzər salsaq görərik ki, Antik Yunan ədəbiyyatının yetişdirdikləri dahi şəxsiyyətlər Homer, Sofokl, Esxil, Aristofan, Evripid, Pifaqor, Heraklit, Demokrit, Sokrat, Platon , Aristotel kimi nəhəng dühalar məhz bu dövrdə yetişmişlər və dünya elminə böyük tövhələr vermişlər. Adları çəkilən bu alimlər filosoflar olsa da "Poeziya haqqında" çox dəyərli fikirlər söyləmişlər[1].

Azərbaycan intibah dövrü sənətkarlarından X.Şirvani, M.Gəncəvi və Nizami Gəncəvi intibahın nəticəsində yetişsələr də, özləri də intibaha böyük tövhələr vermişlər. Xüsusilə Nizaminin bu sahədə əcvəzedilməz rolu vardır. O, həm ictimai fikir, həm poeziya və həm də fəlsəfi ideyalar tərənnümcüsü kimi şöhrət qazanmışdır.

Avropada intibah daha sonralar yaranır və Şekspir, Leonardo da Vinci, Lope de Veqa, Servantes kimi sənətkarlar yetişir.

Azərbaycan ədəbiyyatşünaslığı əsasən ilk cücərtilərini XI-XII əsrdə Xətib Təbrizi və Yusif Xoylu yaradıcılığı Nizami əsərinin ədəbi-estetik fikrinin yaranmasında möhkəm bünövrə olmuşdur. (K.Talıbzadə).

Iran ədəbiyyatşünaslığının formalaşması və ayrıca bir elm sahəsi kimi fəaliyyəti adlarını sadalayacağımız şair, yazıçı, alim, şərqşünas və ədəbiyyatşünasların böyük zəhməti vardır. Nizami onlar üçün məbəddir.

---

*1.Əlimirzəyev X.Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları, Bakı, 2008. Səh. 30*

## 1. Böyük alim Vəhid Dəstgerdi

Iran ədəbiyyatşünaslığında Nizami əsərlərini, şairin doğum, ölüm, yaşadığı yer, dövrü və məfkurəsi haqqında ən dəqiq məlumatları məhz Vəhid Dəstgerdi vermişdir. Ədibin yeddinci dəftərindəki yazıları məqalələr şəklində "Ərməğan" jurnalında nəşr olunmuşdur. Müəllifin özünün yazdığına görə o, 30 il ömrünü Nizami yaradıcılığına sərf etmiş, "Xəmsə"ni 100 dəfədən artıq oxunmuş və hər oxuduqda yeni mətləblər kəşf etmişdir[1].

V.Dəstgerdinin bu qədər Nizamiyə diqqəti İran şahı Rza şah Pəhləvinin fikrini cəlb etmiş və o alimin Nizami haqqındakı yazılarının dərc edilməsinə sərəncam vermişdir.

Ilk olaraq Nizami şeir, qəzəl, məsnəvi, rübai sahəsində, daha sonra "Xəmsə" ustadı kimi tanınmağa başlanır.

Iran ədəbiyyatşünaslığının inkişafı ilə əlaqədar olaraq Nizami daima ön sırada durur. Lakin V.Destgerdi bəzən onu Fars-İran şairi kimi göstərir[2]. Bununla heç cür barışmaq olmaz. Əvvəla müəllif özü göstərir ki, Nizami Gəncə torpağının yetişdirməsidir. Şair bu şəhərdə doğulub boya-başa çatmış, buradan kənara çıxmamış, əsərlərini də bu şəhərdə yazmışdır. Tarixi nöqteyi- nəzərdən də Azərbaycan hökmdarları Atabəylər də şairə böyük ehtiram göstərmişlər. Bəs necə ola bilər ki, Nizami birdən birə fars şairi olsun?. Bu fikir qətiyyən öz təsdiqini tapmır. Digər tərəfdən Nizami kimi bir şairi bütün dünya xalqları öz sıralarında görməkdən iftixar edərdilər. Görünür V.Dəstgerdi İran şahına, öz millətinə xoş gəlsin deyə bu yola əl atmışdır.

Bütün bunlara baxmayaraq ustad V.Dəstgerdinin Nizami barəsindəki yazı və fikirləri dahi şairin yaradıcılığına verilən qiymət tədqirəlayiqdir.

V.Dəstgerdinin araşdırmalarının nəticəsi olaraq Nizami əsərlərinin 8 nüsxəsi ilə tanış olmuşuq. Berlin, Badilin,Oksford, İngilistan, Rampur, Kəlküttə, Hindistan və s. yerlərdə alimin əldə etdiyi nüsxələr nadir tapıntıdır.

---

*1. Dəstgerdi V. Nizami Gəncəvi, Tehran, 1318 səh. 13*

*2. Yenə orada səh. 47*

Əlbətdə, hər bir şair yaradıcılığa şeirlə başlayır. Ancaq Nizamini məşhurlaşdırıb dünya arenasına çıxaran onun ölməz "Xəmsə"sidir ki, onu da ustad V.Dəstgerdi sayəsində dahi şairin əsərləriylə tanış olmuşlar, onda alimin zəhməti əvəzedilməz görünür. Xatırlatmaq yerinə düşər ki, məhz
V.Dəstgerdinin sayəsində Nizami əsərlərinin həm farscası, həm də ingiliscəsi bütün dünyaya yayılmışdır.

## 2. Görkəmli alim Səid Nəfisi.

Araşdırmalar göstərir ki, Nizami İran ədəbiyyatşünaslığında XX əsrin birinci rübündən başlayaraq elmi şəkildə öyrənilməyə başlamışdır. Buna qədər şairin ancaq ayrı-ayrı şeir, qəzəl, qəsidələri nəşr olunur, əsərləri haqqında məlumat verilirdi. Lakin onların elmi izahları kölgədə qalırdı. XX əsr Nizami yaradıcılığına bir təkan nöqtəsi oldu. Bu araşdırmalar içərisində görkəmli İran alimi Səid Nəfisinin böyük rolu vardır. O, Nizaminin dövrü, həyatı, mənşəyi haqqında geniş məlumatlar toplamış və onları elmi şəkildə izah etmişdir. Bu baxımdan S.Nəfisinin yazdıqları diqqəti cəlb edir. Ona qədər ancaq Nizaminin adı çəkilmiş, şairin həyatı haqqında qısa məlumat verilmiş, əsərləri mövzusuna səthi toxunulmuşdur. Məhz S.Nəfisinin fədakarlığı nəticəsində Nizami irsinin öyrənilməsi və tədqiqi sahəsi geniş vüsət almışdır[1].

Ümumiyyətlə götürsək İran ədəbiyyatşünaslığının inkişafında "Ərmağan" jurnalının böyük rolu vardır. Müxtəlif şairlərin elmi şəkildə əsərlərinin elmi təhlili bu jurnalın sayəsində öz əksini tapmışdır. "Ərmağan" jurnalı Nizamişünaslıqda müstəsna rol oynamışdır. Çünki, müxtəlif alimlər Nizami haqqındakı tədqiqatlarını məhz bu jurnal vasitəsiylə geniş oxucu kütləsinə çatdırmışlar.

---

*1. S.Nəfisi, Həkim Nizami Gəncəvi,Ərməğan, 5-ci il,51-ci nömrə*

Səid Nəfisi Tehran universitetinin professoru olmaqla bərabər o, həm Avropa şərqşünasları və həm də rus şərqşünasları ilə tanış idi. O, bir neçə dəfə sovet ittifaqına gəlmiş, xarici alimlərlə fikir mübadiləsi aparmışdır.

Səid müəllim 1335 (1956) ildə Nizaminin lirikasını çap etdirmişdir ki, bu da üç əlyazmadan ibarətdir.

Daha sonra 1339 (1960) ildə Nizami divanını nəşr etdirir. Bu, mükəmməl bir əsər idi[1]. Müəllif 3 mənbədən istifadə etmişdir ki, bunlar hələ elm aləminə məlum deyildi.

Bununla da Nizami poeziyası izahlı şəkildə Avropa, rus və fars oxucusuna çatdırıldı. Divanda Nəfisi tərəfindən 16 qəsidə, 192 qəzəl, 5 qitə, 14 və 68 rübai verilmişdir. V.Dəstgerdi ilə müqayisədə 4 qəsidə, 51 qəzəl və 16 rübai çoxdur. Lakin bəzi yazıların təkrarı, yaxud onların müxtəlif variantlarda verilməsi çaşdırıcı xarakter daşıyır. Bu isə mətinşünaslıq baxımından çətinlik yaradır. Digər tərəfdən Səid Nəfisi bəzən Nizamini İran şairi, fars poeziyasının görkəmli nümayəndəsi kimi göstərməsi ilə razılaşmaq olmaz (92 – 276)

Nizami divanının kiçik bir hissəsi Hacı Məhəmməd Ağa Naxçıvanidən yadigar qalmışdır. Professor Ripka isə köhnə İstanbul nüsxəsinin əksini çəkərək "Ərmağan" jurnalına göndərmişdir.

Dünyanın müxtəlif kitabxanalarının rəflərində Nizami divanının şeir hissələrinin olması onu göstərir ki, bu divan mövcud olmuş, ancaq təəssüf ki, indiyə qədər gəlib bizə çıxmamışdır.

Göstərdiyimiz bu işi Səid Nəfisi davam etdirmiş Nizaminin dünyaya yayılmasında çox iş görmüşdür. Nəticədə Nizami daha geniş alanda yer almışdır.

Ona da qeyd edək ki, Nizami divanındakı şeirlərin bir hissəsi Saltıkov Şedrin adına Sankt-Peterburq şəhərinin mərkəzi kitabxanasında saxlanılmaqdadır. Bütün bunları nəzərə alsaq görərik ki, həqiqətən Nizaminin tam divan olmuşdur.

---

*1. S.Nəsifi, Nizaminin Qəsidə və Qəzəllər divanı, onun Şərhi, Tehran, 1338.*

Elə fikrimizcə bu şeirlər divanını Nizamişünasların bir yerə toplamaq vaxtının gəlib çatmasını göstərir.

S.Nəfisinin 1338-ci ildə yazdığı "Asar- o əhval – o divan-e qəsaed-o qəzəliyyat-e Həkim Nizami Gəncəvi" əsəri 316 səhifəlik bir kitabda cəmləşdirilmişdir. Digər tərəfdən şair haqqındakı bilgiləri də ilk olaraq Səid Nəfisi vermişdir. Şairin anadan olma və ölüm tarixi 5-10 il fərqlə göstərilsə də, ailəsi haqda qısa bioqrafik məlumat verilmiş,

5 dastanını təhlil etmiş və mahiyyətini açıqlamışdır. Bütün bunları nəzərə alsaq Səid Nəfisinin Nizami araşdıranlar içərisində xüsusi əməyi olduğu bariz bir şəkildə görünür.

## 3. Əliəkbər Şəhabi.

Iran ədəbiyyatşünasları içərisində V.Dəstgerdi və S.Nəsifidən sonra üçüncü yeri Ə.Şəhabi tutur. O, Tehran universitetinin professoru adına Nizamidən doktorluq işi yazdığına görə layiq görülmüşdür. Ə.Şəhabi Nizami "Xəmsə"sinin təhlilinə geniş yer vermiş və müəyyən mənada onları aşmağa nail olmuşdur. O, poemalardakı beytlərin izahına geniş yer ayırmış və farsların özü üçün naməlum olan məqamlara aydınlıq gətirmişdir. Lakin Ə.Şəhabinin Tehranda nəşr edilən 1350-ci ildəki "Dastanyazan İran şairi Nizami" başlığı ilə yazılan kitabı ilə heç cür razılaşmaq olmaz. Əgər özündən əvvəlki V.Dəsgerdi Nizamiyə bəzən İran şairi deyirdisə də, onun Gəncəli olduğunu və ondan türk qoxusu gəldiyini də etiraf edirdi. S.Nəfisi də ona fars şairi deməkdən çəkinmirdisə də, lakin Gəncəli olmasıyla sovet şərqşünasları Bertels və Marr ilə razılaşırdı.

V.Dəstgerdi Nizaminin Qumda anadan olma versiyasını inkar edib, onun sonradan mirzələr tərəfindən salınmasını iddia edirdisə də, Şəhabi birbaşa Nizamini İran şairi adlandırmaqdan çəkinmir, əsərinin adından göründüyü kimi və Qum məsələsini də açıqca qabardır. Bir halda ki, əksər dünya şərqsünasları Nizaminin Gəncədə doğulduğu, oradan kənara çıxmadığı, orada da yazıb-yaratdığı və məzarının da Gəncədə olmasını təsdiq edirlərsə, belə olduqda Şəhabinin Nizamiyə İran şairi deməsi əsassızdır. Bəzən fars idealogiyası özünü göstərir. Hətta, Şəhabi Nizamini Furdovsi ilə müqayisə edib,

üstünlüyü Firdovsiyə verir. Halbuki dünya ədəbiyyatında Nizamiilə müqayisə ediləcək hələ elə bir şair yoxdur. Beləliklə biz, Şəhabinin Nizami əsərlərinin təhlilinə və ondan doktorluq yazmaq işinə müsbət baxırıq. Ancaq Nizamini farslaşdırmağa yox deyirik. Ümumiyyətlə Nizaminin Qumda doğulması versiyası şərqşünaslar arasında müzakirə mövzusu olmuşdur. Nizaminin ilk tədqiqatçısı V.Dəstgerdi göstərir ki, şairin əvvəlki nüsxələrində Qumla əlaqəli beyt olmamışdır. Bu, sonradan salınmışdır,Rus şərqşünası Bertels də bu fikri təsdiq edir. Lakin digər alim Zərrinkub sübut etməyə çalışır ki, Nizaminin babası əcəm (fars) tayfasına aiddir və sonradan Gəncəyə köçmüş və Nizami Gəncədə anadan olmuşdur. Digər rus şərqşünası Krumski Qum versiyasını əsas götürsə də, sonradan Bertelsin təkidi ilə və Stalinin qorxusundan sözünü geri götürərək: "Bu gələcək şərqşünasların işidir" deyir. Çox mübahisə doğuran bir məsələ də Z.Bünyadovla bağlıdır. Ziya müəllim bizə dərs tədris etdiyi üçün biz onu yaxşı tanıyırdıq. Onun da Nizaminin Qumda anadan olması yazısı vardır. Dərs zamanı biz o sualı Ziya müəllimə ünvanladıq ki, siz bu versiyanı haradan almısınız? Cavabında dedi ki, mən İran – Azərbaycan dostluq cəmiyyətinin sədriyəm. İran alimləri Nizaminin Qumda doğulmasını İranın Qum şəhərinə aparırdılar. Onlar iddia edirdilər ki, Nizami kimi dahi ancaq bizim Qum şəhərində doğula bilər. Mən də Nizamini Azərbaycana qaytarmaq üçün dedim ki, Qum kəndi bizim Qax rayonundadır və Nizami orada anadan olmuşdur...

Lakin sonralar Nizaminin yubileyi ərəfəsində görkəmli şərqşünaslar R.Əliyev və A.Sarovlu Azərbaycan höküməti tərəfindən Qax rayonu Qum kəndinə məsələyə aydınlıq gətirmək üçün ezam olunurlar. Qayıdıb gəldikdə onlardan hesabat tələb edəndə cavab bu olub ki, Qum kəndi kiçik bir kənddir. Oradakı savadlı insanların sayını barmaqla saymaq olar. XII əsrdə Azərbaycanın intibah dövründə orada Nizami kimi bir dahinin yetişməsi mümkün deyil. Nizaminin doğma vətəni Gəncədir. Çünki, Gəncə intibah mərkəzi idi və Nizami ancaq belə mühitdə yetişə bilərdi. Lakin güman etmək olardı ki, məsələ bununla həllini tapmışdır. Ancaq son zamanlar sapı özümüzdən olan baltalar bu məsələni bir daha qabardırlar. Təəssüflər olsun ki, Azərbaycanda yaşayan azsaylı xalqların

nümayəndələri ləzgi və saxurlar iddia edirdilər ki, Nizami Qum kəndindəndir və demək ki, bizə mənsubdur. Əhməd İsayeva və Yunis Nurməmmədov kimi yarımçıq ziyalılara biz fakt, arqument, dəlil və sübutlarla cavab vermişik. Görünür belə yazılara heç münasibət bildirib cavab vermək doğru deyil. Artıq Nizaminin 800,840,850 və 870 illik yubileylərində məsələ öz həllini tapmışdır. Dünyanın qəbul etdiyi bir qanunu yenidən gündəmə gətirməyə heç bir ehtiyac hissi qalmır.

## Müasir İran ədəbiyyatşünaslığında Nizami irsinin öyrənilməsi və tədqiqi.

Nizami mövzusu daima aktual olaraq qalır. Şairin fars dilində yazmasını nəzərə alsaq, İranda buna biganə qalan heç bir şair, yazıçı, ədəbiyyatşünas, şərqşünas tapmaq mümkün deyil. Bunlardan Ə.Zərrinkub, M.Sərvət, K.Əhmədnejad, B.Zəncani, B. Sərvət, M.T.Cəfəri və s. göstərmək olar. Elə bu alimlərin səyi nəticəsində Nizami dəfələrlə nəşr edilib ingilis və fars dillərində bütün dünyaya yayılmışdır. Adama elə gəlir ki, daha Nizami haqqında hər şey deyilmişdir. Ancaq hər beytini təkrarən oxuduqda yeni mətləblər meydana çıxır. Sanki, bu, bitməz-tükənməz bir xəzinədir. Maraqlıdır ki, Nizamini öyrədib tədqiq edənlər bir-birini təkrarlamamış, hər kəs öz dərk etdiyi kimi izah vermişdir. Iran ədəbiyyatşünaslığında Firdovsi və Nizamidən başqa bu qədər tədqiqt əsərinə rast gəlmək mümkün deyil. Digər tərəfdən Nizaminin çox mükəmməl və fəsahətli dili də az rol oynamır.

## Doktor Əbdülhüseyn Zərrinkub

Dünya ədəbiyyatının mühüm bir hissəsi olan İran ədəbiyyatı zəngin ənənələrə söykənən və güclü şairlərə malik olmaqla yanaşı həm də dərin köklərə söykənir. Bəzən bu ədəbiyyatı farsdilli ədəbiyyatın konteksindən cıxarılıb, fars ədəbiyyatı kimi təqdim etməyə çalışırlar. Nəzərə alsaq ki, Rudəki, Cami, Farabi, C.Rumi, Nəvai, Xaqani, Məhsəti, Nəsimi, Füzuli kimi nəhəng sənətkarlar fars dilində yazıb yaratmışlar, fars dilinin rolu danılmazdır. Lakin adları göstərilən sənətkarların hamsını farsmənşəli qəbul etmək olmaz.

Bu nöqteyi- nəzərdən də Nizami də istisna deyil. Ancaq Nizaminin dünya şöhrəti və əsərlərini farsca yazması iranlılar tərəfindən illərcə onu fars şairi kimi qələmə vermişlər. Hətta, internet səhifələrində yazmaqdan belə çəkinməmişlər. Müasir İran alim və ədəbiyyatşünasları da bu xülyadan əl çəkmək istəmirlər. Dolayısı ilə dünyanın ən görkəmli alimi Ə.Zərrinkub da istisna deyil. Müasir İran ədəbiyyatşünası Tehran universitetinin professoru, Əfqanistan, Hindistan, İsveç və ABŞ-da Oksford universitetlərində İran ədəbiyyatından dərs demişdir.

Son illərdə daha doğrusu 2004-cü ildə Nizamiyə həsr etdiyi "Gəncə piri və ya utopiya" əsəri Gəncə şəhəri, Atabəylər dövləti, Nizaminin həyat və yaradıcılığı, onun məfkurəsi haqqında dolğun məlumat verir. Yazılarından hiss olunur ki, Ə.Zərrinkub doğurdan da çox güclü alimdir. Lakin Nizaminin mənşəyinə gəldikdə onun Gəncədə doğulmasını təsdiq etsə də, babasının İraqdan köçüb Gəncəyə gəlməsi və burada məskunlaşması versiyasını irəli sürür. Halbuki buna heç bir əsası yoxdur. Bizcə bu məsələ elə ehtimal olaraq da qalacaqdır.

Bütün bunlara baxmayaraq Zərrinkub Azərbaycan, Gəncə, o dövrün tarixi şəxsiyyətləri, Nizaminin həyat, yaradıcılığı, məfkurəsi, hansı dinə inanması və əsərləri barədə çox müfəssəl məlumat verir. "Xəmsə"si haqqında olduqca gözəl təhlil aparmışdır. Yazdıqlarından da məlum olur ki, kim pir tapmaq istəyirsə də, Gəncədə Nizaminin ətəyindən yapışsa kifayətdir.

Ancaq yazılanlarında bir qədər utopiya olduğuna işarə vurur. Bununla belə tarixi hadisələrin və şəxsiyyətlərin yaşadığı dövrləri Nizaminin doğru yazdığına görə şairə minnətdarlıq edir. Ə.Zərrinkub Nizamini fars ədəbiyyatının incisi adlandırılması və Firdovsi qədər sevilməsini vurğulayır. Əlbətdə , bu fikir öz-özlüyündə çox qiymətlidir. Ancaq Nizamini fars ədəbiyyatı daxilində verib, Azərbaycan şairi kimi göstərməməklə biz, heç cür razılaşa bilmərik. Bu sahədə bizim də günahımız az deyildir. Biz, Nizaminin 800 illik yubileyinə qədər ondan heç söhbət açmamışıq. İran ədəbiyyatşünasları isə Nizami ilə ciddi məşqul olub onun fars və ingilis dillərində bütün dünyaya yayılmasına səbəb olmuşlar.

Indi bu nəticəyə gəlmək olur ki, biz daha çox çalışmalı, dahi şairin 900 illik yubileyində bu tilsimi sındırmalıyıq. Bunun üçün orta və ali məktəblərdə xüsusi Nizami dərsləri, Nizami mərkəzləri, Nizami ensiklopediyası yaratmalıyıq. Əks halda biz, bu sahədə İranlıları keçə bilməyəciyik. Demək lazımdır ki, AMEA Nizami adına Ədəbiyyat İstitutu bu sahədə xeyli iş görmüşdür və hazırda da bu işlər davam etdirilir. 2013-cü ildə şairin vətəni Gəncə şəhərində AMEA Gəncə bölməsində Nizamişünaslıq şöbəsi yarandı. Lakin 1 il vaxt keçməsinə baxmayaraq adı çəkilən İnstitutda 1 nəfər də olsun şərqşünas, fars dilini bilən mütəxəssiz yoxdur. Görəsən Zərrinkub kimi alimin qarşısında bunlar necə cavab verecəklər?. Əgər bu yarımçıq mütəxəssislər Azərbaycanca yazılmış tərcümələrdən istifadə edib, qabağa getmək fikrindədirlərsə də, bu, yerində saymaqdan başqa bir şey deyildir. Belə gedərsə, biz heç bir müvəffəqiyyətdən danışmağa cürət etməyəciyik. Nizami bizimdir deməklə məsələ həllini tapmır, gərək elmin yüksək ola.

## Mənsur Sərvət

Nizami əsərlərində hikmət xəzinəsi, çox yaxşı haldır ki, İran alimlərinin yazdığı elmi araşdırmalar bir-birini təkrarlamır. Nizamiyə hər bir alimin öz yanaşması vardır. Belə alimlərdən biri də Mənsur Sərvətdir. Müəllif öz tədqiqaqıtını “Nizaminin hikmət xəzinəsi” adlandırmışdır.

Müəllif belə qərara gəlir ki, Nizamiyə müraciət etməyi əbəs deyil, çünki, onda eşq, əxlaq, nəsihət və ağıl insanı gözəlliyə aparır. Hətta, insan bunlardan birini götürüb əməl etsə, yenə böyük həzz alar. Nizami əsərlərini təhlil edərkən iki fikrə gəldim:

əvvələn özümdən soruşdum ki, Nizamiyə nə üçün “həkim” deyirlər?.

Əsərlərini araşdırdıqdan sonra anladım ki, o yeni eşq, fəlsəfi fikir, ağlın gücü və hikmətinə görə bu ləqəbi almışdır.

Ikincisi odur ki, Nizami fars ədəbi dilində o qədər gözəl yazmışdır ki, onu dərk etməmək mümkün deyil. Bu rəvan dil onu Sədi, Hafiz, Mövlana,Firdovsi Xəyyam və

*1. Sərvət Mənsur, Nizami Əsərlərinin ictimai və siyasi tarixi, Tehran, 1378, səh. 71*

başqalarından fərqləndirmişdir, Nizami dünya xalqları və onların mədəniyyətləri haqqında o qədər məlumat verir ki, bu da hər kəs üçün maraqlıdır. Mənsur Sərvət araşdırmalarında diqqəti cəlb edən fikir ondan ibarətdir ki, o, Atabəy Məhəmməd İbn Eldəgizin İran, İraq və Azərbaycanda möhtəşəm bir dövlət yaratdığını bütün tarixləri ilə göstərir. Səlcuqlar ərazi baxımışdan 18 bölgəyə ayrılırlar[1].

Lakin bütün İran ədəbiyyatşünaslarında olduğu kimi Mənsur Sərvət də yeri gəldikdə Nizamiyə fars prizması ilə yanaşmış, onu fars ədəbiyyatının ən yüksək şairi kimi göstərmişdir.

Müəllif bir tərəfdən Nizaminin türk olmasına şübhə etmir, əsərlərində ən çox Atabəy və Eldəgizlərdən danışdığını göstərir. Ancaq fars şairi kimi qələmə verməsi məntiqlə uyğun gəlmir[2].

Onu qeyd etmək lazımdır ki, iran mütəxəssilərində bu ənənə indiyə qədər davam edir. Ona görə də Azərbaycanda Nizamidən daha çox yazıb araşdırmaq zamanıdır. III fəsildə bu əsərlərin tərcümələrini verməyi vacib hesab edirik.

Təhlilin sonunda Mənsur Sərvət belə qərara gəlir ki, dünyada elə bir şair, yazıçı, mütəfəkkir, filosof olmaz ki, heç olmasa cüzi səhv etməmiş olsun. Nizami də istisna deyil. Ancaq onun yazdıqları qarşısında bunlar zərrəcikdir. Müəllifin fikrincə aşağıdakılara nəzər salmaq lazımdır:

1. Nizami bütün tarixi faktları olduğu kimi verməmişdir. Iskəndər Azərbaycana gəlməmişdir.
2. İslamda olan bəzi dini ayinlər Xristianlıqda yoxdur. Məs: kənizin İskəndərin əlinə su tökməsi. Bu, Məsihidə yoxdur.
3. Nizamidə həyatla din arasında bəzi anlaşıqsızlıqlar var.
4. Nizami xürafata inanmasa da, hekayələrində buna rast gəlirik.
5. Nizami son əsərinin axırında tələskənliyə yol vermişdir. Bu da qocalıqla əlaqədardır.

---

*2. Yenə orada, səh. 86*

Bütün bunlara baxmayaraq Nizami daim bəşəriyyəti düşündürən hikmət və əxlaq dəryasıdır. Hər kəsin bundan istifadə etməsi vacibdir.

## Doktor Kamil Əhmədnejad

### Nizami Gəncəvi əsərlərinin təhlili

Fars dilinə bələd olanlar arasında Nizami əsələri çox məşhurdur. Nizami ilk şairdir ki, "Leyli və Məcnun" dastanını nəzmə çəkmişdir. "Yeddi gözəl" əsəri ədəbiyyatda yeni bir mərhələnin açılışıdır. Müəllif Nizamini Firdovsi ilə müqayisə edərək göstərir ki, Fərhad surəti Firdovsidə ötəri verilirdisə də, Nizamidə əsas surətlərdən birinə çevrilmişdir. "İskəndərnamə" əsəri ilə Nizami bir ağıl dəryası kəşf etmiş, antik və öz dövrünün alimlərindən bəhs etmiş və hikmət dünyası yaratmışdır[1].

Doktor Kamil qeyd edir ki, Nizami dövründə Arran və Azərbaycandakı şairlərin heç bir məqsədi yox idi, ancaq saray şairləri olaraq şahlara tərif yazırdılar. Bu sahədə Nizami onların hamısından qabağa getmiş oldu[2].

Digər ədəbiyyatşünaslar kimi Kamil Əhmədnejad da Nizami əsərlərinin təhlilinə çox yer ayırmış və bir qayda olaraq İran ədəbiyyatşünasların hamısı Vəhid Dəstgerdini özlərinə "ustad" seçmişlər. Lakin qeyd edilməlidir ki, bu müəlliflər ustalarını təkrar etməmiş,əsərləri təhlil edərkən öz şəxsi fikir və mühazirələrini söyləmiş, yeni faktları göstərmişlər. Ancaq bir məsələ bu müəlliflərin fikrində hakim olaraq qalmış ki, Nizamini fars şairi kimi göstərsinlər.

Bizim fikrimizcə bu, xülyadan başqa bir şey deyildir. Nizaminin Gəncədən kənara çıxmaması və əsərlərini kimə ithaf etməsi, daha sonra İskəndər kimi böyük sərkərdəni Azərbaycana gətirməsi məsələləri şairin öz torpağına vurğunluğu və vətənpərvliyi ilə əlaqədardır. Hər halda Nizami əsərlərinin təhlilinə görə biz İran alimlərinə hörmətlə yanaşırıq.

---

*1. Doktor Kamil Əhmədnejad, Nizami Gəncəvi əsərlərinin təhlili, Tehran, 1376, səh.51.*

*2. Yenə orada səh.52*

## Doktor Barat Zəncani

Müəllif 2008-ci ildə Nizami "Xəmsə"sindəki ilk dastan "Sirlər xəzinəsi"ni şərh etmişdir.

Nizaminin doğum və ölüm tarixləri ayrı-ayrı alimlər tərəfindən müxtəlif cür göstərilir.

1.Ripka və Bertels hicri 535 təvəllüdünü.

2. Məctəbi Minuri 533-540 arası.

3. V.Dəstgerdi 533-540 arası.

4. Minureski 541-541 arası.

5. Darab xan 540.

6. Məhəmməd Moin 542-543.

7. Doktor Zəbihulla Səfa 530.

8. Doktor Şəhabi 530-540.

9. Mirabbas Bağırzadə 520.

## Nizaminin ölüm tarixi

1. Təzkirəsi Dövlətşah Səmərqəndi 576.

2.Qəzvini 590.

3. Hacı Xəlifə 596-597.

4. Bertels və Ripka 599.

5. Şəbli 599.

6. Doktor Şəfa 589.

7. Doktor Məhəmməd Moin 614.

8. Vəhid Dəstgerdi 600-602.

9. Müxtəlif təzkirəçilər 576,586,596,597,602,606 yazırlar.

Ayrı-ayrı müəlliflərin yazdıqları tarixləri nəzərə alaraq Nizaminin XII əsrdə yaşayıb-yaratdığı şübhə doğurmur. Digər tərəfdən Nizami Azərbaycanın qədim şəhərlərindən biri sayılan Gəncə torpağının yetişdirməsi olması öz təsdiqini avtomatik surətdə tapmış olur. ədəbiyyatların hamısında şərqşünaslar bu fikri vurğulamışlar. Məzarının da Gəncədə olması buna əyani sübutdur. Lakin İran alimləri “İran ədəbiyyatı tarixi” kitablarında nədənsə Nizamini fars şairləri sırasına salmışlar[1] .

Bizim fikrimizcə bununla heç cür razılaşmaq olmaz. Ona görə ki, fars dilində yazan şairlərin hamısını “İran, fars şairi” adlandırmağa əsas yoxdur. Bu hal təkcə Nizamidə deyil, C.Rumidə də özünü göstərmişdir.

Ancaq Azərbaycan alimləri də boş oturmamalı, elmi dəlillərlə bu fikirləri alt-üst etməlidirlər. Barat Zəncani Nizaminin divanı olduğunu təsdiqləyib göstərir ki, şairin divanında olan qəzəl, qəsidə, qitə və rübailər tam əlimizə gəlib çatmamışdır. Onun müxtəlif hissələriniu Mançestr, Oksford, Kəlküttə, Rampurda və Leninqradda mövcuddur. Bu sahədə V.Dəstgerdi, 1928-ci ildə müəyyən məlumatlar vermiş və nümunələr vermişlər. Ancaq təəssüf olsun ki, Nizami divanı indiyə qədər tam şəkildə əldə edilməmişdir.

Nizaminin özünün də İrana və fars dilinə böyük rəğbəti olmuşdur. Bunu İran Şahlarından istifadə etməsi və fars dilinin bütün məna çalarlıqlarından istifadə etməsini aydınca görürük.

Barat Zəncani tərəfindən acıqlanan Nizami “Xəmsə”si Nizamişünaslıqda irəliyə atılmış bir addımdır. Lakin onun Nizamiyə Azərbaycanlı kimi yanaşmaması ilə barışmaq olmaz.

---

*1. İran ədəbiyyat tarixi, Tehran, 1330, səh. 42.*

**Bəhruz Sərvət**

**Nizami "Xəmsə"sinin yenidən işlənib, nəşr edilməsinin əhəmiyyəti.**

Iran ədəbiyyatşünasları arasında son dövrlərdə Nizami irsinin öyrənilməsi və tədqiqində çox böyük əməyi vardır. Müəllif, 1363-1379-cu illərdə Nizami əsərlərini yenidən təhlil edərək nəşr etdirməyə nail olmuşdur. B.Sərvət bugünə qədər Nizami əsərlərini təhlil edən nə qədər alimlər varsa, onların yazıları ilə tanış olmuş, digər Şərq və Avropa müəlliflərinin Nizami əsərlərinə münasibətlərindən faydalanmışdır. Alim, hər bir müəllifin yazılarına xoş münasibətlə yanaşmış, onlara xüsusi rəğbət bəsləmişdir. Lakin müasir dövrün tələblərini nəzərə alaraq daha geniş və müfəssəl şəkildə Nizami poemalarını açmağa müvəffəq olmuşdur.

Ancaq Nizamini fars ədəbiyyatının ən uca zivəsində dayandığını söyləyən ədib, onu farslaşdırmaqdan yan keçməmişdir. Bizə elə gəlir ki, İran ədəbiyyatşünaslığında bu hal ümumi bir bəlaya çevrilmişdir. Görünür onlar bu ənənədən əl çəkə bilməyəcəklər, ta o vaxta qədər ki, biz onlardan daha çox yazıb Nizamini dünya ictimaiyyətinə çatdıra bilək.

Son illərin məhsulu olan Səid Həmidinnin 2011-ci ildə yazdığı və nəşr etdirdiyi "Nizami Gəncəvinin 5 poeması" kitabında müəllif yeni çalarlardan bəhs etsə də, açıqca bu əsərin Vəhid Dəstgerdinin yazdıqları əsasəında tərtib edildiyi göstərilir. Deməк, Nizaminin İran şairi, fars ədəbiyyatının önündə gedən sənətkarı fikirləri gündəmdə qalır. Bizə elə gəlir ki, bu ənənəni onların şüurundan çıxarmaq üçün çox çalışmalıyıq.

**Ustad Məhəmməd Tağı Cəfəri**

**Nizami Gəncəvi şeirlərində hikmət, irfan və etik mövzular.**

Ipək yolunun üstündə duran qədim Gəncə şəhəri XII əsr Azərbaycan intibahının mərkəzi, şeir, sənət ocağı, ipək, xalça, dulusçuluq, dəmir karxnaları ilə məşhur idi. O zaman Şəddadilərin hökmranlıq dövründə təsadüf edirdi. Qətran Təbrizi öz qəsidələrini burada yazırdı. Bu dövrdə Xaqani Şirvani, Fələki Şirvani kimi şairlər meydana çıxmışdı.

Bu şairlərin əksəriyyəti saray mühitini və ordakı şahlara tərif yazmaqla məşqul idilər. Yalnız Xaqani buna etiraz edərək oranı tərk etmişdir. Nizami isə açıq-açığına saray qulluğunda dayanan şairlərə nifrət edib şahlara mədh yazanlara gülürdü. Cəsarətlə şahları doğru yola dəvət edir, şairləri isə əsl həyatı görməyə və hər şeyi real yazmağa çağırırdı.

Bu qarın otaran duzsuz şairlər,

Sayəmdə dünyanı basıb yedilər.

Şikarı tutmağa aslan gərəkdir,

Tülkünün işi də müftə yemekdir.

Əlimin muzdu ilə dolanıram mən,

Cəlalım yaranır söz xəzinəmdən.

Şahlar məclisindən kənar ol, kənər,

Pambıq od görəndə alışıb yanar.

Nizaminin sevimli anları Afaqla yaşaması, kədəri onu itirməsi olmuşdur.

Şair "Xosrov və Şirin" dastanında buna toxunur.

Əğyara qəzəbli, mənə mehriban,

Könül yoldaşımdı o nazlı canan.

Nizaminin müəllif olduğu "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun" və "İskəndərnamə" əsərlərində aşağıdakı mövzular diqqət mərkəzindədir.

1. Dini-fəlsəfi dünyagörüşü

2. Məntiq

3.Məhəbbət mövzusu və ilahi eşq (irfan)

4. Nəsihət

5. Zülmə qarşı mübarizə

6.Elmi mövzular

7. Əxlaq və etik normalar.

Nizami hər şeyi açıq ifadə edən, bədii dildə onu birbaşa deyən sənətkardır. Bütün əsərlərində biz, bunun şahidi oluruq.

Ustad Məhəmməd Tağı Cəfəri, Nizami hikmətini o qədər gözəl açmışdır ki, orada hikmət, irfan, əxlaq, nəsihət bir-birini tamamlamış, elə bir əlaqə yaratmışdır ki, mədhə ehtiyac qalmamışdır. Şairin bütün müraciətlərinin başlanğıcında allah durur.

O, Hökmü hakimiyyəti aşkar,
Hikməti gizli olan Allahdır. (İqbalnamə 468)

Beləliklə, İran mütəxəssislərinin Nizami Gəncəvi haqqındakı elmi araşdırmalardan aydın olur ki, Nizami onlar üçün bitməz-tükənməz bir xəzinədir. Bu xəzinədən hələ çoxları faydalana bilər. Həqiqətən də Nizamini hər dəfə oxuyanda yeni bir mövzu özün üçün kəşf edirsən. Şairin dahi, mütəfəkkir, filosof, şeyx və həkim adlarını özündə cəmləşdirməsi də məhz bununla əlaqədardır.

Onu qeyd etmək lazımdır ki, indiyə qədər elmi iş kimi "Nizami İran ədəbiyyatşünaslığında" mövzusuna aid bir namizədlik dissertasiyası yazılmışdır. 1990-cı ildə AMEA Nizami adına Ədəbiyyat İnstitutunun əməkdaşı Gülçin xanım Hüseynova göstərilən mövzuya toxunmuşdur onu müvəffəqiyyətlə müdafiə edib filologiya elmlər namizədi dərəcəsinə layiq görülmüşdür. Əslində Gülçin Xanım hər cür tərifə layiqdir ki,

belə bir çətin mövzunun öhdəsindən gəlmişdir. Çünki, Nizami yaradıcılığı çox genişəhatəli bir mövzudur. Iran ədəbiyyatşünaslığından və Nizamidən söhbət gedirsə, müəllif mütləq fars dilini bilməlidir. Bu baxımdan dissertant ikiqat əziyyət çəkməlidir ki, bunun da öhdəsindən Gülçin Hüseynova məharətlə gəlmişdir. Mən, Gülçin xanımın yazdığı dissertasiya işi və avtoreferatı ilə tanışam. Aydındır ki, hər bir dissertasiya işi xeyli zəhmət tələb edir. Mən özüm də bu əziyyətləri görüb Gülçin xanıma qibtə edirəm. Nizami İnstitunda yazılan bu elmi mövzu AAK-nın bütün o zamankı tələblərinə uyğun yazılmışdır.

Lakin bundan artıq 24 il ötür. Indi təlimatlar, göstərişlər, fərmanlar dəyişdirilmiş, yeni bir mərhələyə qədəm qoyulmuşdur. Belə ki, indi dissertant xarici dövlətlərin heç olmasa birində mövzuya aid bir elmi məqalə çap etdirməlidir. Kitab və monoqrafiya yazmalıdır.

Yuxarıda sadaladığım bu göstəricilərin hamısı tərəfimdən yerinə yetirilmişdir. Əlavə olaraq 20 məqalə yazılmışdır. Çox böyük məsuliyyət hissi ilə məsələyə yanaşmışam.

Üç xarici dövlətdə (Qazağıstan,Rusiya və Türkiyədə) məqalələrim çıxmışdır. On iki məqaləm Azərbaycanın müxtəlif elmi təşkilatlarında nəşr edilmiş, 1 monoqrafiya 2 kitab və Fars dili dərslik kitabım, 10 minlik Farsca-Azərbaycanca lüğətin müəllifi kimi onu TQ üzrə DK-na təqdim etmişəm.

Bütün bunlar əlbətdə, Gülçin xanımda yoxdur. O, ancaq 4 konfrans məqaləsiylə kifayətlənmişdir.

Digər tərəfdən mən 600 nəfər İran müəlliflərinin əsərlərinin Nizami haqqındakı kitabiyyatını göstərmişəmsə, Gülçin Hüseynovada ancaq 10 müəllifdən söhbət açılır.

Iran ədəbiyyatşünaslarının ancaq Gülçin xanım 5-6 nəfərini əsas götürüb açıqlayırsa, məndə onların sayı 15-dir.

Gülçin Hüseynova İran ədəbiyyatşünaslarının 1 əsərini belə tam Azərbaycan dilinə tərcümə etməmişdir. Mən isə 8 əsəri dilimizə tərcümə etmişəm ki, dissertasiyaya baxan hər bir şəxs üçün aydın olsun ki, İran alimləri Nizamidən nə? və necə ? yazmışlar.

Ümid edirəm ki, mənim bu sahədə çəkdiyim zəhmət hədərə getməyəcəkdir.

# III FƏSİL

# TANINMIŞ İRAN ƏDƏBİYYATŞÜNASLARININ NİZAMİ HƏYAT, YARADICILIĞI VƏ ƏSƏRLƏRİNƏ AİD YAZDIQLARI ELMİ ARAŞDIRMALARIN BƏZİ TƏRCÜMƏLƏRİ.

Nizami irsinin daha dərindən öyrənilməsi və tədqiqi üçün İran alim və ədəbiyyatşünaslarının yazdıqları elmi əsərlərin tərcüməsini bilmək çox vacibdir. Ona görə ki, digər xalqlara nisbətən iranlılar fars dili dövlət dili olduğundan Nizamini daha yaxşı baş düşürlər. Bu baxımdan hesab edirik ki, bu əsərlərin Azərbaycan dilinə tərcüməsi vacibdir.

## ***Vəhid Dəstgerdi. Nizaminin Xəzinəsi.***

Dünya ədəbiyyatı tarixində Nizami Gəncəvini bu qədər sevən və onu təbliğ edən ikinci bir adama rast gəlmək mümkün deyil.

Söhbət böyük İran alimi Vəhid Dəstgerdidən gedir. Bu böyük alim ömrünün 30 ilini Nizami yaradıcılığına sərf etmiş və onu hamıdan yaxşı açmağa müvəffəq olmuşdur.

Nizaminin həyatı, dövrü, əsərləri haqqında ən dəyərli məlumatları məhz V.Dəstgerdi vermişdir.

Onun yeddinci dəftərdəki elmi məqalələri "Ərməğan" jurnalında çap olunmuşdur. Bu məqamlar Nizami yaradıcılığına bələd olmaq istəyənlər üçün çox faydalıdır. V.Dəstgerdi Nizamini 100 dəfədən çox oxuyub araşdıran alimdir. Elə "Ərməğan" jurnalındakı silsilə yazıları bunu təsdiq edir. Qəribə orasıdır ki, o, hər dəfə yeni fikirlər tapmışdır.

Biz də yuxarida deyilənləri nəzərə alaraq böyük alim V.Dəstgerdinin 7 dəftərindən toplanmış Nizami Gəncəvi haqqındakı elmi məqalələri araşdırmağa çalışacağıq.

***Pak allahın adıyla.***

Alihəzrət Rza şah Pəhləvi Nizami əsərlərinin çap olunması üçün şərait yaratdı. Əslində bu dünya şöhrətli şairin əsərlərinin yayılması elə dünyanın özünün iftixarıdır.

Biz bu yeddi dəftərdə cəmləşdirdiyimiz elmi və bədii yazıları “Ərməğan” jurnalında ərməğan edə bildik. Nəticədə həkim Nizaminin şeir, qəzəl, qəsidə aləmilə tanış olmaq imkanı əldə etdik.

***Bir neçə xatırlama.***

Axtarışlar nəticəsində Nizami əsərlərinin 8 nüsxəsini əldə edə bildik. Bu nüsxələr dünyanın müxtəlif kitabxanalarından götürülmüşdür. Berlin, Badilin, Oksford, İngilistan, Rampur, Kələküttə, Hindistan və s. toplanmışdır.

Baxer və Ripkanın yazılarını da əlavə edib bir gül çələngi düzəltmişik. Əlbətdə onları bir yerə toplayıb kamilləşdirmişik.

Nizamilər məsələsinə gəlincə o dövrdə onların sayı istənilən qədər idi. Köhnə təzkirələrdən onlardan bir neçəsini xatırladaq: Nizaməddin Qəməri, Nizam Esterabadi, Nizami Cami, Nizam Buxarayi, Nizami Əruzi, Nizami Moniri, Molla Nizami Təbrizi və s. Bütün bu Nizam və Nizamilər ancaq Nizami Gəncəvi adı ətrafında birləşmişlər. Bizə məlum olan Nizaminin 56 qəzəli, 2 qitə, 9 rübai, şübhəli 30 qəzəli vardır. 25 qəzəl də professor Ripka tərəfindən İstanbul nüsxəsindən götürülmüşdür. 9 qəzəl Xalxali tərəfindən tapılmışdır. 12 qəzəl isə Sahibin arxivindən götürülmüşdür.

## İLYAS YUSİF OĞLU İBN ZƏKİ MÜƏYYƏDDİN YƏNİ HƏKİM NİZAMİ GƏNCƏVİNİN TƏRCÜMEYİ-HALI

Dəfələrlə belə qərara gəldim ki, bu dünya şöhrətli həkim haqqında söz deyəm, ancaq gördüm ki, qüdrətim çatmır. Söz paltarını ona geyindirəndə gördüm ki, bu, çox qısadır. Altı dəftər yazandan sonra nəhayət yeddinci dəftəri açmalı oldum. Digər tərəfdən bu əbədi insanı öyrənmək xatirinə topladığım materiallara isnad etməli oldum:

1. Şairin ailə şəcərəsi: adı, ata-anası, arvadı, oğlu.
2. Doğulduğu yer, tarixi, rəhmət vaxtı.
3. Adət, elm, irfan, əxlaq mərtəbəsi.
4. Şairlik istedadı, özündən əvvəlki şairlərlə müqayisəsi.

5. Olmayanların tərif etməməyin səbəbi, doğruluğu seçib, pisdən imtina etmək.
6. Avropalıların Nizami xəmsəsindən gətirdiyi nümunələrə münasibət.
7. Nizami əsərlərinin müxtəlif dillərə tərcüməsi və bu sahədəki orijinallıq.
8. Nizami dövründə yaşamış 6 padişah haqqında müxtəsər məlumat.
9. Əlyazmaları və Hindistan çapı ilə Nizami yazılarının müqaisəsi.
10. Təzkirəçilər yazdıqları müxtəlif məqamlar.
11. Digər xəmsə yazanlarla Nizaminin fərqi.
12. Müasir şeirin təcəlliyatı və Nizamiyə həsəd.
13. Nizami dövrünə aid olan mövzuları və tarixi şəxsiyyətləri dərk etməklə.
14. Nizami yaşadığı dövr və qədim ədəbiyyatı gözəl təcəssüm etdirmişdir.
15. Nizaminin qəsidə, qəzəl, qitələrdən ibarət divanı əldə edilməmişdir. Ona görə də əlimizdə olan Hindistan nəşri və bəzi nümunələr haqqında söhbət açacağıq. Məqsədimizə tam yetişməsək də şair haqqında təsvvür yaratmaq imkanımız olacaqdır.

Dəstgerdi, Nizami haqqında geniş məlumat verir. Bu məlumatlarla şairin tərcümeyi-halı bəlli olur. Qeyd edək ki, müəllif, Nizami yaradıcılığı ilə 30 il məşğul olmuş və «Xəmsə»ni 100 dəfədən çox oxumuşdur. Bu da ona geniş danışmaq imkan verir. V.Dəstgerdinin üstün cəhəti odur ki, o, digər şərqşünasların da yazdıqlarını nəzərdən keçirmiş və ümumi nəticəyə gəlmişdir.

## ***Şairin adı, nəsli, qadını və övladı.***

Nizaminin həyatı haqqında geniş və müfəssəl bir məlumat yoxdur. Yalnız bəzi alim və təzkirəçilərin yazdıqları ilə kifayətlənməli oluruq. Biz isə şairin "Leyli və Məcnun" dastanındakı özünün yazdıqlarına üstünlük veririk.

Məlum olur ki, onun adı İlyas, ləqəbi Nizami yəni əbcəd hesabı ilə 1001 deməkdir. Bəzi mənbələrdə onun adının Veys olduğu göstərilsə də, bu tamamilə yanlışdır, həqiqətə uyğun deyil. Bununla heç cür razılaşmaq olmaz.

## ***Ata, babası və ulu babası kimlərdir?***

Atasının adı Yusif, babası Zəki, ulu babası Müəyyəd olmuşdur. Yenə şairin öz yazdığı beytlərdən bu, aydın olur. Oğluna müraciətdə isə Məhəmməd Nizami oğlu deyə təsdiqləyir.

***Nizaminin anası:*** Bu qadın kürd qəbiləsindəndir. Bunu şairin özü də yazır:

Gər madəre mən rəiseye kord,
Madər sefətanə pişe mən mord.
Anam kürdün rəisəsi olsa da,
Qarşımda ana sifətində öldü. (103-19)

***Şairin dayısı:*** bu adam Xacə Ömər olmuş, dövrünün mütərəqqi adamı sayılmış və Nizaminin savad almasında əsas rol oynamışdır. Nizami bu barədə yazır:

Xacə Ömər mənim dayım idi,
Həm də mənim qol-qanadım idi. (103-21)

***Nizaminin qadını:*** Onların sayı 3-dür. Lakin şair onları bir-birinin ölümündən sonra almışdır. Özünün yazdığına görə ən gözəl günlərini birinci arvadı qıpçaq qızı Afaqla keçirmişdir. Oğlu Məhəmməd də elə həmin Afaqla izdivacındandır. Dərbənd şahı Afaqı Nizamiyə kəniz kimi göndərsə də, şair Afaqın təmiz xislətini görüb onu özünə ömür-gün yoldaşı etmişdir. Şair "Xosrov və Şirin" poemasını yazarkən Afaqı nəzərdə tutduğunu vurğulamışdır.

Nizaminin ikinci və üçüncü qadını olduğu təsdiqlənsə də, nə şair özü, nə də təzkirəçilər heç onların adlarını belə çəkməmişlər. Fikrimizcə, Nizami Afaqı sidq ürəkdən sevdiyi üçün, digər o iki qadınla sadəcə olaraq bir yerdə yaşamaq xatirinə evlənmişdir.

"Xosrov və Şirin" əsərinin 429-cu səhifəsində Nizami göstərir ki, Afaqın ölümü onu çox sarsıdır və o, bundan sonra yaşamağın ləzzətini itirir. Daha sonra "Leyli və Məcnun" və "İqbalnamə"də də buna işarə edir, təəssüflənir.

***Nizaminin oğlu.*** Şairin özünün işarə etdiyi kimi onun Məhəmməd adlı bir oğlu olmuşdur. Nizami "Xosrov və Şirin" poemasında onun 7, "Leyli və Məcnun" dastanında

14, “Yeddi Gözəl” əsərində 18-19 yaşında olduğunu göstərmişdir. Lakin “Şərəfnamə” və “İqbalnamə” də bu haqda söhbət açmır.

Məhəmməd də çox ağıllı bir övlad olduğundan şair olmaq istəmiş, lakin Nizami onun həkim olmasını arzulamışdır. Onun sonrakı taleyi barədə heç bir məlumat yoxdur.

Bu məqamda Hindistanlı professor Şəblinin bir yanlış fikrini də araşdırmağa dəyər. O, isnad edir ki, guya Nizaminin bir qızı da varmış. Lakin onun adını belə çəkə bilmir. Əlbətdə, bu fərziyə ilə əssasız yerə razılaşmaq olmaz. Həqiqətdə isə digər mənbələrin hamısında Nizaminin bir övladı Məhəmməd olduğu göstərilir.

***Nizaminin iqamətgahı, doğum yeri, tarixi, vəfatı və dəfn olunduğu yer.*** Bu mətləbi doğru açmaq üçün ki, Nizaminin vətəni Gəncədir, yaxud o, İraqda doğulub uşaq vaxtı atası ilə birlikdə Gəncəyə gəlmişlər, sadəcə olaraq fərziyələrdir. Əksər təzkirəçilər şairin atasının İraq əsilli olub, Gəncəyə köçməsini göstərirlər və etiraf edirlər ki, Nizami məhz Gəncədə doğulmuşdur. O, müsəlmandır. Nizaminin özünün “Xəmsə”sindəki beytlərə nəzər salsaq o zaman görərik ki, şair özü də Gəncə və İraq adlarını çəkir.

“Sirlər xəzinəsi” dastanının 179-cu səhifəsində:

*“Mən Gəncədəyəm, indi İraq məndən uzaqdadır”.*

“Xosrov və Şirin” poemasının 361-ci səhifəsində:

*“Bütün ədəb və elm sahibləri İraqın çərxindən keçmişlər”.*

“Şərəfnamə” hissəsinin 53-cü səhifəsində Nizami yazır:

*“İraqın elmi, onu dünyada ucaltmışdır”.*

“İqbalnamə” bölməsində belə bir beytə rast gəlirik ki,

*“Gəncədə olsam da, Qum şəhərinin əhliyəm”.*

Bu beyt inandırıcı deyil, çünki, Nizaminin “İskəndərnamə” əsərinin köhnə nüsxələrində buna rast gəlinmir.

Bizcə, bu təzkirəçilərin sonradan uydurduğu mülahizələrdir.

Lakin bu elmi işi ələ alan və onun açıqlanmasına çalışan bir insan kimi bu beytin müxtəlif mənaları olduğunu söyləmək olar:

1. Əgər Nizaminin atası İraqdandırsa da, ora əlbətdə “qumluq” bir sahədir və şair də buna işarə edir.

2. Qum şəhəri İranda böyük şəhərdir. Nizami ora işarə etmir.

3. Ləzgilərin Qax rayonunda bir Qum kəndi var Nizamini ora aparıb çıxartmaq gülüncdür. Yenə İraq, Gəncə və İranın Qumu inkişaf etmiş yerlərdir, oradan Nizami yetişib çıxa bilər. Amma Qum kəndindən Nizaminin yetişməsi heç cür mümkün deyil. Digər tərəfdən bütün təzkirəçilər, Nizamişünaslar ömür boyu təsdiq ediblər ki, Nizami Gəncədə doğulub, təhsilini burada alıb, xəmsənin 5 əsərini bu şəhərdə yazıb, buradan heç kənara çıxmayıb və burada da dəfn olunub və məzarı indi də ziyarətgaha çevrilmişdir.

V.Dəstgerdi professor Ripkanın da Nizaminin Gəncədə olması fikirlərini də göstərir. Buna misal olaraq “Xosrov və Şirin”dəki 14-cü səhifə, “Şərəfnamə”dəki 44-cü səhifələri göstərmək kifayətdir.

***Şairin doğum tarixi.*** Bu sahədə də azı 10 il fərqlərlə müəyyən fikirlər mövcuddur. Lakin bizim dəqiqləşdirməmizə görə Nizami 1141-ci ildə Gəncədə təvəllüd etmişdir. Bunu əksər Şərq və Qərb şərqşünasları göstərir.

***Şairin rəhmətə getməsi.*** Nizami özü “İqbalnamə”nin 279-cu səhifəsində qeyd edir ki, onun 63,5 yaşı var idi. Belə təxmin edilir ki, 0, 2-3 il daha yaşamış və rəhmətə getmişdir. Bütün təzkirəçilər də bu fikirlə razılaşırlar. Ancaq Dövlətşah Səmərqəndi şairin ölüm vaxtını 66 il göstərir. Onun da əldə heç bir dəlili yoxdur. Hər halda şairin bu yaş arasında dünyasını dəyişdiyi ehtimal olunur.

***Onun dəfn olunduğu yer.*** Nizaminin dəfn olunduğu yer Gəncədir ki, buna heç şəkk-şübhə yoxdur. Indiki Gəncə şəhərinin 7 verstliyində şairin çox da böyük olmayan məzarı mövcud olmuş və onu da rus hökümətinin icazəsi ilə inşa etmişlər. Bura tez bir zamanda ziyarətgaha çevrilmişdir. Nizami məzarının fotosunu çəkmək mümkün olmuşdur. Bu qəbir şairə layiq olmasa da, xalq tərəfindən bir ziyarətgah kimi inanc yerinə çevrilmişdir.

Mərhum Hacı Fərhad Mirzeyi özünün “Səfərnamə” kitabında Nizami qəbri və onun üzərindəki kiçik kümbəzdən bəhs edir. O, yazır ki, kiçik kümbəz və qəbr şəhərin 7 verstliyində çox dağnıq şəkildədir. Əsərin 20-ci səhifəsində müəllif yazır ki, rus qarovullar ora atlara verilmək üçün saman tökmüşdülər və heç kəsi də yaxına buraxmırdılar.

Lakin buna dözə bilməyən Gəncəlilər yığışıb şairin məzarının yerini dəyişməyə və adına layiq bir məzar tikmək istəmişlər. Mərhum ağaye Seyyid Əbdülrəhim Xalxali “Yeni fikir” qəzetindəki Tiflisdə dərc edilirdi. 1304-cü il hicri-şəmsi tarixində bir tərcümə edib onu “Ərməğan” jurnalında dərc etdirmişdir. Bu tərcümə miladi tarixi 25 noyabr 1923-cü ilə təsadüf edir. “Ərməğan” jurnalı 256-257-ci nömrələrdə çap edilmişdir. Bu barədə aşağıdakı bilgiləri əldə etmək olar:

Əgər siz Bakıdan Gəncəyə müsafirlik etsəniz, görərsiniz ki, Gəncə çayı bu şəhəri iki hissəyə bölür. Körpünün sol tərəfində dəmiryol xəttinin sol tərəfində xərabəlikdə böyük şair Nizaminin məqbərəsi mövcuddur. Həmən şeyx Nizaminin ki, İranın ən böyük şairi və Azərbaycanın iftixarıdır.

“Qafqaz”.

Bu, o Nizamidir ki, 800 il bundan əvvəl hikmət və əxlaqı öz xəmsəsində yazmış, İslam qadını haqqında, onun hüququ barədə, həyat tərzi haqqında qələm işə salıb, onu məharətlə açmağa müvəffəq olmuşdur.

Şərq ədəbiyyatında Nizamidən əvvəl və sonra qadın azadlığı, onun analıq qayğısı və məğrurluğunu heç kəs göstərə bilməmişdir.

Tarixi sənədlər onu göstərir ki, Gəncə XI əsrdə artıq abad bir şəhər olmuşdur. Indiki Gəncə şəhərinin əsasını 1015-ci ildə Şah Abbas Səfəvi qoymuşdur. Nizami məqbərəsi şəhər kənarındakı xarabalıqda qalmışdır. Əlbətdə Gəncənin qeyrətli oğulları bununla barışa bilməzdilər ki, dünyalarca tanınmış şair, həkim, şeyx Nizaminin məzarı bərbad halda qalsın.

Gəncə ziyalıları, o cümlədən Adıgözəl adlı bir Gəncə sakini Nizami məqbərəsi və kümbəzi təmir edir. Onun övladlarından biri Əsgər Adıgözəlov Gəncənin sabiq bələdiyyəsi bu işi davam etdirir.

Nəhayət 1922-ci ildə Mirzə Məhəmməd Axundzadə tərəfindən Nizami məqbərəsini təmir etmək üçün xüsusi bir komissiya yaradılır. Buraya Gəncə ziyalılarından Cavadbəy Rəfibəyov, Mir Kazım Mir Süleymanzadə kimi adlı-sanlı adamlar daxil idi.

Onlar Şah Abbas məscidi ətrafında məqbərəni hazırlayandan sonra Nizaminin sümükləri köhnə qəbirdən müəmmalı şəkildə yoxa çıxır. Sonralar məlum olur ki, guya ruslar onu ekspertizaya aparmışlar. Beləcə şairin məqbərəsi başı bəlalı qalır.

Nizaminin özünün dediyi kimi:

Sərxoşluq edən dövlət huşyar olacaq bir gün,
İllərcə yatan bəxtin bidar olacaq bir gün. (87-326)

Doğrudan da bir gün gəldi ki, o da şairin 800 illiyinə təsadüf etdi onun sovet dönəmində olsa belə məzarı yenidən qurulub mücəssəməsi ucaldı.

Sevindirici haldır ki, Nizaminin dünya şöhrəti nəzərə alınaraq Azərbaycan xalqının müstəqillik əldə etdikdən sonra dahi şairin məzarı yenidən bərpa olundu. Lakin hələ bizim fikrimizcə Nizami barədə çox işlər görülməlidir. Onun məktəbi yaradılmalı ensklopediyası hazırlanmalıdır.

Böyük İran alimi V.Dəstgerdinin yazdıqları ilə razılaşmamaq olmur.

Həqiqətən də Nizaminin həyatı haqqında bilgilər çox azdır. Ümumiyyətlə klassik şairlərin hamısı barədə bunu demək olar. Ancaq doğruluq bundan ibarətdir ki, Nizami Gəncədə doğulub, burada yaşayıb-aradıb, oradan kənara çıxmayıb və orada da dəfn edilmişdir.

## NƏTICƏ

Məqalənin nəticəsi və sözün xülasəsi ondan ibarətdir ki, Həkim Nizami əslən İraqdan olub, Qumlu deyilsə də, Gəncədə doğulub, təhsilini burada alıb və bu şəhərdə də dəfn edilmişdir. Fikrimizcə Nizami elə Gəncəlidir.

Yaşadığı dövr və ölüm tarixi 10 il fərqli rəqəmlərlə olsa belə, tarixi şəxsiyyət kimi bizə ən qiymətli "Xəmsə" qoyub getmişdir. Hazırda indiki Gəncə şəhərinin ətrafında məqbərəsi mövcuddur. Onu 900 ilə yaxın bir məsafə bizdən ayırsa da, əhali onu ehtiramla yad etməkdədir.

***Elm, İrfan, qayda və əxlaq.*** Nizami əksər qədim elm, mədəniyyət və sivilizasiyanı o qədər yüksək mənimsəmişdi ki, hikmət, əxlaq, irfan və ərəb dilini kamil bilməsi sanki ona ilahi bir qüvvə vermişdir. Şairlik isə başqa bir istedad idi. O, fəlsəfi fikirlərini şairanə çatdırırdı. Nizami bütün hikmətini asanlıqla işə salmışdır. O, əxlaq qaydalarını bəşər övladına aşılamışdır.

Burada müəllif bir çox məqamları qeyd etsə də, bəzi fikirlərdən yan keçmişdir. Nizaminin özünün yazdığına görə dayısı Xacə Ömər dövrünün qabaqcıl adamı kimi gləcəkdə dahi şairin həyatında mühüm yer tutmuşdur. Belə ki, onun mükəmməl təhsil alması üçün Xacə Ömər, Nizamiyə dövrün ən qabaqcıl müəllimlərini tutmuş ki, bu da önəmli bir stimuldur. Yaxşı bir atalar sözümüz var ki, toyuq nə qədər yağlı olsa da, öz yağında bişmir, ona ayrıca bir yağ da əlavə olunur.

Bu baxımdan Nizaminin dayısı Xacə Ömərin köməyi danılmazdır.

***Ağıl elmi.*** Nizami ağlı hər şeydən üstün tutmuşdur: "Ağıldır hər kəsin dövləti malı" demişdir. Ona görə də o, həkim, şeyx, filosof kimi qəbul edilmişdir. Nizami bütün xəmsəsi boyu ağlın hər şeydən üstün olduğuna eyham vurmuşdur. Insan ağlı ilə ucala bilər:

*"Ucalmaq istəsən bir kamala çat,*
*Kamala ehtiram göstərir həyat".* (103-114)

Adi işçi ağıllı olsa, özünü idarə edə biləcək, ruzisini qazanıb ailəsini saxlaya biləcək. Ancaq hökmdar ağılsız olsa, ölkəni uçuruma sürükləyəcək.

“Sərxoşluq edən dövlət huşyar olacaq bir gün,

İllərcə yatan bəxtim bidar olacaq bir gün”. (103-165)

Nizami xəmsəsi başdan-ayağa öyüd, nəsihət və ağıl dəryasıdır. Bəşəriyyətə o qalır ki, bu dəryadan lazımı qədər doğru istifadə etsin.

***Tibb elmi.*** Nizami yazılarından məlum olur ki, o, tibb elminə bələd olmuşdur. Elə tibbi mülahizələr meydana sürür ki, adamda belə bir fikir formalaşır ki, şair tibb elmi ilə məşğul olmuşdur. Sağlamlıq, tibbi məsləhətlər onun bu elmin dərinliyinə getməsindən xəbər verir. Əsərlərində yeri gəldikcə onları yerli-yerində işlətməsi də bunu sübut edir.

***Mənalı təmsillər.*** Nizami yaradıcılığında təmsillərin xüsusi rolu olmuşdur. Şair bəzən sözlərini açıq deməkdən çəkinsə də, onları təmsillər vasitəsilə hökmdarlara çatdırmışdır.

Misal olaraq xəyanət üçün öz itini asan çoban, Bəhram şaha ətrafındakılara nəzər salmağın vaxtıdır, mətləbini aşılayır. Elə məsələ burasındadır ki, Nizami təmsilləri əslində insanların tərbiyəsinə yönəlmiş, onları doğru yola cəlb etmək məqsədini daşımışdır.

***Nizamidə irfan.*** Ümumiyyətlə Nizamiyə görə insan inamsız yaşaya bilməz. Heç təsadüfi deyil ki, həkim dinsiz olsaydı, xəmsənin 5 dastanının hamısında böyük allahın, peyğəmbərin tərifini ilk olaraq verməzdi. Əsərləri boyu insan hansı işi görürsə, allahını yaddan çıxarmamalıdır prinsipini əsas götürmüşdür. Elə ilk əsəri “Sirlər xəzinəsi”ndə bu sehrli dünyanı allah olmasaydı, bəndə necə yaradardı fəlsəfəsi durur.

***Qaydalar.*** Hər bir peşənin özünəməxsus üsulu və qaydası var. Nizami xəmsəsi əvvəlcədən şairin özünün dərin təfəkkürünün qayələri əsasında yazılmışdır. Əgər diqqətlə araşdırsaq, görərik ki, birinci poemasından başlayaraq, ta axırıncı dastanına qədər Nizami ardıcıl bir qayda üzrə getmiş və bunu heç vaxt pozmamışdır.

***Fəlsəfi qaydalar.*** Nizami dünyanın qədim fəlsəfəsinə bələd bir insan kimi yunan filosofları və onun əski fəlsəfəsiylə tanış idi. Lakin o, İslam fəlsəfəsi onun usul və qaydaları əsasında yazmışdır. Bəzən kənara çıxsa da , yenə İslam fəlsəfəsinə üstünlük vermişdir. Şair yaxşı dərk etmişdir ki, ancaq İslam fəlsəfəsi onu məşhurlaşdıra bilər.

***Əxlaq.*** İnsanın həyat tərzində və onun yaşayışında əxlaq mühüm rol oynayır. Həkim Nizaminin bütün külliyatında bir əxlaqsız sözə belə rast gəlmirsən. Onun abır, həya və isməti bütün şairlərin fövqündə dayanır. Nizamidə həcv belə yoxdur. O, ancaq nəsihətamiz sözlərlə tərbiyə etməyə çalışmışdır. Həqiqətən də "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl" və "İskəndərnamə" ağıl, hikmət və əxlaq mənbəyidir. Hamısı birlikdə əxlaq mücəssəməsidir.

Nəticə etibariylə həkim Nizamidə İslama bağlılıq, ağıl, təfəkkür, əxlaq və İran-sevərlik misilsizdir.

***Şairlik məqamı və onun böyük şairlərlə müqayisəsi.*** Həkim Nizminin şairlik məqamı o qədər yüksək bir səviyyədədir ki, onu əlçatmaz bir dağa bənzətmək olar. Bu ustaddan dünyaya altı xəzinə 5 bəhrdə dünyaya yadigar qalmışdır. (V.Dəstgerdiyə görə "İskəndərnamə"dəki "Şərəfnamə" və "İqbalnamə" ayrı-ayrı əsərlər kimi götürülür). Nizamiyə qədər heç bir şair bu səpkidə əsər yazmamış və ondan sonra yazanlar da Nizami məsnəvisi səviyyəsinə yüksələ bilməmişdir. Bu baxımdan Nizami əvəzsiz sənətkardır.

***Birinci dastan "Sirlər xəzinəsi".*** Əruzun səri bəhrində yazılmış 2260 beytdən ibarətdir. Bu vəzndə Nizamiyə qədər heç kəs məsnəvi yazmamışdır. Bu əsər şairin cavanlıq dövrünə 30 yaşına təsadüf edir və onun bacarığını bariz şəkildə göstərir. "Sirlər xəzinəsi" bir mürəkkəb əsəri ancaq mütaliəsi geniş olan bir şəxs yaza bilərdi. "Sirlər xəzinəsi" dünya ilə bağlı, fəlsəfi fikirlərlə dolu bir poemadır.

***İkinci dastanı "Xosrov və Şirin".*** Həzəc-müsəddəs vəznində yazılıb 6500 beytdən ibarətdir. Nizamiyə qədər bu vəzndə Fəxri Qorqani məsnəvisi "Vis və Ramin" olmuşdur. Lakin "Xosrov və Şirin" dastanı qarşısında çox kiçik bir əsərdir. Bəlkə də ona görə dillər əzbəri olmamışdır. Günəşin qarşısında cüzi işıq saçan bir çıraq kimidir.

Heç şübhəsiz dünya ədəbiyyatında "Xosrov və Şirin" kimi bir məhəbbət dastanına rast gəlmək çox müşkül məsələdir.

***Üçüncü əsər "Leyli və Məcnun".*** Bu da həzəc bəhrində yazılmış, təqribən 4500 beytdən ibarətdir. Nizamidən öncə bu bəhrdə Xaqani Şirvani "Töhvətül-İraqeyn"

əsərində istifadə etmişdir. Təkcə Şərqdə Nizamidən sonra onlarla "Leyli və Məcnun" yazılmış, demək olar ki, o dövrün ən qüdrətli şairləri bu mövzuya müraciət etmişlər. Lakin yaddan çıxartmaq olmaz ki, Nizaminin "Leyli və Məcnun" dastanının rövnəqliyini heç birisi verə bilməmişdir.

***Dördüncü əsər "Yeddi Gözəl"dir.*** Bu poema xəfif salim bəhrində yazılmış, təqribən 5130 beytdən ibarətdir. Nizamidən əvvəl bu bəhrdə Sənai yazmışdır. Bu əsər İran şahı Bəhrami Gurdan bəhs etsə də, Nizaminin elm sahələrinin şeriyyətdə birləşdirilməsinə dəlalət edir. "Yeddi Gözəl" yeddi müxtəlif məmləkət, yeddi künbəz və yeddi müxtəlif dünya gözəlindən bəhs edir.

***"İskəndərnamə" şairin sonuncu əsəridir.*** Nizami onu iki hissəyə böldüyündən müəllif Vəhid Dəstgerdi bu dastanları beşinci və altıncı əsər kimi qəbul etmişdir.

***"Şərəfnamə".*** Mütəqarib vəznində yazılmış 6800 beytdən ibarətdir. Bu bəhrdə Nizami və hətta Firdovsidən əvvəl Sərai yazmışdır. Lakin Firdovsidən güclü heç kəs bu bəhrdə yaza bilməmişdir.

***İqbalnamə.*** Bu əsər də mütəqarib bəhrində yazılmışdır. Bəzən buna "Ağılnamə" də deyilir. Bu dastan 3680 beytdən ibarətdir. Nizami bu əsərlə özünün topladığı ağıl və fəlsəfəni bu əsər vasitəsilə oxucuya çatdırmışdır. Ağıl və hikmət Nizami yaradıcılığının ən yüksək zirvəsinə çatmışdır. Bütün bunları ancaq həkim Nizami deməyə qadir idi.

Böyük İran alimi V.Dəstgerdinin verdiyi bu məlumatlar Nizamişünaslıqda mühüm əhəmiyyətə malikdir. Nəzərə alsaq ki, Nizami haqda bilgilər çox azdır, onda bunların vacibliyi qabarıq şəkildə özünü göstərməkdədir. Hiss olunur ki, alim buna bütün varlığı ilə bağlanmışdır.

# BÖYÜK İRAN ALİMİ SƏİD NƏFİSİNİN DAHİ AZƏRBAYCAN ŞAİRİ VƏ MÜTƏFƏKKİRİ NİZAMİ GƏNCƏVİ HAQQINDA YAZDIĞI ELMİ FİKİRLƏR

Araşdırmalar onu göstərdi ki, Nizami İran ədəbiyyatşünaslığında XX əsrin birinci rübündən başlayaraq elmi şəkildə öyrənilməyə başlanmışdır. Buna qədər İran ədəbiyyatında Nizaminin şeirləri, qəzəlləri, qəsidələri çap olunur, ayrı-ayrı əsərləri barədə məlumat verilirdi.

Lakin onların elmi izahları kölgədə qalırdı. XX əsr Nizami yaradıcılığına bir təkan nöqtəsi oldu. O biri fəsillərdə göstərdiyimiz alimlərdən başqa böyük İran alimi Səid Nəfisinin adını xüsusi çəkmək lazımdır. O, Nizami dövrü və şairin həyatı haqqında çox geniş məlumat vermiş, onun əsərlərini elmi surətdə təhlil etmiş və şairin dövrü barədə xeyli yazmışdır. Bu baxımdan Səid Nəfisinin yazdıqları diqqəti cəlb edir. S.Nəfisiyə qədər yazılan kitablarda Nizaminin ancaq adı çəkilmiş, qısa məlumatlar verilmiş və şairin olum-ölümü haqda yanlış məlumatlar verilmişdir. Məhz S.Nəfisinin fədakarlığı nəticəsində Nizami irsinin öyrənilməsi və tədqiqi geniş vüsət almışdır ki, bu alimlərin başında heç şübhəsiz, Vəhid Dəstgerdi durur. Cəsarətlə demək lazımdır ki, bu günə qədər Nizamiyə yanaşanların içərisində V.Dəstgerdinin zəhməti əvəzsizdir.

Nizaminin ilk olaraq elmi surətdə öyrənilməsində “Ərməğan[1]” jurnalının da böyük önəmi olmuşdur. Çünki, müxtəlif alimlər ayrı-ayrı vaxtlarda Nizami haqda yazdıqları elmi məqalələr bu jurnalda dərc olunmuş və geniş oxucu kütləsinə çatdırılmışdır. Beləliklə, S.Nəfisi təkcə Nizami və onun əsərlərinin adını çəkməklə kifayətlənməmiş, onların mahiyyətini və tənqidi mətnini hazırlamışdır. Burada o, şairin öz əsərlərinə isnad etmişdir.

Ümumiyyətlə götürsək, görərik ki, təkcə Nizami deyil, digər klassik şairlərin də həyat, dövr və əsərləri barədə tam dəqiq məlumatlar yoxdur. Bu səbəbdən də onlar barədə doğru-dürüst bilgi vermək mümkün deyildir. Burada İran alimləri sovet və

[1] S. Nəfisi, Həkim Nizami Gəncəvi, Ərmağan, 5-ci il, 51-ci nömrə

Avropa alimlərini qabaqlamaq üçün səy göstərib ciddi cəhd edib qabağa getmək istəmişlər. Nizami irsi XVIII əsrin sonu XIX əsrin əvvəllərində tədqiqatçıların nəzərini çəkmişdir. Lakin bu araşdırmalar bəzən dolambaclığa gətirib çıxarmışdır.

Səid Nəfisi bütün bunları nəzərə alaraq şairin öz yazdıqlarına isnad etməyi üstün tutmuşdur.

Qeyd etdiyimiz kimi "Ərmağan" jurnalı Nizamişünaslıqda istisna rol oynamışdır. Burada çap olunan Nizami[2] haqqındakı fikirlər marağa səbəb olmuşdur.

Səid Nəfisi Tehran Universitetinin professoru olması, Avropa şərqşünasları ilə tanışlığı və bir neçə dəfə sovet ittifaqına gəlib buradakı alimlərlə tanışlığı və fikir mübadiləsi aparması çox mətləblərdən xəbər verir. Nizami lirikasının öyrənilməsində Səid müəllimin böyük əməyi vardır. 1335(1956) ildə onu çap etdirmiş ki, bu da üç əlyazmasından ibarətdir. Daha sonra Nəfisi 1339(1960) ildə Nizaminin divanını mükəmməl bir şəkildə nəşr etdirir.

Əlbətdə, Səid Nəfisinin böyük zəhmət və əziyyəti qiymətləndirilməlidir. Lakin onun da çatışmayan tərəfləri vardır. Nizamişünaslıqda onun çalışması təqdirə layiqdir. Ancaq bəzi məqamlarda onun fars olması özünü göstərmişdir. Sovet şərqşünasları onu tənqid də etmişlər.

Ancaq bir həqiqəti vurğulayaq ki, Səid Nəfisiyə qədər Nizamini bu qədər dərindən araşdıran olmamışdır. Bunun üçün o, 38 mənbədən istifadə etmişdir. Qeyd etmək yerinə düşər ki, bu mənbələrin çoxu elm aləminə məlum deyildi.

Digər tərəfdən Nizami poeziyası müəllif tərəfindən olduğu kimi deyil, Səid Nəfisinin təşəbbüsü ilə Avropa və rus oxucusuna daha izahlı şəkildə verilmişdir.

Divanda Nəfisi tərəfindən 16 qəsidə, 192 qəzəl, 5 qitə 14 və 68 rübai verilmişdir. V.Dəstgerdi ilə müqayisədə S.Nəfisidə 4 qəsidə, 51 qəzəl və 16 rübai çoxdur.

Digər tərəfdən Səid Nəfisidə bəzi yazıların təkrarı, yaxud onların müxtəlif variantlarda verilməsi çaşdırıcı xarakter daşıyır. Mətinşünaslıq baxımından çətinlik yaradır.

[2] S.Nəfisi, Nizaminin qəsidə və qəzəllər divanı, onun şərhi, Tehran, 1338.

Bununla belə Səid Nəfisinin Nizami poeziyası və nümunəsi onun xəmsəsi, həyatı, dövrü, yaradıcılığı haqqındakı dəyərli işi yüksək qiymətləndirilməlidir.

Nizami irsinin öyrənilməsində və tədqiqində görkəmli İran alimi Vəhid Dəstgerdinin çox böyük zəhməti və rolu vardır. Onun 1318-ci ildə "Ərməğan" jurnalında çap etdiriyi "Gəncənin xəzinəsi" və ya "Həkim Nizami Gəncəvinin yeddinci dəftəri" adlı elmi məqaləsi çox mətləblərdən xəbər verir. Müəllifin qənaətinə görə Nizaminin xəmsəsinə daxil olan beş dastandan başqa onun şeirlər divanı mövcud olmuş, lakin bu divan bizim əlimizə tam gəlib çıxmasa da, onun bəzi nüsxələrini dünyanın müxtəlif kitablarında saxlanılmaqdadır. Bunlardan Berlin, Oksvord, Rampur, Kələküttə, Hindistan və sairlərin nüsxə əksləri Vəhid Dəstgerdi tərəfindən götürülmüşdür. Burada şairin qəsidə, qəzəl, rübailəri yer almışdır. Bir nüsxə isə Təbrizdə saxlanılmaqdadır. Kiçik bir hissəsi isə Hacı Məhəmməd Ağa Naxçıvanidən yadigar qalmışdır.

Buna əlavə olaraq professor Ripka köhnə İstanbul nüsxəsinin əksini çəkib "Ərməğan"a göndərmiş və çap etdirmişdir. Dünyanın müxtəlif kitabxanalarında toplanmış Nizami divanının şeir hissələri onu göstərir ki, Nizaminin həqiqətdə divanı olmuş, ancaq bu divan tam şəkilə bizə gəlib çıxmamışdır. Nizaminin xəmsəsinə nəzər salanda görürsən ki, o, bir fövqəltəbii şairdir. Dünya ədəbiyyat tarixinə nəzər saldıqda doğurdan da görürsən ki, Nizami kimi ikinci bir şair yoxdur. Bi fikirlər də Vəhid Dəstgerdiyə aiddir. Ilk dəfə V.Dəstgerdi Nizami əsərlərinin mükəmməl mətnini hazırlamış və 1939-cu ildə şairin lirik şeirlərini toplayıb çap etdirmişdir. Müəllif, Nizami divanının 8 nüsxəsini əldə etmişdir. Bu hadisədən sonra şairlər Nizami lirikasından daha cəsarətli danışmağa başlamışlar. V.Dəstgerdi kəşfindən sonra onlarca məqalə yazılıb Nizami lirikasından bəhs edilmişdir.

Səid Nəfisi də bu işi davam etdirərək Nizami şeiriyyatından bəhs etmişdir. Bu işlərin davamı kimi Avropa və Rus şərqşünasları da Nizamiyə olan maraq dairələrini genişləndirmiş, tədqiqatlarını davam etdirmişlər. Nəticədə Nizami daha geniş alanda özünə yer almışdır.

Onu da qeyd etmək yerinə düşər ki, Nizami divanındakı şeirlərin bir hissəsi **Saltıkov-Şedrin** adına Sankt-Peterburq şəhərinin mərkəzi kitabxanasında saxlanılmaqdadır.

Bütün bunları nəzərə alsaq, heç tərəddüd etmədən bu qənaətə gəlmək olar ki, Nizaminin şeirlər divanı həqiqətən olmuşdur. Fikrimizcə bunları bir yerə toplayıb millətimizə çatdırmağın vaxtı gəlib çatmışdır.

S.Nəfisinin 1338-ci ildə yazdığı «Asaro əhvalo divane qəsaedo qəzəliyyate Həkim Nizami Gəncəvi» əsəri 316 səhifəlik kitabda cəmlənmişdir.

Nizami həyat və yaradıcılığından bəhs edən ən dolğun məlumatdır. Müəllif burada Nizaminin olum və ölüm tarixlərini 5-10 il fərqlə göstərsə də, ancaq bilgi etibariylə çox vacib məsələyə toxunmuş, şairin ailəsi haqda bəzi bilgiləri vermişdir. Aydındır ki, heç bir müəllif Nizami barədə onun bioqrafiyasını aça bilməmişdir. Bu da ondan irəli gəlir ki, məlumatlara tam söykəniləcək bir mənbə bu gün belə yoxdur.

S.Nəfisi bir alim kimi Nizami xəmsəsindəki 5 dastanı təhlil etmiş, onların mahiyyətini açıqlamışdır. Bunlarla razılaşmamaq olmaz. Lakin onun yazılarında bəzən Nizamiyə fars prizması ilə baxması, hətta, fras şairi deməsi fikirləriylə razılaşmaq mümkün deyildir.

Bunu Azərbaycan şərqşünasları H.Araslı, R.Əliyev və X.Yusifli qeyd etmişlər ki, Nizami Gəncədə döğulmuş, orada yaşamış və yaratmış, oradan kənara çıxmamış, orada da torpağa tapşırılmışdır.

S.Nəfisi də bunları etiraf etsə də, nədənsə bəzən öz dediklərini təkzib edib «fars şairi» ifadəsini işlətmişdir. Bütün bunlara baxmayaraq böyük alim S.Nəfisinin Nizami haqqındakı yazıları nizamişünaslıqda önəmli rol oynayır.

# MÜASİR İRAN ƏDƏBİYYATŞÜNASLIĞINDA NİZAMİ GƏNCƏVİ İRSİNİN TƏDQİQİ

Dünya ədəbiyyatşünaslığının bir hissəsi olan İran ədəbiyyatı ən zəngin ənənələrə və çox güclü şairlərə malik olmaqla yanaşı həm də qədim köklərə söykənir. Bəzən bu ədəbiyyat bütün fars dilli ədəbiyyatı öz çərçivəsi dairəsinə salmağa çalışır. Nəzərə alsaq ki, bütün Yaxın və Orta Şərqin şeir dili fars dili qəbul edilmişdir, onda buna heç bir ehtiyac qalmır. Orta əsr şairlərinin əksəriyyəti fars dilinə müraciət etdiklərindən yeni bir fars dilli şeir çələngi meydana çıxmışdır. Bu şairlərdən Firdovsi, Xəyyam, Sədi, Hafiz, Rudəki, Cami, Farabi, C.Rumi, Nəvai ilə yanaşı Xaqani, Məhsəti, Nəsimi, Füzuli kimi şairlər Azərbaycan şeirinin fövqündə dayanmış, əsərlərinin əksəriyyətini fars dilində yazmışlar.

Nizamiyə gəldikdə isə, o, xüsusi bir yer tutmuş, nəinki Şərqin, dünyanın ən qüdrətli şairi kimi şöhrət qazanmışdır. Nizami, İran ədəbiyyatşünaslığında özəl bir yer tutur. Heç təsadüfi deyil ki, ömrünün 30 illik fəaliyyətini Nizamiyə və onun yaradıcılığına həsr etmiş böyük İran alimi V.Dəstgerdi demişdir ki, İran ədəbiyyatnıda Nizami ilə müqayisə ediləcək ikinci bir şairə rast gəlmək mümkün deyildir. Ədalət naminə desək, elə Nizamidən ən çox yazan, onu lap çox araşdırıb tədqiq edənlər İran yazıçı, şair, alim və şərqşünaslarıdır. Nizaminin fars dilində yazması buna daha artıq stimul yaratmışdır.

Əlbətdə, burada fars təsirinin də istisna rolu vardır. Lakin həqiqət naminə desək, Nizamini ən çox təhlil edən və onun əsərlərini tədqiq edənlər də İran alimləridir.

Nəticədə Nizami dünyada məşhurlaşmış, İranda isə onu tanımayan yoxdur. XIX əsrin II yarısından başlayaraq İran alimlərindən S.Nəfisi, V.Dəstgerdi, Ə.Şəhabi, Zərrinkub, M.Sərvət, K.Əhmədnejad, B.Zəncani, Ə.Fərzanə və başqaları Nizamiyə dönə-dönə müraciət etmiş, onun əsərlərini təhlil etmiş və tədqiqatında mühüm rol oynamışlar. Nəticədə Nizami əsərləri fars və ingilis dillərində bütün dünyaya yayılmışdır.

Lakin bu araşdırmaların hamısı ilə tam razılaşmaq mümkün deyildir. Burada bir neçə faktora diqqət yetirmək lazımdır:

1. Nizami elə bir dahidir ki, hər tədqiqatçı onu olduğu kimi dərk edə bilməz.
2. İran ədəbiyyatşünasları bir qayda olaraq Nizamiyə fars prizması ilə yanaşmışlar.
3. Şairin doğum ilində 10 il fərqlə yazılara rast gəlinir.
4. Nizamidə türkçülük meyllərinə demək olar ki, heç toxunulmamışdır.
5. Onun Gəncədə doğulması inkar edilməsə də, başqa yerdən gəldiyi fikirləri var.
6. Orta əsr şeir dili fars dili olduğundan İran ədəbiyyatşünasları onu fars şairi kimi verməyə çalışırlar.
7. Nizamini dünyaya ən çox tanıdan İran alimləri oldular üçün, elə şair haqqındakı fikirləri də onlar formalaşdırmışlar.

Açığını etiraf etsək, Azərbaycan onun vətəni olsa da, H.Araslı və R.Əliyevdən başqa şairin əsərləri o qədər təhlil olunmamış, tədqiq edilməmişdir. Ayrı-ayrı illərdə və şairin 800-850 illik yibileylərində işlər aparılıb müxtəlif məqalələr yazılmışdır ki, bunu bizcə qənaətbəxş saymaq olmaz. Heç deyilsə biz mütəmadi olaraq «Nizami məktəbi» yaratmalı idik. Təəssüflər olsun ki, biz bunu etmirik, nəticədə İran alimləri artıq indidən Nizaminin 900 illiyinə hazırlıq məqsədilə şairin xəmsəsini yenidən fars və ingilis dillərində dünyaya yayıb özününküləşdirirlər.

Yuxarıda qeyd etdiyimiz kimi, Nizami elə böyük bir şəxsiyyətdir ki, onun xəmsəsinin hər bir əsərində ən azı 5 dahi çıxır. Bu baxımdan əgər şairin hər misrasından bir öyüd və nəsihət çıxırsa, biz onu ömrümüz çatıncaya qədər araşdırmalı və tədqiq etməliyik.

İranda elə bir il olmur ki, Nizami haqqında yazmasınlar, onu təhlil etməsinlər və əsərələri araşdırılaraq tədqiq edilməsin. Şairin doğum ili haqqında yeni-yeni mülahizələr, onun ilk şeirləri barədə araşdırmalar, yaşadığı dövr və bu dövrün hökmdarları haqda geniş məlumatlar verilməklə yanaşı xəmsədəki əsərlərindən «Sirlər xəzinəsi», «Xosrov və Şirin», «Leyli və Məcnun», «Yeddi Gözəl» və «İskəndərnamə» poemalarnın səciyyəvi xüsusiyyətləri, onların yaranma səbəbləri haqqında geniş şərhlər

verib açıqlamağa çalışmışlar. Maraqlı orasıdır ki, bu tədqiqatlar bir-birini təkrar etməmiş, yeni-yeni mətləblərin meydana çıxmasına səbəb olmuşdur. İndiyə qədər də Nizami və onun xəmsəsi bir tədqiqat obyekti olaraq qalmaqdadır.

İranda bu iş dövlət səviyyəsində dəstəklənir və müxtəlif çap evlərində yazılan hər bir elmi məqalə işıq üzü görür. Digər tərəfdən Nizaminin atəşpərəstlik, sufilik, islama münasibətləri və onun dini görüşləri araşdırma obyekti olaraq açıqlanmağa çalışdırılır. Nizamidə idrak, irfan və real dünya görüşü bir vəhdət təşkil edir. Elə buna görədir ki, biz Nizamini nə tam din xadimi, nə sufii, nə də dinsiz adlandıra bilmirik. Şairin tarixi şəxsiyyətlərə müraciət etməsi və öz fəlsəfi fikirlərini söyləməsi onun tam öz düşüncə tərzindən xəbər verir.

Nizamiyə bir şair kimi baxmaq doğru sayılmazdı. O, dövrünün bütün mövcud elmlərini şeriyyətə gətirməklə, fəlsəfi fikir sahəsində ən uca kulminatik nöqtəni fəth etmişdir. Belə olmasaydı bu illər ərzində Nizamidən bu qədər yazmaq mümkün olmazdı. Tədqiqatlar göstərir ki, Nizami elə bir bitməz-tükənməz xəzinədir ki, biz hələ onun içərisinə daxil olmağa macal tapmamışıq. Olsa-olsa onun astanası ağzındayıq. Elə buna görədir ki, təkcə İran alimlər deyil, Nizamini bütün dünya alimləri onu tədqiqat obyektinə çevrilmişdir. Bəşəriyyətin poeziya hissiyyatı durduqca Nizami öz ölməzliyi ilə yaşayacaq, neçə-neçə nəsillərə örnək olacaqdır. Həmişəyaşıl ağac kimi heç vaxt solmayacaqdır.

Nizamini ən çox araşdıran, onun əsərlərini təhlil edib tədqiq edən şərqşünas alimlərdən V.Dəstgerdi və rus alimi akademik Bertelsdir. V.Dəsgerdi öz yazılarında qeyd edir ki, mən, Nizami xəmsəsini 100 dəfədən çox oxuyub mütaliə etmişəm. Ancaq hər dəfə Xosrov və Leylinin ölüm səhnələrinə gəldikdə gözlərimdən qeyri-ixtiyari olaraq yaş gəlmişdir. Əsərin emosional təsiri o qədər yüksəkdir ki, biixtiyar insan özünü saxlaya bilmir. Biz, Nizamini tədqiq etməklə özümüzü dərk etmiş oluruq. Eyni zamanda elm aləmi də bizi tanımağa başlayır.

Akademik Bertels demiş ki, Nizami bəşəriyyətin 100 illərlə arzuladığı azadlıq, bərabərlik, qardaşlıq, doğruluq, sülh ideyalarını onlara bəxş etmişdir. Biz ondan daha nə istəyə bilərdik?! (94-98)

Həqiqət naminə desək İran ədəbiyyatşünaslığında Nizami xüsusi bir yer tutur. Uzun illər onu tədqiq etmək deyilənlərə bariz nümunədir.

Hal-hazırda İranda elə bir ədəbi məclis, elə bir şair, yazıçının yubileyi, elə bir ədəbi-bədii konfrans, konqress olmaz ki, orada Nizami adı çəkilməsin. Söhbət dünya poeziyası incilərindən gedərkən hər şeyin başında Nizami şeriyyatı durur.

Nizaminin çox nəfis və gözəl farscası var ki, insan istər-istəməz ondan uzaqlaşa bilmir. Digər tərəfdən bu dil bütün oxucu kütlələri üçün anlaşıqlıdır. Nizami poeziyasındakı ərəb və türk sözləri tam yerli-yerində işlədilərək şerə yeni bir təravət gətirmişdir. Şairin bir poliqlot kimi dilləri kamil bilməsi ona başucalığı gətirmiş, əsərlərinin tez bir zaman içərisində yayılmasına zəmin yaratmışdır. Beləliklə də, Nizami hələ sağlığında ikən özünə ölməzlik, əbədilik mücəssəməsi yaratmışdır.

Doğurdan da İran ədəbiyyatşünaslığında 100-dən artıq müəllif Nizaminin həyatı, şəxsiyyəti, yaşadığı dövrü, onun şeir dünyası və xəmsəsindəki beş əsəri haqqında çox yazmışlar. Lakin onu qeyd etmək yerinə düşər ki, bu müəlliflərin Nizamiyə yanaşma tərzi hər kəsin öz bilik meyarı çərçivəsi hesabınadır. Nəticədə elə bir müəzzəm elmi əsərlər toplusu meydana gəlmişdir ki, onları illərcə tədqiq etməyə yetərincə vaxt lazımdır.

İran ədəbiyyatşünaslığında Firdovsi və Nizamidən başqa bu qədər tədqiqat obyekti olan şairə rast gəlmək mümkün deyil. Sevindirici haldır ki, bu işlər indi də gənc ədəbiyyatşünas, alim və şərqşünaslar tərəfindən davam etdirilir. Bu, onu göstərir ki, Nizami elə bir ümmanlı dahidir ki, biz hələ onun içərisinə heç qurşağa qədər də daxil ola bilməmişik.

Müasir ədəbiyyatşünaslıqda Nizami haqda yazan və onu tədqiq edən alimlərdən ən görkəmlisi doktor Ə.Zərrinkubdur. Ona görə ki, Zərrinkub Tehran universitetində, Əfqanıstanda, Pakistanda, Hindistanda, İsveçdə və hətta Oksford universitetində

çalışaraq şərq ədiblərini, ədəbiyyatını tədris etmiş, eyni zamanda Nizamiyə xüsusi hüsnü-rəğbəti olmuşdur. Onun 2004-cü ildə yazdığı «Gəncə piri və ya utopiya» əsəri Nizaminin həyat, əsər və fikir dünyasından bəhs edir.

Müəllif bu əsərlə Nizami dünyasını tam açmağa çalışmış, eyni zamanda onun tədqiqini göstərilən ölkələrdə yaymışdır. Onun Nizami haqqındakı kitabı ingilis dilində yazılıb tərcümə edilərək dünyanın əksər ölkələrinə yayılmışdır.

Bu baxımdan İran alim və ədəbiyyatşünaslarının gördüyü işlər təqdirə layiqdir. Ə.Zərrinkub Nizamini tədqiq etməklə qərb aləminə poeziyanın şərqin özü kimi necə əsrarəngiz odğunu çatdırmış, onu sevdirməyə nail olmuşdur. Ədəbiyyatın, mədəniyyətin, sivilizasiyanın Şərqdən doğub nəşət etməsini bir daha sübut etmişdir. Heç də Nizami kimi dahiləri yetişdirən şərqin təsadüfi bir yer olmamasını sübuta yetirmişdir. Tədqiqatçı, günəşin Şərqdən doğub yer kürəsini qızdırdığını söyləməklə şeriyyatın da bir o qədər qəlblərə nüfuz etdiyini göstərməyə çalışmışdır. Doğurdan da, əsrlər, illər ötüb keçsə də Avropanın ən məşhur şairləri şərq şeriyyatının ecazkar ritmi qarşısında aciz qalmış, etiraf etməyə məcbur olmuşlar ki, Şərqin ən adi şairi Qərbin ən görkəmli şairindən daha üstündür. Bu nöqteyi-nəzərdən Nizami heç kəslə müqayisə ediləcək bir şair deyil. 900-ilə yaxın bir məsafə onu bizdən ayıran olsa da, yenə ikinci bir Nizami yetişəcəyi mümkünsüz görünür.

## *NİZAMİNİN HƏYAT VƏ YARADICILIĞI*
## *GƏNCƏ ŞƏHƏRİ*

***Doktor Əbdülhüseyn Zərrinkub***

Gəncə şəhəri Arran torpağında Araz və Kür çaylarının əhatəsində yerləşmişdir. Gəncə İslam və Xristian dinlərinin sərhəddini təşkil edən bir ərazidədir. Fələstin, Şam, Misir səliblərin əlinə keçən zaman rus, gürcü, erməni kimi xristianlar Bizansın təhriki ilə Arrana köçürülmüşlər və onlar da islam torpaqları olan Gəncə, Şəmkir, Beyləqan, Bərdə və Tiflisə hücum edib oraları qarət etmişlər.

Bu yerlərin islam sərhədlərini müsəlmanlar daim müdafiə etmiş, başqa bölgələrin camaatından da cihad üçün tələb edib kafirlərə qarşı yönəltmişlər. İraq Səlcuqları Məlikşah dövründə bu əraziləri mənimsəmiş, zəif vaxtlarında isə Azərbaycan Atabəylərinə həvalə etmişlər. Onlar da öz növbələrində Gəncəni hakimi məhəlli seçmişlər. Ətrafdan köməyə gələn insanlar da şəhərin müdafiəsinə qalxmışlar. Burada olan müxtəlif millətlərin nümayəndələri kürd, türk, ərəblər də bu cihada qatılmışlar. Təbiidir ki, bu ünsürlər öz adət və ənənələrini də gətirib yaymışlar. Bu əhalinin dili iran və ləhcələri Arrani-türk-azəri kimi olmuşdur. Hicri tarixi ilə 333-cü ildə Bərdə Arranın paytaxtı idi. Lakin Bərdə rus dəniz quldurları tərəfindən hücum edilib, viran qoyuldu, qarət edildi. Gəncə, Bərdə və Tiflis yolu üstündə olduğundan tədriclə rövnəqlənməyə başladı. Kürd mənşəli Şəddadilərin paytaxtı (340-cı il hicri) Səlcuqların qələbəsinə qədər (468 hicri) Məlikşahın övladlarından birinin əlində qaldı. Bərdə rus qarətindən özünə gələ bilmədiyindən Gəncə gündən-günə inkişafa doğru getdi. Gəncə, Şəddadilərin vaxtında get-gedə sərvət və cəmiyyəti artıraraq böyük ticarət mərkəzinə çevrildi. Gəncənin havası sağlamlıq üçün yararlı, xüsusilə yay vaxtı ətrafındakı yaylaqlar səfalı, yaşıl meşələr mənzərəli idi. Gəncənin yay vaxtı havası çox xoş olur. Gəncə çayı Gürcüstan dağlarından mənbəyini alıb şəhərin içərisindən keçir, şəhərə ayrıca bir təravət verirdi. Bu çay şəhəri iki yerə bölür. Bəzən daşqınlar zamanı şəhər əhalisi bir-birilə əlaqəni itirirdi. Digər tərəfdən Gəncə torpağı münbit, əkinçilik üçün yararlı, xeyli

miqdarda meyvə ağacları ilə əhatə olmuşdur. Tut ağacı burada çoxluq təşkil edirdi ki, bu da ipəkçiliyə təkan verirdi. Hətta, Gəncə ipəyi Bərdə ipəyindən daha üstün idi. Buna görə bu ipək hər yerdə məşhur idi. Gəncənin əkinçilik sahələri feodal qaydalarına uyğun olaraq şahzadə Sahib tərəfindən Səlcuqların hökmdarı Məhəmməd ibn Məlikşahın övladlarından biri tərəfindən idarə olunurdu, ya da Atabəyə tabe idi. Bu dövrdə kəndlilərin vəziyyəti şəhər qoşun başçıları və xaniman sahiblərinin əlində idi, onlardan asılı idi. Şəhər əhalisi müxtəlif təbəqələrdən olsalar da, əksəriyyəti sənətkarlıqla məşğul olardı. Şəhərlilərin çoxusunun inancı şiəlik olduğundan digər məzhəb sahiblərinə o qədər də öz aralarında yer verməzdilər. Digər tərəfdən buna müxalif qüvvələr də mövcud idi. Şəhər əhalisi daim rum və abxazların hücumuna məruz qalırdı. Bu üzdən də cavanlar hərb təlimləri keçirdilər. Onlara silahla davranmaq, suvari və hərb təlimləri öyrədirdilər. O zamanın tanınmış qazi və adlı-sanlı adamlarından Hezbərəldin, Möyəddin, Dayiəlhəd, Qasım Abdulla xalq tçərisində böyük nüfuza malik idilər.

Bu qazilərin sərkərdələri din xadimləri və şəhərin Şəddadilər zümrəsi Gəncənin əsasını təşkil edib yaxın və uzaq ölkələrdən camaatı bura cəlb edirdilər.

Bu üzdən də ticarət şəhəri kimi hər yerdən bura axın var idi. Bu dövrdə Əmir Keykavus ibn İskəndər «Qobusnamə» əsərinin müəllifi Arrana gəlib Gəncədə Şəddadilərdən Əbnəlsəvarın qonağı olmuşdur. Bu zaman Tiflis abxazların əlinə keçib Qafqaz səliblərinin iqamətgahına çevrildi. Gəncədə hicri 533-cü ildə dəhşətli zəlzələ baş verdi və 300 000 insan tələf oldu. Gürcü fərmandarı Dimitri də bu dağıntılardan istifadə edrək Gəncəni qarət etdi. O, hətta Gəncənin Dəmir darvazalarını qənimət kimi Gürcüstana apardı. Digər tərəfdən abxaz və rumlar şəhəri qarət edirdilər. Şəhərin uğrunda gedən bu hərc-mərclikdə Marağa Əhmədiyanlarından şəhər Ərdəbil Eldəgizlərinin əlinə keçdi. Azərbaycan Atabəyləri Gəncəni gürcü təhdidlərindən azad etməyə müvəffəq oldular. Daxili ittifaqlar da öz təsirini göstərirdi. Atabəy Eldəgiz və oğlanları Cahan Pəhləvan və Qızıl Arslan qoşun təşkil edib gürcülərin bütün həmlələrini dəf etdilər. Lakin müxalif qüvvələr və qazilərlə onların mübarizəsi davam edirdi. Eldəgizin xatını, Toğrul Səlcuqi Arslanın anası da müharibə və siyasət işlərinə qarışırdı.

Gəncə bu dövrdə Şəddadilərin təsirində olub fars ədəbiyyatı və şeirinin təsiri altında olmuşdur. Bu dövrdə Əbul Üla Gəncəvinin şeirləri məşhur idi. Məhsəti Gəncəvi şeirlərinin də yayıldığı bu şəhər böyük bir fars şeir mühitini əks etdirirdi.

Bu dövrdə «Şəhər şairi» adlanan İlyas İbn Yusifin evinə üz tuturdular. Gəncənin cavan şairi Nizami Gəncəvinin qəzəl və qəsidələrini dinləyirdilər. Nizaminin şeirləri xüsusi bir qüdrətə malik idi. Onun elm, təfəkkür, hikmət dolu şeirləri hamının diqqətini özünə cəlb edirdi. Nizami hökmdarlara şeir həsr etsə də, bu, məddahlıqdan deyil, zərurətdən meydana gəlirdi. O, bu şeirləri dostluq hədiyyəsi kimi yazıb ithaf edirdi. Əsrin böyükləri də bunu bir ağıllı hərəkət kimi qəbul edirdilər. Onun nəsihətlərinin yerli-yerində olduğunu dərk edirdilər.

Müxtəlif illərdə Nizaminin həyatı və yaradıcılığına toxunan təzkirəçilər onun haqqında pərakəndə məlumatlar vermişlər. Yazdıqları əsərlərin haqqında da doğru-dürüst bir məlumat yoxdur. Buna dəqiq yanaşmaq üçün tələb qoyulmuşdur. Şairin şeir dünyası çox dərin olduğundan tədqiqat işləri davam etdirilməlidir.

Nizami Gəncədə Arran elində hicri 535-ci ildə bir-iki il ya əvvəl və ya sonra təvəllüd etmişdir. «Qum şəhəri Qəhrestanı» məhəlləsinə gəldikdə isə, bu təzkirəçilərin və nüsxə yazanların artırmalarıdır. Çünki, Nizami əsərlərində belə bir şey yoxdur. Nizaminin adı İlyas olsa da bəzi naşı təzkirəçilər səhvən onu İveys göstərmişlər. Atasının adı Yusif, babası Zəki Müəyyəd olmuşdur. Anası türk Rəisəsi, dayısı isə Ömərdir ki, Nizami onları hörmətlə yad edirdi. Bu ailə Gəncədə ehtirama malik olmuşdur. Atası barədə müfəssəl bir məlumat yoxdur. O, ya arranlı, ya da azəri mühacirlərindəndir. Nizami oğlu Məhəmmədi və qadını Afaqı türk əsilli hesab etdiyindən «Xosrov və Şirin»də də bunu xatırladır.

Kürd əsillilər o zaman bütün Arranda, hətta Ermənistanda və Gürcüstanda mövcud olmuşlar. Bərdə və Tiflisdə kürdlər çoxluq təşkil edirdi. 515-ci ildə Bərdə Arranın paytaxtı oldu. Bu zaman şəhər darvazalarından biri onların əlində idi. Hətta, Bərdədə kürdlərin həftəlik bir bazarı da mövcud idi.

Gəncədə Şəddadilərin hökmdarlığı zamanı kürdlər şərəfli, şöhrətli nəzərə çarpırdılar. Artıq kürd nəslindən doğulan uşaqlar Gəncə mühitinə alışdırılıb savad alırdılar.

Bütün bunlara baxmayaraq ta axır zamanlara qədər Nizami Gəncəvi haqqında tam, dolğun məlumat yoxdur. Nizami barədə yazanlar təhrif və səhvlərə yol vermişlər. Buna görə də Nizami irsi öyrənilməlidir.

Nizaminin kimlərdən və necə təhsil alması barədə heç bir təzkirəçi geniş məlumat verməmişdir. Hər halda onun mükəmməl təhsil görməsi haqqında heç bir şübhə də yoxdur. Ancaq «Leyli və Məcnun» əsərində ata-anası və dayısı Xacə ömərin ölümü haqda danışır. Göstərir ki, onların sağlığında daha şövqlə şeir yazırdı. Şair göstərir ki, onların köməyi ilə müxtəlif alimlərlə tanış olmuş və dərs almışdır. Şeir, ədəbiyyatdan başqa, astronomiya, kimya, fəlsəfə, fars nəsri, söz sənəti barədə biliklərə yiyələnmişdir. Müəllimləri haqqında yüksək fikir söyləmişdir. Nəzərə çarpan odur ki, Nizami yaradıcılığının ilk illərində Firdovsinin «Şahnamə»si, Fəxrəddin Gürganinin «Veys və Ramin» əsəri və yazıları «Kəlilə və Dimnə» ilə tanış idi. Şairin geniş mütaliəsi ona cavanlıqdan riyaziyatı bilməsi, heç şübhəsiz şeyx rütbəsinin ona verilməsiylə tamamlanır. O, həkim kimi yüksək titula 40 yaşında layiq görüldü. Nizaminin dərin fikir fəlsəfəsi, dərin təfəkkürü şairi bu hörmətə, ehtiram və izzətə gətirib çıxartdı.

Digər tərəfdən onun xalqdan aldığı hikmət və nəsihətlər əsərlərində təcəssüm etməklə onu xalqa daha yaxın edib sevdirdi. Şairin Qivami adlı qardaşı olmasını bəzi təzkirəçilər yazsalar da, Nizaminin əsərlərində buna eyham vurulmur.

Nizami yaradıcılığına ən böyük təsir Firdovsinin təsiri olmuşdur. Firdovsidə adları çəkilən İskəndər, Bəhrami Gur, Xosrov və Şirin Nizamidə əsərə çevrilir. Bu əsərlərə Nizami yeni nöqtələr gətirmiş, xüsusiylə eşqi yeni bir mərhələyə çatdırmışdır. Buna görə də Nizami əsərləri bir yerdə qalmayıb, bir çox məmləkətlərə yayılmağa başladı. Nizami şeir dilinin gözəlliyi ilə tezliklə Xaqani, Fələki, Sənayi, Kamal Esfəhani kimi şairləri geridə qoydu. Nizami poeziyası tezliklə diqqət çəkdi. Onlar eşq, şərab və musiqini şeirin ecazkarlığı ilə birləşdirməyə çalışdılar. Digər tərəfdən Nizamidəki şeir istedadını görən

hökmdarlar özlərinə tərif üçün istifadəyə çalışırdılar. Bu dövrdə Atabəylərin hökmdarlığı yüksək səviyyədə idi. Nizamiyə də xüsusi rəğbət var idi. Şirvan və Dərbəndin hökmdarı şah Axistan Nizaminin əsərləri ilə tanışlıqdan sonra ona Qıpçaq qızı gözəl bir kəniz Afaqı hədiyyə göndərir. Bu kənizin şairin evinə gəlməsi yeni bir eşq şeirinin meydana gəlməsinə zəmin yaratdı. Tezliklə o, Afaqı özünə ömür-gün yoldaşı edir, ondan da Məhəmməd adlı bir oğlu dünyaya gəlir. Afaq da çox ağıllı qadın olduğundan Nizami ona kəniz deyil, öz qadını kimi baxır və elə ilk əsəri «Sirlər xəzinəsi»ndə buna eyham vurur. Afaq öz gözəlliyi ilə Nizami yaradıcılığına yeni bir eşq təravəti bəxş edir.

Nizami «Xosrov və Şirin» dastanını yazarkən Afaqı nəzərdə tutduğuna işarə edir. Məhəmmədin dünyaya gəlməsi Nizaminin yaşayış dövrünün ən xoş anları kimi tarixə düşür. Nizami sanki dərdi-səri olmayan bir dövlətdə və behiştdə ömür sürür.

«Sirlər xəzinəsi» əsəri Rum Ərzincan padşahı Məlik Fəxrəddinə həsr edildiyindən o, Nizamiyə 5 min dinar nəğd pul göndərmişdir. Bundan əlavə 5 baş at, təzə paltarlar və layiqli ev tikdirmişdi.

Nizami ikinci dastanı «Xosrov və Şirin»i Atabəy Cahan Pəhləvanın xahiş və sifarişi ilə yazır. Bu dövrdə Afaqın qəflət ölümü şairi çox sarsıdır. Atabəylər Nizamini çox təkidlə saraya dəvət etsələr də Nizami bu təklifi qəbul etmir. Onda ona bir kənd bağışlayırlar ki, Nizami ehtiyac içində yaşamasın. Qızıl Arslan Nizamini yüksəldib bütün Arran və Azərbaycanda tanıtdırır. Məhəmməd 14 yaşına çatır, bu illərdə Nizami ikinci izdivac haqqında düşünür. Şairin təxminən 50 yaşı olur. Şirvan və Dərbəndin fərmandarı Şah Axistan ondan xahiş edir ki, «Leyli və Məcnun» dastanı yazıb onu nəzmə çəksin. Nizami bu əsəri 4 aya yazır. Şair !Yeddi gözəl» və «İsgəndərnamə» əsərini də yazandan sonra ikinci qadını da rəhmətə gedir. Özü də böyük bir əvəzsiz miras qoyub dünyadan köçür.

«İskəndərnamə» yazılandan sonra Məhəmmədin 27 yaşı var idi. Nizami oğlunu şair deyil, həkim kimi görmək istəyirdi. Bu illərdə Arran və Azərbaycan Cahan Pəhləvanın oğlu Atabəy Nüsrətəldin Əbubəkrin hökmdarlığı altında idi. Ancaq işlər tənəzzülə doğru

gedirdi. Abxaz və məsihələrin hücumu camaatın yaşayışına və rəhbərliyə pis təsir edirdi. 60 yaşında olan şairə də bu hal təsirini göstərirdi.

Beləliklə, Gəncə şair üçün həm şadlıq, doğum şəhəri, həm də təlaş şəhəri olmuşdur. O, Gəncədə ömrünü başa vurub burada da dəfn edilmişdir.

Nizami Gəncədə pirə çevrilmişdir. Heç kəs Nizami qədər şeiri yüksəldib ilahi bir qüvvəyə çatdıra bilməmişdir.

Müasir İran alimlərindən Nizami haqqında geniş məlumatı Zərrinkub verir. Lakin onun Nizami nəslinin Bağdaddan köçüb gəlməsi və Gəncədə yaşaması fərziyyəsi ilə razılaşmaq olmaz.

Digər tərəfdən Nizaminin əcəm (fars) tayfalarından olması, yaxud türkmən türklərinə mənsubluğu ancaq alimin öz təxəyyülüdür. Buna heç bir əsas yoxdur.

# II FƏSİL
# «SIRLƏR XƏZINƏSI»

Beş xəzinədən birincisi sayılan «Sirlər xəzinəsi»ni Nizami hələ gəncliyi sona yetməmiş 49 yaşı tamam olmamış yazmışdır. Bu əsər çox yüngül bir vəzndə yazılmış, yadda qalması asan idi. Bu dövrdə Sənayi,  Xaqani, Farabi məşhur olsalar da Nizami şeir səltənətində qabağa çıxmağı bacarmışdır. Gəncəli şairin yazdıqları böyük hüsnü-rəğbətlə qarşılanmağa başlamışdır. Nizaminin «Sirlər xəzinəsi» səri bəhrində yazılıb qəzəl janrına yeni bir təravət gətirdi. «Sirlər xəzinəsi» iyirmi məqalətdən ibarət idi. Əsər əxlaq və nəsihətamiz sözlərinə görə daha tez yayılmağa başlamışdı. Nizami öz qələmiylə fars şeirini daha da cilalayıb ona yeni bir təravət gətirdi. Nizaminin böyüklüyü ondan ibarət idi ki, özündən əvvəlki şarlərdən fərqli olaraq o, insanı əsas meyar seçmiş və nəsihətamiz sözləriylə onun mənəviyyatına güclü təsir etməyi bacarmışdır. «Sirlər xəzinəsi» əsərindəki məqalə və hekayələr çox gözəl şairanə bir ustalıqla verilmiş, din, hikmət, əxlaq məsələlərini real bir şəkildə göstərməyə nail olmuşdur. Odur ki, Nizami - Xaqani, Zəhir, Cəmaləddin Esfəhani kimi özündən öncə yazıb-yaradan şairləri qabaqlamışdır.

Şair, Fəxrəddin Bəhram şaha «Sirlər xəzinəsi»nin bir nüsxəsini hədiyyə etdikdən sonra o da öz növbəsində Nizamiyə mükafat göndərir. Mükafat 5 min dinar həcmində olmuşdur.

«Sirlər xəzinəsi» Nizaminin qısa, lakin dolğun fikirlərini, onun fitri istedadını və bacarığını açıb göstərən bir əsərdir. Bu məqalə və hekayələrdə şairin özünün ruhu dolaşır. Nizaminin şeirləri Xaqani və Sənayi ləhcələri üslubuna oxşardır. Ancan Nizami dəsti-xətti və kamalı əvvəldən axıra qədər duyulmaqdadır. 20 məqalədən ibarət olan bu əsər öyüd, nəsihət, hikmətlə bərabər, insanın elm və tərbiyəyə əhəmiyyətini açıqlayır. Eləcə də insanı xəlq edən ilahiyə və insanın Allah qarşısındakı günahlarına, onun tövbəsinə toxunulur.

Nizami zülmlə heç bir vəchlə barışmadığı üçün onu şahlara yetimlərin, fəqirlərin, dul qadınların, adi zəhmətkeş insanların dili ilə çatdırır. Beləliklə şairin hər bir kiçik

hekayəsinin arxasında böyük mətləblər durur. Nizami bunları o qədər cazibədar təsvir edir ki, insan ürəklə onları oxuyub mütaliə etməyə başlayır.

## III FƏSİL

## «Xosrov və Şirin»

«Sirlər xəzinəsi»nin yazılmasından bir il sonra, hələ onun təravəti bitməmiş Gəncəli şair «Xosrov və Şirin» kimi ecazkar bir eşq əsəri yaratdı. Hələ indiyədək «Xosrov və Şirin» dastanı kimi bir eşq, mehr, məhəbbət əsəri dünya ədəbiyyatına gəlməmişdir. Bu əsər sadəcə eşq deyil, əxlaqi məsələləri özündə ehtiva edir. Əlbəttə, Nizami özündən əvvəl yazan Firdovsinin «Şahnamə»sindən bəhrələnmişdir. Digər tərəfdən Nizami, Ənsəri və Fəxrəddin Gürganidən də məlumatı var idi. Əgər Firdovsi Şirin haqqında yazanda onun artıq 60 yaşı var idisə, Nizami bunu 40 yaşında etmişdir. Bu yaşda eşqin təcəlliyatı daha güclü olur.

Gəncə və Bərdədə bu eşq dillər əzbəri olmuş və buradan Bağdad və Məkkəyə gedən insanlar «Xosrov və Şirin»i hər yerdə yaymağa başlamışlar. Pərviz sarayı Mədaində hələ də öz nişanələrini göstərir. Şirinin eşqinə çəkilən «süd arxı» Fərhadın əfsanəvi adı və Şəbdizin daşlar üzərində çəkdiyi rəsmlər indi də qalmaqdadır.

Nizami, Firdovsinin dediklərini təkrarlamamış, əksinə bu sahədə yeni bir cığır açıb ona ətirli bir təravət gətirmişdir. Həqiqətən Nizami bu əsəri yazmaqla öz qadını Afaqı nəzərdə tutmuşdur. Nizaminin dövrü Atabəylər hakimiyyəti illərinə təsadüf edir.

Atabəy Cahan Pəhləvan, Toğrul İbn Arslan həm şeir, həm də musiqi vurğunu olduğundan Nizamiyə böyük hüsnü-rəğbət bəsləmişlər, onu mükafatlandırmışlar. Atabəy Məhəmməd Eldəgiz Bərdədə Nizami əsərlərinin yayılmasına şərait yaratmışdır.

Nizami 576-cı ildə bu əsəri Cahan Pəhləvana təhvil verir. Afaqın sonrakı ölümü isə şairi sarsıdır və bu zaman oğlu Məhəmmədin 7 yaşı var idi. Atabəy öz vardatının bir hissəsini şairə bağışladı, ancaq onun qəflətən ölümü 581-ci ildə şairin əliboş qalmasına gətirib çıxartdı. Lakin Qızıl Arslan Nizamiyə hörmətinin nəticəsi kimi bir qism mülk verib şairi ruhlandırdı.

Xosrov, Hörmüz şahın oğlu on yaşında ikən at sürməyi, qılınc tutmağı və ov etməyi bacarırdı. 14 yaşlı Xosrov dünya axarışlarına başladı. Ustadı ona böyük ümid bəsləyirdi. Şah onu bütün dünyada bəlkə canından çox istəyirdi. Camaatın onun ömrünə dua oxumasını istəyən şah Xosrovun ədalətli olacağına, məmləkəti layiqincə qoruyacağına inanırdı. Təsadüfən Xosrov bir günün səhəri seyr və ov üçün səhraya gedir. Orada kef məclisi qurur. Sərxoşluq zəminində bir kəndlinin qorasını qoparıb, üzüm tənəklərini əzdiklərinə görə xəbər şaha çatanda o, Xosrovu tənbeh etdi. Xosrov hərəkəti müqabilində şahdan üzr istədi, şah onu bağışladı.

Daha sonra Xosrov yuxuda Şirini görüb ona vurulur. Bu hadisəni rəsam Şapura danışır. Şapur göstərir ki, Dərbənddən Arrana və ta Ərmənə qədər Şirin adlı bir hökmdar oranı idarə edir. Adı kimi özü də şirindir. Xosrov Şirini eşqin gücüylə sevir və onunla evlənməyə qərar verir.

Şapur özünü bir ay içərisində Ərmənə çatdırır. Eşidir ki, Şirin 70 gözəllə dağ ətəyindəki çəməndə əyləncə məclisi keçirir. Şapur Xosrovun şəklini bir ağacın gövdəsinə çəkdiyi kağızda yapışdırır. Şirin qızlarla dolaşanda bu şəkli görür və şəklin gətirib ona verilməsini əmr edir. Şirin şəklə baxdıqda şövqdən can quşu pərvazlanmağa başladı. Bu vaxt Şapur oradan keçib diqqəti Şirinin onu göstərməsinə çəkdi. Şirin şəklin kim olduğunu Şapurdan soruşdu. Şapur onunla təkbətək qalmağını xahiş etdi. Bu zaman Xosrovun haqqında Şirinə danışdı. Şirin də Xosrovla maraqlandığı üçün Şapura söz verdi ki, yenə bir gün qızlarla gəzintiyə gəlsin və atı Şəbdizlə onlardan uzaqlaşıb Xosrovla görüşmək imkanı əldə etsin. Həmin bəhanə ilə yolunu Mədainə salır. Şirin kişi libasında olur ki, onu tanımasınlar. Nəhayət, Şirin çeşmə başında bədənini yuyarkən Xosrov onu görür və bir könüldən min könülə ona vurulur. Şirin də tanımadığı bir gənci görəndə onun Xosrov olduğunu təxmin etdi. Lakin bir-birlərini tanımadıqları üçün Xosrov Ərmənə, Şirin isə Mədainə tələsdi. Birinci tanışlıq belə bitsə də, Xosrov Şirini görmək məqsədiylə Azərbaycana, Muğana, Ərmənə yol tutdu. Burada Şirinlə qarşılaşdı. Şirin laqeyd qalmayıb onu tanıdı və evə dəvət etdi. Banu da şahı layiqincə qarşıladı. Məhin bu eşqdən xəbərdar olduğundan Şirinə ağıl və məsləhət verdi. Xosrovu Şirinlə

tək buraxmadı. Ertəsi gün Şirin öz qız yaşıdları ilə Xosrovun sarayına gəldi. Orada çovqan oynadılar, mahnı oxudular, lakin Xosrov Şirini təklikdə görə bilmədi. Şirin xəlvəti şərait üçün Xosrova imkan yaratmadı. Şirin eşqbazlığı başqa bir vaxta saxladı.

Əli boşa çıxan Xosrov Konstantinopola üz tutdu. Rum hökmdarı öz qızı Məryəmi izdivac üçün ora gətirdi. Bu zaman Xosrov Bəhramı döyüşdə yenib Mədainə qayıtdı. Ancaq fikri Şirinin yanında qaldı. Şirin də Xosrovun ayrılığına biganə qala bilmirdi. Məhin Banu və Şapur ona təsəlli verirdilər. Bir qədər sonra Məhin banu xəstələndi və yatağa düşdü, özünü ölüm ayağında görüb saray və xəzinəsinin açarların Şirinə verdi, canını tapşırdı. Ərmənin hökmdarlığı Şirinin ixtiyarına keçdi, o isə ədalətlə oranı idarə etməyə başladı, lakin bundan o qədər də xoşhal deyildi. Çünki fikri Xosrovun yanında idi. Bu xəyal da onu Xosrovun yanına Mədainə getməyə vadar etdi. Şapuru və bir neçə qızı da özü ilə apardı. Xosrov, Şirinin bu gəlişinə sevinsə də, Məryəmlə əhdi-peyman bağladığından eşqdən danışmadı. Xosrov Şapurla Şirinə  xəbər göndərib eşqini bəyan etdisə də, Şirin rədd cavabı verdi, isti hərarəti Şirinə təsir etdiyindən, o, süddən başqa bir şey yeyib-içmirdi. Qəsrə isə südü hər dəqiqə gətirmək olmurdu. Bu zaman Şapur öz dərs yoldaşı mühəndis Fərhadı Şirinin yanına çağırıb ondan süd arxı çəkməsini xahiş etdi. Fərhad bu işi öz öhdəsinə götürdü. Süd arxının tamamlanmasına az qalmış Şirin Fərhadın sənətinə baxmağa gəldi. Şirin Fərhadın bu qüdrətinə «afərin» deyib, hətta öz sırğalarını qulağından çıxarıb onun ayaqları altına atır. Eşq dastanı da elə buradan başlayır. Tezliklə hər yana yayılır. Bu xəbər Xosrova da çatır. Təbii ki, Xosrov buna razı ola bilməzdi. O da Fərhadın sənətinə vurulur, Lakin Şirinin eşqi onu rahat buraxmır. Daşlar üzərində çəkilmiş şəkillər və xüsusən Şirinin portreti Xosrovu heyran edir. Fərhad Xosrovdan Şirini sevdiyini bildirib, ona kömək etməsini xahiş edirsə də, Xosrov ona rəqib kimi baxır. Fərhad Bisitun dağında Şirinin, Xosrovun və Şəbdizin rəsmlərini çəkir. Fərhad gecə düşəndə Şirinin heykəli qarşısında diz çöküb onun eşqiylə yaşadığını dilə gətirir.

Xosrov rəqibini yox etmək üçün hiyləyə əl atdı və göndərdiyi qarı ilə Fərhada Şirinin qəfil ölümünü söylədi. Fərhad Şirinsiz ömr etmək olmaz deyib öz  külüngünü

başına vurub dünyasını dəyişir. Şirin bu hadisədən çox kədərlənib ağlayır. Xosrov isə məktub yazıb Şirinə təsəlli verir.

Bir qədər sonra Məryəm ölür. Şirin də tənə ilə Xosrova başsağlığı verir. Şirin tikanlı sözlərlə onu dalayır: «Əgər aləm bağından bir sərv gedibsə, özün qalmısansa, alimin canı sənsən». Bu tənədən sonra Xosrov İsfahan gözəli Şəkərə bənd olur, lakin bu eşq də nakam qalır. Bütün bunlardan sonra Xosrov Şirinin qəsrinə gəlib onunla görüşmək istəyir. Şirin onu lazımi dərəcədə qarşılamır. Lakin Şirin Xosrovu sevdiyindən bir qədər hərəkətindən peşman olur.

Nəhayət Şirin Şapuru görüb Xosrovla saraydan uzaqda tənha danışmaq istədiyini bildirir. Onlar pərdə arxasında Şirinin Xosrovla danışması üçün şərait yaradırlar. Bu şərtlə ki, Xosrov Şirinə əl vurmasın. Sonra da bu iş Xosrovla Şirinin birləşməsinə gətirib çıxardır. Lakin Siruyə bundan istifadə edib Xosrovun yeni eşq macərasına tutulmasından faydalanaraq taxta çıxır. Təbiidir ki, Xosrovun Məryəmdən olan oğlu Şiruyə Şirini qəbul edə bilməzdi. İş belə gətirir ki, Şirüyə Şirini gördükdə o da Şirinə vurulur. Ancaq Şirin təkcə Xosrovu sevdiyi üçün ona rədd cavabı verir. Şiruyədə olan kin və ehtiras atasını öldürüb Şirinə sahib çıxmaq ideyasını qarşıya qoyur. Lakin o Xosrovu öldürsə də buna müyəssər ola bilmir. Gözəl təbiət təsvirləri, dəbdəbəli həyat tərzi, eşq, mehr, məhəbbətdən bəhs edən bu qiymətli əsər sonda faciə ilə bitir. Xosrovdan sonra Şirin də özünə qəsd edir.

Nizami göstərir ki, başqalarına xəyanət, özünə xəyanətlə bitməlidir.

Şair bunu yazarkən Gəncə məhəllərindən birindən alınmış hekayədən bəhs etmiş, Arran torpağını vəsf etmişdir. Bununla da Gəncəli şair nəzm aləmində bir dönüş yaratmışdır. Xosrov surəti Firdovsi «Şahnaməsi»ndə olsa da, Nizaminin yazdığı Ərmən və türklük onda yoxdur. Şirin surəti Nizami yaradıcılığında xüsusi bir tərzlə tərənnüm edilmişdir. «Mən, Şirini yaratmaqla Afaqı düşünmüşəm» fikri bunu təsdiq edir. Nizamiyə görə sevənlər eşq üçün canlarından keçməyə belə hazır olmalıdırlar. Ona görə də ipə-sapa yatmayan Xosrovu eşq vasitəsilə cilalayır.

# IV FƏSİL

# «LEYLI VƏ MƏCNUN»

## Eşq və ayrılıq

«Xosrov və Şirin» dastanından illərcə sonra artıq Nizaminin 50 yaşı var idi. Qıpcaq qızı Afaqı itirmiş, oğlu Məhəmməd isə 14 yaşına çatmışdı. Bu zaman çərçivəsində Şirvan şahı Axsitan İbn Mənucöhr Nizamiyə ehtiramla dolu bir məktub yazıb «Leyli və Məcnun» dastanını nəzmə çəkməyi xahiş etdi. Nizami bu xahişi qəbul etdi. Qeyd edək ki, şahın həmyerlisi Xaqani Şirvani bir neçə əl yazmasını «Leyli və Məcnun» barədə şaha təqdim etmişdi. O da öz növbəsində onları Nizamiyə göndərmişdi. Şair də böyük zövqlə işə girişməyi qarşısına məqsəd qoydu.

O, bu işə başlayanda öz dərdi, bu ayrılıq hicranı bir-birinə qarışdı. Digər tərəfdən Afaqı itirməsilə ürəyinin tək təsəllisi övladı oldu. Atası Yusifin, anası Rəisənin, dayısı Xacə Ömərin itkisi, onu dostlardan ayırmışdı. Bu dərdlər Nizamini incidir, onu rahat buraxmırdı. Lakin hər bir insan kimi o da bunlara dözürdü. Belə bir vaxtda şahın öz xətti ilə yazılmış 15 sətirlik bir məktubu şairin sevincinə səbəb oldu.

Şahın bu təklifi şairi ərəb dastanlarına cəlb etdi. Bundan əvvəlki, «Sirlər xəzinəsi», «Xosrov və Şirin» şahın rəğbətini qazanmışdı. Şah Nizamiyə fars, türk, Arrandan danışdıqdan sonra ərəb və islam dünyasına girməyi məsləhət bilmişdi. Onu əlavə edək ki, bu hadisələr «Şirvanşahlar» və Xosrovdan qabaq baş vermişdi. Şirvanlı Xaqani bu məsələyə toxunsa da Əbnəlmüzəffər Axsitan özü şair təbiətli bir adam olduğundan Nizami onun diqqətini çox çəkmişdi. Digər tərəfdən şah bu şeirlərin bəzilərini «Leyli və Məcnun» dastanının ərəb variantında eşitmişdir. Şahın Nizamiyə təklifi şairin ürəyincə oldu. Məcnun və Leylinin eşq macərası o zaman çox məşhur idi və dillər əzbəri olmuşdur. Axsitanı maraqlandıran iki ərəbin bir-birini sevməsi deyil, eşq, aşiq və məşuqun nə olduğunu bilmək, onu poeziyanın gücündə görmək idi. Bu eşq həqiqi sevib-sevilənlərin böyük bir mücəssəməsinə çevrilmişdi. Sevən bir gəncin, öz sevgisinə çatmaması zamanın zalım bir qanunu nəticəsində baş verir. Digər tərəfdən onlar

qovuşmasalar da, şerin hədisi onları daha da yüksəldir. Adi səhranı şair elə təsvir etmişdi ki, onu poeziyasız təsvir etmək mümkün deyil.

Nizamidən çox əvvəl ərəb və fars şairlərində məhəbbət motivləri olmuş və əldən-ələ gəzmişdi. Hətta, hicri tarixinin III əsrində naməlum şair Əbubəkr Valəbi tərəfindən bəzi misralar ərəbcədən farscaya çevrilmişdi. Şah Axistan bundan xəbərdar olduğundan onun tam farsca variantını Nizaminin yazacağına əmin idi. Çünki, «Xosrov və Şirin» kimi gözəl bir məhəbbət dastanı yazan bir şairin belə bir eşq dastanı yazacağına şübhə yeri qalmırdı.

Nizami bu əsəri 4 aya yazdı. Onun farscası çox sadə və anlaşıqlı idi ki, bu da şah və kəndli üçün aydın idi.

Məcnun və Leyli hər ikisi məktəbdə oxuyur və elə orada da bir-birlərinə vurulurlar. Məcnunun əsl adı Qeys olsa da, o, Məcnun çağırıldıqda heç pərişan olmur, əksinə, eşq divanəsi olduğuna görə sevinir. Amma zəmanə Məcnunu qəbul etmir və tezliklə Leylini valideynləri məktəbdən uzaqlaşdırır. Məcnun da Leyli eşqiylə səhraya üz tutur. O, göz yaşlarını saxlaya bilmir və eşq mahnıları oxuyur. Qəbilə ağsaqqalları belə qərara gəlirlər ki, onlar Leylinin atasıgilə elçiliyə getsinlər. Lakin Leylinin atası Məcnuna qız verməyəcəyini bildirib şərt qoyur ki, o, Kəbəyə gedib «məcnun» olmayacağına and içsin. Qeysi Kəbəyə aparsalar da, o eşqdən başqa heç nəyi qəbul etmir və Leylini özünə qiblə hesab edir. Orada məşhur bir kəlamı deyir: «Xudaya, sən mənim başıma Leyli eşqindən başqa bir şey qoymamısan axı!». Eşq bu iki gənc üçün hər şey idi.

Məcnunu atası evə aparıb səhra həyatından ayırmaq, ona ağıl vermək istəsə də, Leyli Məcnunu görməsə də onun yazdığı şeirlərə mahnı oxuyub özünü Məcnunsuz təsəvvür edə bilmirdi. Atası Leylini bu eşqdən aralandırmaqdan ötrü onu İbn Səlam adlı bir varlı ərəbə ərə verir. Lakin Leyli onu qəbul etmir və İbn Səlam da buna tab gətirməyib dünyasını dəyişir.

Məcnunun atası səhraya gəlib oğluna yenə nəsihət vermək istəyir, amma Məcnundakı Leyliyə qarşı ülvi məhəbbəti görüb evə qayıdır və bu hala dözə bilməyib

ölür. Məcnun atasının ölümündən xəbər tutub çox kədərlənir. Bir qədər sonra Məcnun anasını da itirir. Lakin bütün bunlar onu səhradan ayıra bilmir. Nizami yazır :

«Səhra Məcnun üçün qışda qışlaq,
Yayda yaylaq olaraq qalacaq» (72-118)

Nəhayət, Leyli bütün bunlara dözməyib intihar edir. Məcnun acı-acı buna yanır və Leylidən sonra yaşamağın mənası olmadığını əsas gətirərək, o da Leylinin qəbri üstündə can verib dünyadan köçür. Nizaminin bu eşq macərası belə nakam məhəbbətlə bitir.

Bütün bunların içərisində şairin  o zamankı mühitə, cahilliyə qarşı sərt bir davranışı dayanır. Nizami bununla ərəb mühitini şərq oxucusuna çatdırır.

Məcnun və Leyli hər ikisi ərəb ailələrinin zəngin və tanınmışından olsalar da, cəhalət və onları əhatə edən mühit bu gənclərin birləşməsinə rəvac vermir, əksinə, onların nakam ölümünə səbəb olur.

Nizami özü mütərəqqi insan olaraq ona bəxş edilən kənizi ömür-gün yoldaşı kimi qəbul edir, bu sevgi də əbədi yaşayır. Bu fikir «Xosrov və Şirin»də özünü göstərir. Nizamiyə görə səhradakı vəhşi heyvanlar belə Məcnunla ünsiyyət yaradır, əfsus ki, cahil insanlar onu anlamır. Gəncəli şairin bu cəsarəti onu fövqəlbəşər bir insana çevirir. Nizami əxlaq məsələlərini çox bariz bir surətdə açmağa nail olmuşdur. Nizami həmişə doğru insanların tərəfində olmuş, onların ideyalarını şahlara, xaqanlara qarşı qoymuş, ədalətin qələbə çalacağına inanmış və inandırmağa çağırmışdır.

Gəncəli şair Nizaminin «Leyli və Məcnun» dastanını sifarişlə yazması həm də şairə öz ideyalarını təcəssüm etdirməsinə imkan vermişdir. Əgər belə olmasaydı, şair belə imkanı əldə edə bilməzdi.

Şair bu dastan vasitəsiylə bəşəriyyətə bəyan edir ki, zülm ilə abad olanın axırı bərbad olar. Nizami bütün bunlara baxmayaraq gələcəyə yaxşı ümidlərlə yaşayan sənətkardır.

# V FƏSİL

## «Yeddi gözəl»

Şah Kürp Arslan dünyagir Nizamiyə «Yeddi gözəl» dastanını yazmağı 593-cü il hicridə sifariş etmişdir. Ona «Mərağa Allahı» deyirdilər. Nizaminin bu dövrdə artıq 60 yaşı var idi. Nizaminin də diqqətini Firdovsi «Şahnamə»sindən məlum olan Bəhram Gur surəti cəlb etmişdir. Bəhramın bacarığı, döyüş qabiliyyəti, eşqi, hökumət işi, siyasəti, hərbdəki sücaəti şairə bu əsəri yazmaqda çətinlik yaratmamışdır.

Azərbaycan hökmdarı Atabəy Əbubəkr də Nizami əsərlərindən zövq aldığı üçün şairə səadət diləyirdi.

Bəhramın atası onu dünyaya sahib çıxmaq üçün Ərəbistana təhsil almağa göndərir. Bəhram bir çox elmləri burada öyrənir. Eyni zamanda Bəhram at sürməyi, ox atmağı, ov etməyi də öyrənir. O, şir, öküz, maral ovlaya bilir, bu sahədə püxtələşir. Növbəti gəzinti zamanı Bəhram bir qəsrə daxil olur və orada yeddi gözəlin rəsmlərini görür. Bu qızlardan hər biri müxtəlif ölkələrə aid idilər. Bu qızların hamısı Bəhramın diqqətini cəlb edirlər. Bəhram bu şəkillərə o qədər baxır ki, onda eşq hissi bu yeddi qıza oyanır. Bütün eşqlər bu eşqin qarşısında aciz olur, onun xatirə lövhəsindən silinir.

Bu arada Yezdgirdin ölüm xəbəri Yəmənə gəlir və Bəhram bundan kədərlənir ki, atasını itirmişdir. Bəhram ordu toplayıb atası yurduna və taxt-taca sahib olmağa tələsir.

Bəhramın şahlığı mülkünün abadlığı, saray həyatı dəbdəbəli eyş-işrətlə keçdi. Onun kənizlərindən biri (Nizami onu «Fitnə» adlandırır), musiqi çalır, mahnı oxuyur, hətta, Bəhramla ovda iştirak edirdi. Lakin günlərin bir günü şahın Fitnəyə acığı tutur, onun ölümünə hökm verir. Lakin ağıllı sərkərdə Fitnəni öldürmür, onu öz qəsrinə aparır. Fitnəni xəlvətdə gizlədib, ona nəvaziş göstərir. Fitnə orada yeni doğulmuş dananı əllərinə alıb ondan xoşlanır. Xeyli müddət keçəndən sonra Fitnə dananı çiyinləri üzərinə qaldırıb sarayın pilləkənlərindən aşağı-yuxarı düşürür. Nizami göstərir ki, o, artıq buna adət etmişdir. Həmin bu adət məsələsini Fitnə şah ov edən zaman Bəhrama demişdir. «Bəhrami Gur ceyranı qulağını qaşıyarkən oxu elə atmışdı ki, heyvanın ayağı qulağı ilə bir yerdə qalmışdır». Fitnə buna «adət» dedikdə şah qəzəblənib onu öldürmək istəsə də

Fitnəyə qıymamış, onu sərkərdəsinin əliylə öldürmək qərarına gəlmişdir. Xeyli müddət bu hadisədən keçəndən sonra şah təsadüfən həmin sərkərdənin qəsrinə qonaq gəlir. Fitnə adəti üzrə öküzü çiyinlərində pillələrdən qaldırdıqda şahın gözü ona sataşır və deyir ki, belə şey ola bilməz. Fitnə çevrilib şaha cavab verir ki, adət etsən olar. Bəhram dərhal Fitnəni tanıyır və onun sağ qalmasına sevinir. Sərkərdəyə onu öldürmədiyi üçün təşəkkür edir.

Nizami dahiliyinin böyüklüyü ondadır ki, kim səhv etsə də hökmdar səhv etməməlidir. Çünki, sonrakı peşmançılıq fayda verməz.

Şah səhvini başa düşür və Fitnəni yenə öz sarayına aparır.

Bundan sonra Bəhram ovdakı məharətini döyüşdə nümayiş etdirir. Ov bəhanəsi ilə 300 döyüşçü ilə Çin Xaqanını məğlub edib Ceyhuna qədər olan böyük bir sahəni qəsb edir, əldə edilən qənimətləri təxtinə gətirib bayramsayağı  günlər keçirir. Onun şəninə İran şairləri ilə bahəm, ərəb şairləri də şeir yazmağa başladılar.

Bəhramın əldə etdiyi qənaətlər içərisində yeddi ölkənin qızları da var idi. Bəhram öncə fars gözəli, sonra çin gözəli, rum gözəli, qərb gözəli, xarəzm gözəli, slavyan gözəlini yanına cəmləşdirib eyş-işrətə başlayır. Bir gün usta Simnarı çağırıb bu yeddi gözəl üçün yeddi günbəzli bir saray tikdirməyi əmr edir. Vaxt o vaxt olur ki, yeddi günbəzli saray hazır olur. Bu, əslində yeddi  bürcü ifadə edirdi. Burada məmləkətin nişanələri də özünü  göstərirdi. Günəş, ay və ulduzların parıltısı bu müəzzəm imarətə xüsusi yaraşıq verirdi. Bəhram da bundan böyük zövq alır, həftənin yeddi gününü bu gözəllərə həsr edir, onlardan nağıllar dinləyirdi.

Nizami bu ölkə və xalqlara tam bələd olduğundan ədəbi bir sənət nümunəsi yaratmışdır. Eyni zamanda Nizami göstərir ki, eyş-işrətə başı qarışan şahın idarəetmə şərti onun yadından çıxır, bu da hərc-mərcliyə gətirib çıxarır.

Günlərin bir günü Bəhram yenə səhraya üz tutur. Bu dəfə onun fikri nə eyş-işrət, nə də ov etmək istəyi idi. İstidən susuzlayır və uzaqda gözlərinə bir ağac sataşır. Ora yaxınlaşıb görür ki, ağacdan bir it asılmışdır. Gözü yaşlı bir çobana dəyir. Bəhram ondan iti asmasının səbəbini soruşur. Çoban cavab verir ki, bu it mənim yaxın köməkçim idi.

Lakin günlər ötdü, gördüm ki, sürüdən yaxşı qoyunlar yox olur. İzi izləmək qərarına gəldim, gördüm ki, qoyunları qurda verən itin özüdür. Ona görə də öz cəzasını çəkməli idi. Vaxtında buna əncam çəkməsəydim, indi sürüdə bir qoyun belə qalmayacaqdı. Qoca çobanın sözləri Bəhrama çox təsir edir, öz-özünə deyir ki, mən də məmləkətin idarəsində belə şeylərə yol vermişəm. Bundan sonra onları düzəltməyin vaxtı gəlib çatmışdır. Bəhram qoca çobandan su alıb içdikdən sonra təşəkkür edib geri qayıdır.

Yolboyu o da inandığı adamların özbaşınalığı, rəiyyətin şikaytlərini yerində yoxlamadığını və xüsusilə vəziri Rast Rövşənin haqsızlığı onu narahat edir. Qayıdan kimi vəziri Rast Rövşəni vəzifəsindən azad edir, ölkədən xəbərdar olur, eyş-işrətlə başını qatmır, orduyla özü məşğul olur. Bunu görən Çin Xaqanı İranla müharibəni dayandırır. Haqq-ədalət öz yerini tutur. Bir sözlə Bəhram tamam dəyişir. Hətta məsələ o yerə çatır ki, yeddi gözəli öz məmləkətlərinə göndərir və 7 günbəzdən tikilmiş o müəzzəm sarayı ibadətcah üçün verir.

Əlbətdə, Nizami ilk əsərindən başlayaraq son əsərinə qədər «ədalətli şah» axtarışında olmuş, bu ideyanı hər bir əsərində qabartmış və «Yeddi gözəl»də bunu bariz şəkildə təsvir etmişdir. Demək yerinə düşər ki, bu ideyaların hamısı Firdovsidə vardı, lakin Nizami onu daha yüksək zirvəyə qaldırmağa nail olmuşdur. Əgər «Sirlər xəzinəsi», «Xosrov və Şirin», «Leyli və Məcnun» o qədər ardıcıl olmayıb müxtəlif fikirlərlə dolu bir əsər idisə, Nizami «Yeddi gözəl»i yazmaqla Sasani hökmdarları və Bəhram Gurdan konkret olaraq əvvəldən axıra kimi bəhs edir. Nizamiyə qədər Bəhram haqqında əfsanələr ağızdan-ağıza keçmişdir. Lakin Nizami onları daha da cilalamış və hakim necə olmalıdır prinsipini göstərə bilmişdir. Bununla da şair islamdan əvvəlki dövru belə əhatə etmiş və hazırda İran ərazisində Bəhram Gurdan qalan sarayın nümunələri və Bəhramın həqiqi şahlıq dövrü bütün bunları təsdiq edir. Tarixi baxımdan Nizami bu hadisələrlə yaxşı tanış olduğunu öz dastanında göstərib nümayiş etdirmişdir. Qədim iranlıların bütün adət və ənənələrinin sonrakı nəsillərə çatdırılmasında Nizaminin istisna rolu vardır. Əsərdəki yeddi günbəz və 7 iqlim bir-birini həmahəng şəkildə tamamlayır. Nizaminin təbiət elmləri və astronomiya haqqındakı bilikləri burada aşkar

özünü biruzə verir. Yeddi gözəlin diliylə söylənilən hər bir macəra həftənin 7 günü ilə həmahənglik təşkil edir. şərq aləmində 7 müqəddəs rəqəm kimi tanınır. Nizami oxucunu çox füsunkar bir coşğu ilə əsərə baş vurmağa və nəticə çıxarmağa sövq edir. Əsrlər keçsə də, onun buna müvəffəq olduğunun şahidi oluruq.

7 gün, 7 günbəz, 7 gözəl, 7 iqlim, 7ölkə, 7 qız, 7 dastanın hamısı mütənasib şəkildə vəhdət təşkil edir. hətta onları nəql edənlərin ləhcələri də öz əksini tapmışdır.

Maraqlı burasındadır ki, Avropa ədəbiyyatında ən çox sevilən əsər «Yeddi gözəl»dir. İlk dəfə şərq ədəbiyyatında ruslar haqqında məlumat verən Gəncəli Nizamidir. İnsana elə gəlir ki, Nizamiyə qədər sanki bu məqamlardan heç kəs danışmamışdır.

Qadın azadlığı məsələsi də Nizamidə həmişə ön sırada durmuşdur. «Sirlər xəzinəsi»ndən başlayaraq mövqe tutan Şirin və adi kəniz Fitnəyə qədər qadın ləyaqəti şairi düşündürmüşdür, qadına sevgi Nizamiyə görə ön sırada durmalıdır. Çünki gözəllik, zəriflik ancaq qadın xislətində cəmləşə bilər.

Nizaminin qüdrəti təkcə «Yeddi gözəl»lə bitmir. O, axır sözünü «İskəndərnamə» ilə deyəcəkdir. Amma «Yeddi gözəl» təravətli bir əsər kimi əbədi yaşayacaqdır.

## IV FƏSİL
## «İskəndərnamə»

Nizaminin axırıncı əsəri «İskəndərnamə»dir ki, onun vasitəsiylə ağıl və qələminin gücünü göstərmişdir. Şair, tanınmış sərkərdə İskəndər Zülqədəri əsas surət seçməklə həm dastanı maraqlı etmiş, həm tarixi simanı ədəbiyyata gətirmiş, həm də öz fikir və mülahizələrini əxz etdirməyə çalışmışdır. O, əfsanəvi ağıl şəhəri simasında şəriət, təbiət, ictimaiyyət, behcət və səadətin bir məkanda mümkün olacağı ideyasını göstərmişdir.

Bu bilik şəhərində bərabərlik, azadlıq, qardaşlıq, kimi nəcib işlər hələ Nizaminin ilk əsəri «Sirlər xəzinəsi»ndə özünü göstərmişdir. İskəndər obrazı əsasında şair bir mühəndis və memar kimi dünyanı sanki özü tərtib etmiş, onun gərdişini və keçmişdə, indi və gələcəkdə görmüşdür. Bu əsərdə Şərqlə Qərbin təması, dünyanın məhvəri,

müharibə və sülhün əlaqəsi öz təntənəsini tapır. Nizami bütün bunları İskəndərin simasında cəmləşdirib vermək istəmişdir. Əsər iki hissədən ibarətdir. «Şərəfnamə»də İskəndərin fatehliyi və kiçik bir zaman çərçivəsində dünya ölkələrinin çoxunu tutmasından, onun şərəf və qabiliyyətindən bəhs edir. Ancaq Nizamiyə görə hər bir hərbin sonu sülhdür prinsipi əsərin ikinci hissəsi «İqbalnamə»də (bunu bəzən «Ağılnamə» də adlandırırlar.

İskəndərin İran şahı Dara və ruslarla müharibəsi onun iyirmi yaşından iyirmi yeddi yaşına qədər təsadüf edir. o, Misir, Babil, Hindistanı ələ keçirir. Nəhayət qıpçaq torpağına, Bərdəyə yürüş edir. İskəndər hətta əbədi yaşamaq üçün dirilik suyu axtarır. 7 illik döyüşlər və cahangirliyi İskəndəri peyğəmbərlik mərtəbəsinə qalxmağa sövq edir. lakin bu arzu ona 16 ildən artıq nəsib olmur. O 36 yaşında ölür. Ancaq onu demək lazımdır ki, İskəndər o qədər filosofları başına toplamışdır ki, özü də alim kimi olmuşdur. Bu da ona döyüş taktikasında kara gəlmişdi. İskəndər tutduğu ölkələrin xalqlarına zülm etməmiş, əraziləri dağıtmamışdır. 27 yaşlı İskəndər peyğəmbər adı alır. Dərbənd üçün «qapı» və «bənd» düzəltdirir. Digər tərəfdən İskəndər filosof Flippin oğlu olduğundan ağıllıdır. Bunun nəticəsidir ki, «hakim» və «həkim» ideyası ona yabancı deyil. Nizami dünyanın hər yerində ağıllı adamların olacağına işarə edir. Şair, Qərblə Şərqi birləşdirərək dünyanın bir olduğunu izah edir. Bu filosofluq və fəlsəfə Nizaminin qəhrəmanından çox onun özünə aiddir. Nizaminin yazılarında şairin təxəyyülü olsa da, əksər məxəzlərdən istifadə etdiyi heç şübhəsiz nəzərə çarpır. Şair atəşpərəstlikdən çox söhbət açır. Həqiqətən bu islamdan daha qədimə gedib çıxır. İskəndərin igid bir sərkərdə olduğu Firdovsinin «Şahnamə» əsərindəki Rüstəm pəhləvan obrazına çox yaxındır. Nizami qəhrəmanlıq motivlərindən məharətlə istifadə etmişdir. Nəticədə əsrlər ötür, böyük rus yazıçısı Lev Tolstoy özünün məşhur romanı «Hərb və Sülh»də bunu təsdiq edir.

İskəndərin zəncilərlə döyüşündə həm sərkərdəlik bacarığı, həm də elmi ona çox kömək edir. Əsir zəncilərdən birini seçib onu öldürtdürür və ətini bişirib yeyəcəyini əmr edir. Əslində isə o qara qoyunu bişirib başını yeyir. Zəncilər onu adamyeyən zənn edib

qaçırlar. Bu xəbər tezliklə Misirə yayılır. Bu psixoloji təsir Misirin daha tez məğlub olmasıyla nəticələnir.

Nizami Gəncəvi böyük məharətlə göstərir ki, bəzən qılıncın gücündən elmin gücü daha böyükdür. Bu üsulla İskəndər tutduğu ölkələrin çoxunu müharibəsiz təslim edirdi.

Nizaminin İskəndəri Bərdəyə gətirməsi şairin öz təxəyyülü idi. İskəndər bu yerlərə heç vaxt gəlməmişdi. Onun Nüşabə ilə qarşılaşması səhnəsi çox maraqlıdır. Arranda qonağı duz-çörəklə qarşılayırlar. Nüşabə isə bir boşqabda xörək əvəzinə İskəndərin qarşısına qızıl və gövhər qoyur. Buna məəttəl qalan İskəndər Nüşabə xanımdan soruşur ki, bu nədir? Cavabında eşidir ki, sən bura xörək yemək üçün deyil, var-dövlət üçün gəlmisən, buyurub apara bilərsən. Nüşabənin bu müdrik cavabı İskəndəri Bərdədən əliboş getməyə vadar edir. Nizami ağlın hər şeydən üstün olduğunu bir daha göstərməyə çalışır.

Lakin İrana hücum edən İskəndər bir çox sahəni tutur. O, Gilandan Reyə və Xorasana hərbi yürüş edir. oradan Hindistana hərbi səfər etdiyini görən Hind şahı müharibənin qarşısını almaq üçün öz qızını, bir həkim və bir filosofu İskəndərə hədiyyə edir. Bunu görən Çin xaqanı ölkəsinə hücum olmasın deyə, Bərdə hökmdarının siyasətindən istifadə edir və düşünür ki, müharibəyə qalsa İskəndər güclüdür, məğlub olacaq. Böyük ikramiyyə təşkil edib, İskəndərə hədiyyələr verməklə sülhə nail olur. Üstəlik xoşüzlü və incəsəsli bir kənizi ona verir. Bütün bunların fonunda ruslar Bərdəyə hücum edir, oranı dağıdıb İskəndərin dərin rəğbətini qazanmış Nüşabəni əsir götürürlər. İskəndər bu hadisədən kədərlənir və Nüşabəni ruslardan xilas etmək üçün Arrana, Bərdəyə gəlir.

Nizami bu qıpçaq torpağına ona görə belə bağlı idi ki, öz Afaqı bu yerlərdən idi.

İskəndər demək olar ki, bütün Şərqi tutmuşdur. Budəfəki, Qıpçağa gəlişində qadınların kişilərlə bərabər düşmənə qarşı vuruşduğunu, açıq üzlə örtüksüz gördükdə heyrətə gəlir və onların üzlərini örtməsini kişilərdən xahış edir. lakin cavab alır ki, qadınların həqiqi gözəlliyi örtük altında itir. Bu fikir İskəndərin xoşuna gəlir və o razılaşır. İskəndər rus qoşunları ilə altı gün öz ordusuyla vuruşur. Yeddinci gün

müharibə İskəndərin qələbəsi ilə bitir. O, Nüşabəni rus əsirliyindən azad edir. Nizami rusların iç üzünü açan ilk şairdir. Görünür Gəncəli şair öz mütaliəsi sayəsində dünya xalqlarının əksəriyyətini yaxşı tanıyırmış.

Bu müharibədən sonra qoca bir kişi İskəndərə nəql edir ki, bundan sonra sənə dirilik suyu tapmaq lazımdır ki, sən əbədi yaşayasan və o su bu yaxınlardadır, mən onun yerini sənə göstərərəm. İskəndər Xızır adlı sərkərdəsini ora göndərir. Xızır suyu tapıb ondan içir, lakin İskəndər yetişənə qədər su birdən yox olur. Xızır, İskəndərdən aralı gəzməyə başlayır. Söz var ki, Xızırla birlikdə İlyas da o dirilik suyundan içib ki, o da əbədi yaşayıb. Ancaq İskəndər 40 gün suyun axtarışında olsa da, nəticə əldə edə bilmir. Öz qoşununun yanına qayıdır və naçar belə qərara gəlir ki, hər kəsin ölümü gəldikdə ölməlidir. Oradan İskəndər rus torpağına yaxınlaşır. Burada şair əsərin birinci hissəsini sona çatdırır ki, bu «Şərəfnamə» idi.

«İqbalnamə» şairin özünün qocalıq vaxtına təsadüf edir. Bu əsərin meydana gəlməsi Nizaminin Rum tarix və ədəbiyyatından xəbərdar olması ilə əlaqədardır. Nizaminin yunan dilini bilməsi də öz güclü təsirini göstərir. Əsər boyu yunan filosoflarının «ağıl» və «ağılnamə»lərini göstərən gəncəli şair deyilənləri sübut edir. burada şairin açdığı söhbətlər tarixə tam dəqiqliyi ilə söykənmir, rəvayətlər əsasında qurulmuşdur. İskəndərin sevib hörmət etdiyi filosoflar arasında Sokrat xüsusi seçilirdi. İskəndərin ona böyük hüsnü-rəğbəti var idi. Onu da qeyd edək ki, Nizami yunan, rum, hind, misir və iran mədəniyyətlərindən bəhrələnmişdir. İskəndər peyğəmbərlik rütbəsinə çatmasında başına topladığı alimlərin və aldığı elmin nəticəsində gəlib yetişmişdi. Nizaminin 30 illik dastan yazma tarixi bununla sona çatır.

Müasir İran tədqiqatçılarından Ə.Zərrinkub daha böyük nüfuza malik bir alimdir. O, Əfqanistan, Pakistan, Hindistan, Avropa və Oksford univesitetində çalışmış, Tehran Universitetinin sayılıb-seçilən professorlarındandır. Nizami haqqında yazıları da öz müfəssəlliyi ilə diqqəti çəkir. Lakin onun dediklərində ziddiyyətli fikirlər mövcuddur.

O, Gəncə barədə geniş və dolğun məlumat verir. Nizami əsərlərinin təhlilinə dəqiq yanaşır. Lakin farslığa xas olan xüsusiyyət onu açıqca göstərir. Nizaminin farsca

yazması, onun farslığa dəlaləti, yaxud İraqdan köçüb gələn valideynlərinin fars qəbilələrindən olması fikirləriylə qəti razılaşmaq olmaz. Əvvəla ona görə ki, İraqda xeyli miqdarda türk qəbilələri yaşamış və indi də Türkmənlər əhalinin əsas hissələrindən birini təşkil edir. Ikincisi əlimizdə dəqiq məlumat yoxdur ki, Nizaminin ata babası nə zaman köçmüşdür? Ancaq məlum olan odur ki, Nizami Gəncə torpağında, Azərbaycanın intibah dövründə anadan olmuş, burada yaşamış, yaratmış və burada da rəhmətə getmişdir. Məzarı da bu ulu torpaqdadır.

***Mənsur Sərvət***

***Nizami əsərlərində hikmət xəzinəsi***

Mənim üçün bu mövzuya girişib baş vurmaq çox maraqlı idi. Çünki, insanı daima eşq, əxlaq, nəsihət, hikmət və ağıl gözəlliyə aparmışdır. Hətta, əgər insan bunların hər hansı birinə əməl etməsə belə, yenə onları eşitməkdən ləzzət almalıdır. Mən bunları həkim şair Nizaminin dilindən eşidəndən sonra belə fikrə gəldim ki, bundan böyük mükafat ola bilməz. Buna görə də mən iki fikrə gəldim:

Əvvələn özümdən soruşdum ki, nə üçün Nizamiyə «həkim» demişlər?

Əsərlərini oxuduqda anladım ki, bütün dastan yazan şairlərdən o, yeni eşq, fəlsəfi fikir, ağılın gücü və hikmətinə görə bu ləqəbi almışdır.

İkincisi odur ki, Nizami fars ədəbi dilində o qədər gözəl yazmışdır ki, onu dərk etməmək mümkün deyil. Çünki, onun çox asan şivəsi və rəvan, anlaşıqlı, cazibədar dili vardır. Bu da onu böyük və qüdrətli şairlər Sədi, Hafiz, Mövlana, Firdovsi, Xəyyam və başqalarından fərqləndirmişdir. Maraqlı burasıdır ki, indiyə qədər Nizami yazdıqlarının heç birinə düzəliş verib dəyişmək mümkün olmamışdır. Nizami dünyanın qədim xalqları fars və yunanlardan söhbət açaraq onların həyat tərzi ilə oxucularını tanış etmişdir. Şairin xəmsəsindəki beş əsər vasitəsi ilə oxucu xeyli məlumat toplayır. Diqqəti çəkən odur ki, heç bir şair indiyə qədər ona tənqidlə yanaşa bilmir, ona irad tuta bilmir. Bu günə kimi bütün yazıçı, ədəbiyyatçı və şərqşünaslar Nizamidən ağızdolusu danışmış, ondan bəhrələnmiş və ona minnətdarlıq hissi ilə yanaşmışdır.

# I FƏSİL

## *Nizami əsərinin ictimai və siyasi tarixi*

Nizami əsərinin tarixi elə bir vaxta düşür ki, İran dövləti Sultan Səncərin vaxtında müharibələr nəticəsində zəifləmiş, əvəzində böyük Səlcuqlar yaranmış ki, bu da çoxlu ərazini əhatə etmişdir.

Nizaminin təvəllüd dövrünün 533-cü il olduğunu nəzərdə tutsaq, onda Səncər ilə Qazanın arasındakı müharibə başlayır 548-ci ildə deməli o zaman şairin 15 yaşı olmuşdur. Bu zaman Səlcuqların yüksəliş dövrünə təsadüf edir. Elə buna misal Atabəy Məhəmməd İbn Eldəgizi göstərə bilərik. O, İran, İraq və Azərbaycanda möhtəşəm bir dövlət yaratdı. Səlcuqlar dövləti aşağıdakı kimi formalaşıb ərazi baxımından belə bölünmüşdür:

1. Kiçik Asiya Səlcuqları. (455-700 h.q)
2. Şam Səlcuqları. (470-511)
3. İraq Səlcuqları. (511-594)
4. Kirman Səlcuqları. (433-583)
5. Xarəzmşahiyan. (490-628)
6. Azərbaycan Atabəyləri. (531-622)
7. Fars Səlğəri Atabəyləri. (543-686)
8. Lərestan Atabəyləri. (543-686)
9. Yəzd Atabəyləri. (536-718)
10. Şirvan Xaqanları. (550-906)
11. Məluk Şəbankarı. (488-556)
12. Şəddadilər. (340-595)
13. Məluk Təbərestan. (426-625)
14. Məluk Nimruz. (432-625)
15. Quryan. (542-612)
16. Malik Quryə. (596-686)

17. Əhmədilyan (Marağada). (516-624)

18. Mənqucək. (464-650)

Bunlardan əlavə yarımmüstəqil qədim İran tayfalarından Əlböhran, Əlxəcənd və Əlsaed kimiləri də olmuşlar. Bütün bunlar altıncı əsr qədim İranın mənzərəsini yaradır.

Səlcuqların böyük dövlətlərindən başqa hökümətin zəifliyindən başqa xırda xəlifələr də rəhbərlik fikrinə düşmüşlər ki, Bağdaddakı Abbasi xəlifəsini göstərmək olar.

Bu dövrdə Səlib müharibələri də baş qaldırmışdır ki, (490-690) bunun da təsiri var idi. Ona görə müsəlman və məsihilər arasında gedən daimi müharibələr müsəlman ölkələrinə təsirsiz ötüşmürdü.

Nizami bu silsilələrin hamısı ilə deyil, ancaq Azərbaycan Atabəyləri, Əhmədliyan, Şirvanşahlarla daha çox maraqlanırdı. Onun əsərlərinin hamısını da onlara həsr etməsi buna əyani sübutdur.

M.Sərvət Səlcuq dövlətlərini tarixi baxımdan çox doğru yazmışdır. Lakin bəzən o da Nizamiyə fars şairi kimi müraciət etmişdir. Bununla qətiyyən razılaşmaq olmaz.

Qeyd etmək yerinə düşər ki, müəlliflərin farsca yazılarını tərcümə etdikcə onların dobru fikirləri ilə razılaşmaq, yanlış fikirlərinə öz etirazımızı bildirmişik. Bununla da həqiqətin zəfər çalmasını istəmişik.

## *1. Azərbaycan Atabəyləri*

Bu zümrə o Atabəylərdəndirlər ki, onlar 531 dən ta 622-yə qədər Azərbaycanda və gah da İraqda hökmranlıq etmişlər. Şəmsəddin Eldəgiz bu dövlətin başında dururdu. 555-ci ildə İraq əmiri Süleymanşah İbn Məhəmməd devrildi, Atabəy öz oğlu Arslan İbn Toğrulu səltənətə gətirdi. Beləliklə də İraqı da öz təsiri altına saldı.

Şəmsəddin Eldəgizdən sonra oğlu Məhəmməd Cahan Pəhləvan atasının yerini tutdu və böyük qüdrətlə 568-ci ildən etibarən ta 581-ci ilə qədər hökümətin başında dayandı. Əldən-ələ keçən hakimiyyət nəhayət Nüsrəddin Əbubəkir və Müzəffərəddin Özbəklə 622-yə qədər davam edir.

Atabəylərin yaxşı cəhətlərindən biri şairlərə və elm adamlarına fikir vermələri idi. Bu cəhətdən Nizami kimi şair kənarda qala bilməzdi. Onlar dərk etmişlər ki, Nizaminin bir yazısı böyük bir ordunun zəfəri qədərdir.

### *2. Əhmədilyan*

Səlcuqların istilasından sonra 501-ci ildə Marağaya hakim Əmir Əhmədili təyin edirlər. Onun adına Kürp Arslan deyirlər. Bunun mənası Azərbaycanca «Gec yetişən meyvə» deməkdir. Bəzən buna «körpə» deyirlər ki, bu da «kiçik şir» anlamına gəlir. Hər halda Kürp Aslan kimi qəbul olunmuşdur. O, 604-cü ildə dünyasını dəyişmişdir.

### *3. Şirvanşahlar*

Bakıxanov yazır ki, bunlar böyük Xaqandan əvvəl olmayıblar. Şirvanşahlar da Azərbaycanda uzun zaman səltənət başında olmuşlar. Xaqani və Fələki onlardan bəhs etsələr də tam acıqlama verə bilməmişlər. Axırıncı Şirvanşah 946-cı ildə ömrünü tapşırmışdır. Bizim əldə etdiyimiz məlumata görə onları göstərək:

Azərbaycan Atabəylərinin şəcərəsi.

1. Şəmsəddin Eldəgiz. 531 h.q
2. Şəmsəddin Əbu Cəfər Məhəmməd Pəhləvan Cahan İbn Eldəgiz. 568
3. Müzəfərəldin Qızıl Arslan Osman İbn Eldəgiz. 581
4. Nüsrəddin İbn Əbubəkr Məhəmməd. 587
5. Müzəffərəldin Özbək Pəhləvan İbn Məhəmməd. 607




***Nizami əsrinin mədəni səciyyəsi.***

Nizami əsri müxtəlif müharibələr, çoxməzhəblilik, insani, əxlaqi, əqli, mənəvi cəhətlərin toqquşduğu bir dövr; eyni zamanda ev qırğınları, şahların zülmü, məmurların xalq kütlələrinə təcavüzü və zəlzələ bu dövrün səciyyəsidir. Bunula belə şairlərin şahlara mədh yazmaları və əhalinin vəziyyətinin günbəgün çətinləşdiyi bir dövrdə saraya getməmək və məddahlıqdan əl çəkib, zəmanəsindəki sadalanan əyrilikləri görən Nizami bütün bunları olduğu kimi elə ilk əsəri «Sirlər xəzinəsi»ndə göstərməyə nail olmuşdur. Güman etmək olardı ki, Nizaminin bu hərəkətləri şahları, xaqanları ona qarşı çevirəcəkdir. Lakin belə olmadı. Məhz Nizami kamalı və qələmi qarşısında hamı aciz qaldı. Şair müsəlman dəyərləri, islam dininə aid nümunələri qurandan gətirərək, insanları gördüyü işlərə həm öz, həm də Allah qarşısında cavabdeh olmağa səslədi.

Nizami, elmə xüsusi qiymət verməyin əsas olduğunu və qabiliyyətli insanların qiymətləndirilməsini əsas meyar hesab edir. Bu tarixi inkişaf elə 5-6 əsrdən başlayır. IV əsrin sonlarına qədər davam edən zorakılıq və özbaşınalığa qarşı indi son qoymaq vaxtı gəlib çatmışdır. Bu dövrdə «Ağıl elmi» deyilən bir elm meydana gəlir ki, ona «Tətil elmi» demişlər. Misal olaraq Sənai və İbn Sina kimi alimləri artıq qiymətləndirməyə başlayırlar. Siyasətçilər də bundan faydalanmağa başladılar. Onlar İran siyasətindən uzaqlaşıb özlərinə xas Səlcuq siyasətlərini qurmağa başladılar. Onlar yaxşı dərk edirdilər ki, İraqdan, Orta Asiyaya, oradan da Azərbaycana qədər olan böyük bir ərazini bir siyasətlə eyni cür idarə etmək olmaz. Ona görə də hər ölkədə olan siyasətçi öz müxalifətindən ehtiyatlanaraq hərəkət etməyə başlamışdır. Bu barədə siyasətçi və məzhəblər bilicisi Xale Nezam Əlmülk Tusi yazmışdır. «Müharibələrdən bezən xalq artıq elm və irfanı dərk etməyə başlamış, elə çıxış yolunu da bunda görmüşlər».

Nizaminin «Sirlər xəztnəsi» əsəri yuxarıda deyilənləri təsdiq edir.

Bu dövrün şairlərindən Xaqani,Əbu Əla Gəncəvi, Cəmaləddin Əbdülrəzzaq öz nalə və şikayətlərini etsələr də, onlar Nizami qədər real və kəskin söyləyə bilməmişlər. Lakin Nizami saraya getməsə belə, bilik, bacarıq və şeriyyatının gücü ilə diqqətdən kənarda qalmamışdır.

***Nizaminin həyat və əsərlərinin şərhi***

**Tanışlıq:** ümumən onun adı «İlyas İbn Yusif İbn Zəki İbn Müəyyəd» kimi zəbt edilmişdir. Tağıəddin Əvhədi, Nizamini «Əhməd İbn Yusif İbn Müəyyəd» digər müəlliflər onun Cəmaləddin adı olduğunu, Ləbəllübab şairin adının «Həkim Əlkamil Nizami Gəncei» olduğun vurğulayır. Qədim müəlliflər ümumən Nizami adı ilə yazanların çoxluğunu nəzərə alıb ona «Mərtəzi» adının verildiyini söyləyirlər. İranda və başqa yerlərdə VI əsrdə xeyli «Nizami» adına rast gəlirik. Nizami Ərvəzi Səmərqəndi, Nizami Əsiri Nişapuri, Nizami Mənizi Səmərqəndi; Bu imtiyazı Nizamiləri fərqləndirmək üçün Nizami Gəncəvini «Mətrəzi» adlandırmışlar.

Nizaminin dünyaya tanınmış adı elə «Nizami» qəbul edildiyindən və o biri Nizamiləri kölgədə qoyduğundan dəyişməmiş və bu günə qədər qalmışdır.

Onun anasının adı «Rəisə» olduğu və kürd tayfalarına mənsubluğu artıq ədəbiyyatşünaslar və tarixcilər tərəfindən təsdiqini tapmışdır.

Bunu «Leyli və Məcnun» dastanında şairin özü təsdiq edir:

Gər madəre mən Rəiseye kord
Madər sefətane pişəm mord. (103-19)

Tərcüməsi: Kürd Rəisəsi olan anam, qarşımda ana sifətində öldü.

Nizaminin dayısı Xacə Ömərin adı fəxrlə çəkilir. Çünki, Nizami kiçik yaşlarından valideynlərini itirir. Onun təhsili və yaşayışı ilə məhz dayısı Xacə Ömər məşğul olur. Ona yaxşı müəllimlər tutur, onun tərbiyəsi ilə məşğul olur. Yazılanlara görə Xacə Ömər böyük tacir və zəmanəsinin sayılan adamlarından imiş.

Digər tərəfdən Nizaminin atası İraqdan Gəncəyə mühacirat etmişdir. Hər halda şairin ailəsi savadlı və dövrünün mütərəqqi şəxslərindən olmuşlar. Nizaminin Qivami

adlı qardaşı olmuş ki, o da həmin dövrdə Qivami Mütrəzi təxəllüsü ilə yazmış şairlərdəndir. Elə Nizaminin Mütərzi ləqəbi götürməsi də bununla əlaqələndirilir. Lakin mərhum V. Dəstgerdi bunu rədd edir.

Nizami üç dəfə evlənsə də, onun ancaq bir Məhəmməd adlı oğlu var idi ki, ona nəsihəti bunu sübut edir. «Sirlər xəzinəsi» əsərindən başqa qalan dastanlarında Məhəmmədin 7,14,20 yaşında olduğu vaxt şeirlər yazıb ona vəsf etmişdir. Nizaminin «Xosrov və Şirin», «Leyli və Məcnun» və «İqbalnamə» yazarkən qadınları ömürlərini qeyb etmişlər.

Nizaminin döğum tarixi ayrı-ayrı ədəbiyyatşünas və şərqşünaslar tərəfindən müxtəlif illərlə göstərilir. Şairin təvəllüd tarixini Ripka və Bertels 535, Şəbli, Moin və Vəhid 533, Nəfisi 540 qəbul edir. Müxtəlif məcmuələrdə 533 lə 544 arasında verilir. Sovetlər məzar daşında 535 tarixini həkk etmişlər. Ölüm tarixində də biz 576-614 arasında qalırıq. Sovetlər həmin qəbir daşında 599 yazmışlar.

Doğulduğu yer Gəncədir, vəfat etdiyi yer də oradır. Gəncədən kənara demək olar ki, çıxmamışdır. Nizaminin daimi iqamətgahı elə Gəncədir.

Bir dəfə Qızıl Arslanın xahişi ilə o, qısa səfərə çıxmışdır. O da «Xosrov və Şirin» dastanını Məhəmməd Cahan Pəhləvana həsr etdiyindən padşahın da əcəl ölümü buna imkan vermədiyi üçün onun qardaşı ilə görüşür. Bu görüşü Qızıl Arslanla Nizami əsərində qeyd edir.

Nizami Gəncədə doğulub boya-başa çatsa da, onun hərdən ata yurdu İraq düşündürmüş və bu barədə «Sirlər xəzinəsi» dastanında qeyd etmişdir.

### *Nizaminin məsləyi*

Nizaminin müsəlman olması və sünni məsləkliyi aydın görünür. Nizaminin allaha, qurana, Məhəmməd Peyğəmbərə inamı bütün əsərlərində tərənnüm edilmişdir. Amma bəzi alimlər o cümlədən Dövlətşah Səmərqəndi onu Sufi təriqətinə inamını təsdiq edir. Ehtimal edilir ki, Nizami «əxi» qardaşları cəmiyyətinin fəal üzvlərindən biri olmuşdur. Lakin Nizami əsərlərində bunlar çox cüzi bir şey təşkil edir. Şairin dünyəvi olduğu onun

yazdığı real hadisələrlə ölçülür. Nizamidə guşəneşinlik olmayıb, ona görə elə onu sırf sufi adlandırmaq da doğru olmaz. Bu üzdəndir ki, Nizamiyə «Arif», «Həkim» deyilmiş, nəinki Sufi.

### *Nizaminin şəxsiyyəti*

Nizami elə bir şəxsiyyətdir ki, o, fitri şairlik istedadı ilə kifayətlənməmiş, dövrünün tarixi, onun simaları, ictimai, siyasi məsələləri öz ölməz xəmsəsində əks etdirmişdir. O, dövrünün adamlarının bütün təbəqələrindən yazmış, şeirin və hikmətin vəhdətini təşkil edərək öz işinin dəyərini bilmişdir. Nizami dənizi o qədər dərindir ki, bu dənizdən damla-damla oğurlasalar belə qurtarıb bitən deyil. «Yeddi gözəl»i yazarkən Nizami yaşa dolduğunu etiraf etsə də, bunu müdrükləşəndə daha yaxşı yazacağına əmin idi. Təbii ki, belə də oldu. Nizami oğlu Məhəmmədə nəsihət verərkən ona savadlı bir peşə seçməyi tövsiyə edir, həkim olmasını arzulayır. Savadlı sənətkar Nizamiyə görə şairlikdən yüksəkdir.

Nizami pulla şeir yazanlara qarşı çıxır, onları qızıl və gümüşə satılmamağa çağırır. Çünki, onda söz qiymətdən düşür. Neçələrini görmüşəm ki, qızılla bəzədilsə də, qılıncla başları kəsilib. O, işarə etmişdir ki, qızıl karvanı eşqdir.

Şərəfnamədə şair deyir: «Mən qızıl-gümüş hərisi deyiləm eşq aləminin hərisiyəm ki, orada hər şey vardır». Buradan Nizaminin təbiəti və amalı aydın olur. Bu baxımdan o, şahlardan qaçır, özünü onlardan yüksəkdə sayır. «Xosrov və Şirin» yazılıb şaha təqdim edildikdə Nizami məcburən əyilmək istəyib təzim etmək fikrini şah görüb qoymur. Əvəzində «Həmduniyan» adlı bir kəndi şairə baxışlayır. Məlum olur ki, bu kəndi Abxazlar qarət edib, xırda bir kənddir, ancaq kiçik əkin sahələri var.

Cavanlıq köç edəndə Nizami hiss edir ki, çöhrəsinin qızartısı saralmaya doğru gedir. Qocalıqdan şikayət edən şair cavanlıqda oyaq və huşyar olmağı tövsiyə edir.

Beləliklə, Nizamiyə nəzər saldıqda əxdaqı, şairliyi, səbri, iffəti, qaneliyi, nəzakəti, evə-ailəyə münasibəti, şəhərinə vurğunluğu, qohumlara istiqanlılıq, qısa danışıqlı şəxsiyyət ancaq məsum ola bilər. Bu nöqteyi-nəzərdən Nizami zəmanəsindəki bütün insanların ən ümdəsi sayılır.

### *Nizaminin şairlik məqamı və əsərləri*

Əgər bütün məşhur şairləri bir-biri ilə ölçsək Vəhid Dəstgerdi demişkən onda gərək bu ölçünün fövqundə Nizami dayana. Digər tərəfdən Nizami elə farsdilli şairdir ki, o, Firdovsi və Sədi ilə fars dilinin təkamülündə istisna rol oynamışdır. Onun farscası çox anlaşıqlı bir üslubda yazılmışdır. O, sözləri yerli-yerində işlətməkdə, istiarə və bənzətmələrdə fövqəladə qələmə malikdir. Nizami sözün hər bir mənasını duyan və onu yerli yerində işlədən bir şairdir. Onun əndazəsiz bir şeir yazma qabiliyyəti var ki, bunu heç kəs edə bilməmişdir. Şairin ən böyük imtiyazi şeirdən dastan yaratmağıdır. Onun təsir qüvvəsi 5 dastan vasitəsiylə o qədər oldu ki, sonrakı şairlərin hamısı onun yolunu getmək istədi, ancaq ona çata bilmədilər.

Hətta, Əmir Xosrov Dəhləvi, Cami, Vəhşi Bafti, Salman Savcı, Xacu Kermani, onlarla başqaları Nizami qədər şeirin qüdrətini ucalda bilmədilər. Digər tərəfdən farsın böyük şairləri Nəzir Mölanə, Sədi və Hafiz də bu zirvəni fəth edə bilmədilər.

### *Nizaminin müasirləri*

Nizaminin müasirlərinin hamısı ondan bəhrələnmişlər. Çünki, Nizamidən sonra gələn yazıçı və şairlərin hamısı onun əsərlərini oxumuşlar. Şairin ədəbi təsiri onların yaradıcılığına etkisiz ötüşməmişdir. O şairlərdən aşağıdakıların adlarını çəkə bilərik:

Nasir Xosrov, Məşud Səid Səlman M., Xəyyam, Həkim Sənayi, Xacə Nizam-Əlmülk, Xacə Abdulla Ənsari, İmam Məhəmməd Qəzali, Bəhayəddin Bağdadi və s.

Ancaq Nizaminin özünün yaşadığı dövrdə belə ədəbi fəaliyyətlə məşğul olan şairlər onunla dostluq etmiş, onun yazdıqlarına qibtə etmişlər. Onlardan: Ənvəri, Mücirəddin Beyləqani, Cəmaləddin İsfahani, Zəhir Farabi, Fələki Şirvani, Xaqani Şirvani və s. göstərmək olar.

### *Nizamiyə qiymət verənlər*

Nizami yüksək qiymətləndirən şəxslər aşağıdakılardır:

1. Məlik Fəxrəddin Bəhramşah idi ki, o, Mənqucəki sülaləsindən idi. Onlardan eyni zamanda Gürcüstan və Bizansda hökmranlıq edirdilər. Bu sülalənin ən mühüm xanədanı Fəxrəddin Bəhramşah 1155-1218 miladi tarixində yaşamışdır. O, ağıllı sərkərdə olmaqla bərabər şeir və ədəbiyyatı çox sevmişdir. O, Xaqaniyə hüsnü-rəğbət bəsləmiş. Nizamiyə xüsusi ehtiramla yanaşmış və Nizamidən xahiş etmişdir ki, ona bir dastan həsr etsin. Nizami özünün xəmsədəki ilk əsəri «Sirlər xəzinəsi»ni məhz Fəxrəddin Bəhram şaha 572-ci il h.q. həsr etmişdir. Bunun müqabilində Bəhram şah şairə 5 min pul mükafatı, bir sürü qatır və bahalı paltarlar göndərmişdir.

2. Əbutalib Toğrul Arslan padşah Səlcuqi və Atabəy Şəmsəddin Əbu Cəfər Məhəmməd Eldəgiz, oğlanları Cahan Pəhləvan və Atabəy Qızıl Arslan bunlar Azərbaycan, Həmədan və İraqa qədər böyük bir hökmranlıq edirdilər. Nizami ikinci dastanı «Xosrov və Şirin»i Cahan Pəhləvanın sifarişi ilə yazmışdır. Bunun mükafatı olaraq onlar Nizamiyə Həmdünyan kəndini bağışlamışlar.

3. Əbzəlmüzəffər Şirvanşah Asitan Mənuçehr İbn Asitan Nizamiyə üçüncü əsəri «Leyli və Məcnun» yazmağı xahiş etmişdir. Şair bu xahişi yerinə yetirib 584-585-də təhvil vermişdir.

4. Nizaminin dördüncü dastanı «Yeddi Gözəl»i Əlaəldin Məhəmməd Kürp Arslanın göstərişinə yazıb və onunla şəxsən görüşmüşdür.

5. Atabəy Əzəm Məlik Nüsrəddin Əbubəkir Səlcuqi, Cahan Pəhləvanın oğlu kimi Azərbaycanda hakimiyyətə gəlmişdir və İraqda da padşahlıq edirdi. «İskəndərnamə» əsərinin «Şərəfnamə» hissəsi ona həsr edilmişdir. Bu 593-cü ildə baş tutmuşdur.

6. Məlik İzəddin Məsud İbn Arslan Səlcuqi ki 599-cu ildə padşahlıq edirdi Nizaminin oğlu Məhəmmədin təhriki ilə «İskəndərnamə» dastanının ikinci hissəsi «İqbalnamə» ona həsr edilmişdir.

Beləliklə, Nizami öz xəmsəsindəki əsərləri yəni bu beş poemanı zəmanəsinin şahlarına həsr etməsi aydın görünür. Lakin Nizami heç vaxt saraya gedib məddahlıqla məşğul olmur. Onun yaradıcılığının ilk nümunələri qəzəl, qəsidə, rübai və s. şeir formaları olmuşdur. Elə bu şeirlər xoşa gəldiyi üçün Nizamidən xoşları gələn kütlə və

şahlar daha çox şeylər gözləmişlər ki, nəticədə şeiriyyət xəzinəsinin incisi «Xəmsə» meydana gəlmişdir.

***Nizaminin əsərləri***

1. ***«Sirlər xəzinəsi».*** 2260 beytdir. Bu əsər Nizami şəxsiyyəti, irfan və əxlaq haqqında geniş təsəvvür yaradır. Alimlər bu əsəri həqiqət təsviri adlandırırlar. Burada ayrı-ayrı hekayələrdən bəhs edilsə də, bütövlükdə kamil bir əsər yaranır. Bu məsnəvi səri bəhrində yazılmışdır.

2. ***«Xosrov və Şirin»***. 6500 beytdən ibarət olub, müsəddəs bəhrində yazılmışdır. Sasani sülaləsindən olan Xosrov Pərvizdən bəhs edən bu əsər eşq barəsində yazılan dastanların ən yüksəyidir. Eyni zamanda türk gözəli Şirindən Ərmən hökmdarından bəhs edir. Bu əsər 576-cı ildə ərsəyə gəlmişdir.

3. ***«Leyli və Məcnun».*** 4720 beyt həcmində olub 584-cü ildə yazılmışdır. Nizami bu əsəri 4 ay müddətinə hazırlamışdır. Bu dastan ərəb şifahi xalq ədəbiyyatında olmuş və tarixi həqiqətlər üzərində qurulmuşdur. Qeys ibn Məluh, Bəni Amer qəbiləsindən olmuşdur. Leyli Binti Səid də həmin qəbilədəndir.

Nizami mövcud olan bu nəsr əsərindən möhtəşəm fars dilli nəzmin əsasını qoymuşdur.

***4. «Yeddi gözəl».*** Bu dastan yeddi qadının hər birinə inşa edilmiş künbəzlərin sayı ilə əlaqədardır. Bunları Bəhrəmşah tikdirmişdir. Əslində Bəhrami Gur olan bu şah qəsrin divarlarındakı təsvirləri qadınların gözəlliyi və onların ölkələrinin iqliminə uyğun təsvir etdirmişdir. Bu əsər 5136 beyt olmaqla 593-cü ildə yazılıb tamamlanmışdır.

Sasanilər sülaləsindən olan Bəhram Gur uşaqlıqdan qocaq olmuş bir çox vərdişləri və bacarığı ilə hamını heyran etmişdir. Bəhram yeddi kümbəzi tikdirib 7 qadınla evli olduğundan həftənin bir gününü onlarla keçirir. Onlarda öz növbələrində axşamlar Bəhrama bir hekayə danışırlar.

Bəhram Gurun vəziri şahın eyş-işrətə qarışdığını görüb ölkəyə zülm etdirir. Nəhayət Bəhram bunu duyub vəzir Rast Rövşəni cəzalandırır. Bu əsərlə Nizami əslində zülmə və çoxarvadlılığa qarşı çıxmışdır.

***5. «İskəndərnamə».*** İskəndərnamə iki hissədən ibarətdir: «Şərəfnamə» və «İqbalnamə». «Şərəfnamə» İskəndərin şan-şöhrəti və ölkələri tutmasından bəhs edir. «İqbalnamə» isə onun dünyadan heç nə aparmadığından danışır. Bəzən «İqbalnamə» «Ağılnamə» də adlanır.

«Şərəfnamə» 6800 beyt olub 597-ci ildə tamamlanmış, «İqbalnamə» 599 da yekunlaşıb 3680 beytdir. Beləliklə də Nizaminin yazdığı bu 5 dastan ədəbiyyat aləmində xəzinə adlandırılıb və «Xəmsə» kimi bütün dünyada şöhrət qazanmışdır.

***Şərqşünaslar və Nizami***

Yan Ripka «Yeddi Gözəl»in tərcüməsi müqəddəməsində yazır: «Bəziləri Nizaminin adını eşidib, onun əsl və həqiqi mənada kim olduğunu bilmir. Çoxları onun əsərlərini oxuyub, ancaq təhlil edə bilməməsi şüurunun Nizami səviyyəsində olmaması ilə izah edilə bilər».

Nizami Avropada şərqşünaslar tərəfindən Firdovsi, Sədi, Xəyyam və Hafizdən gec tanınmışdır. Yalnız Alman şərqşünası Vilhelm, Nizaminin dərk edib onun əsərləriylə maraqlanmışdır. Bu gəncəli şair ancaq 1786-cı ildən etibarən tanınmağa başladı. Həmin il Kələküttə də «Asiya döyüşü» adlı bir kitab çap oldu ki, İran ədəbiyyatı müntəxəbatı kimi Nizaminin «Sirlər xəzinəsi» poemasından 20 hekayə də orada mövcud idi. Daha sonra 1802-ci ildə Almaniyanın Leypisik şəhərində bu 20 hekayə Latın dilində nəşr edildi. Bundan sonra Hindistan alimləri Bədr Əli və Mir Hüseyn Əli tərəfindən şairin «İskəndərnamə» dastanı şərhlərlə birlikdə çap olundu. Bu tərcümə və çaplar Gəncə soz ustadının Avropada yayılmasına səbəb oldu.

1826-1828 illərdə Qazanda rus şərqşünası Fransua Ardman tərəfindən «İskəndərnamə» çap oldu və «Ruslarla döyüş» adı ilə oxucu kütləsinə çatdırıldı.

1836-cı ilə qədər Nizamini ancaq «Sirlər xəzinəsi» və «İskəndərnamə» müəllifi kimi tanıyırdılar. Bu illərdə İngilis şərşünası J.Atkinson «Leyli və Məcnun» poemasını ingilis dilinə tərcümə etdi. Sonralar Londonda 1894-1895-ci illərdə yenidən nəşrinə müvəffəq oldu.

1852-ci ildə Hindistan şərqşünası Ağa Məhəmməd Şüştəri tərəfindən çap edildi.

1881-ci ildə «Nizami xəmsəsinin xülasəsi» adlı şeirlər kitabı Lidən şəhərində çapdan çıxdı. Beləliklə Avropada sonralar «Xosrov və Şirin», «Yeddi gözəl» çap olmağa başladı.

Eyni zamanda Vilhelm Baxer «Nizaminin tərcümeyi-halı və əsərləri» adlı kitabını yazıb Almanca çapına nail oldu.

Nizaminin həyat və yaradıcılığı haqqında ən geniş və müfəssəl yazıb elmi araşdırmalar aparan böyük rus alimi və şərqşünası Bertels olmuşdur. O, Nizaminin «Xəmsə»sini ruscaya tərcümə etmiş, XX əsrdə Nizamidən ən çox yazıb araşdırmalar aparan şərqşünasdır.

Ümumiyyətlə götürsək indinin özündə də bütün dünya şərqşünasları Nizamini tam açmaq üçün böyük maraq göstərirlər. Çünki, Nizami elə bir dühadır ki, onda hələ açılmayan mətləblər çoxdur. Onu dərk etmək üçün yalnız özünün səviyyəsində olmalısan.

### *Nizaminin etiqadı*

Çox nadir şair, yazıçı hətta mütəfəkkir filosof ola bilər ki, səhv etməmiş olsun. Belə böyük işləri görən Nizami də istisna deyil. Belədirsə onda aşağıdakıları nəzərə almaq lazımdır:

1. Nizami bütün tarixi faktları tam olduğu kimi verməmişdir. Bu, onunla əlaqədardır ki, şair onu öz təxəyyülü ilə açıqlamışdır. İskəndər, Azərbaycana gəlməmişdir. Şair isə onu Nüşabə ilə qarşılaşdırır.

2. İslamda olan bəzi dini ayinlər Xristianlıqda yoxdur. Ancaq Nizami İskəndərin müsəlman qaydalarına əməl etməsini göstərir. Halbuki, İskəndərə bu iş yaddır. Məsələn, kənizin İskəndərin əlinə su tökməsi ki, o, əlini yusun. Məsihidə (xristianlıqda) belə adət yoxdur.

3. Nizamidə həyatla din arasında bəzi anlaşılmazlıqlar mövcuddur.

4. Nizami xürafata etiqat etməsə də bəzi hekayələrində bu hal görünməkdədir.

5. Nizami əsərlərinin sonunda qocalıqla əlaqədar kəmhövsələliyə, tələskənliyə yol vermişdir. Bu hal «İqbalnamə» dastanında özünü göstərir. Görünür şair ömür vəfa

etməsə, əsəri bitirməməsindən qorxmuşdur. Ancaq cəsarətlə demək lazımdır ki, Nizami əsərləri sözün əsl və həqiqi mənasında daim bəşəriyyəti düşündürən hikmət və əxlaq dəryasıdır. Hər kəsin bundan faydalanması vacibdir.

## II FƏSİL

## *NIZAMI GƏNCƏVI ƏSƏRLƏRINDƏ HIKMƏT*

Fəlsəfə və hikmət vəhdət təşkil edir. Bilik, elm, alimlik, irfan, mərifət, alilik Firdovsi əsərlərində, Nasir Xosrov, Kəlilə və Dimnə, Gülüstanda öz əksini tapmışdır. Bundan əlavə doğruluq, düzlük, ağıl və hökm də burada yer almışdır.

Hikmət və elm "Qurani Kərim"də də işlədilmişdir. Fəlsəfi baxımdan hikmət-həqiqət deməkdir.

Xacə Nəsir demişdir: «Hikmət mərifət əhlində ağıl-kamala çatmaqdır. Fəlsəfəni qədimdən məziyyət və hikmət bilmişlər. Ərəstu, Əflatun fəlsəfəsi şeyx Şəhabəddin tərəfindən yayılmışdır».

Nizami «İqbalnamə» də göstərir ki, Ərəstu ölüm ayağında ikən şagirdləri başına toplaşır və Ərəstu onlara deyir ki, nə qədər ömr etdim fələyin işlərindən baş çıxara bilmədim, indi görürəm ki, heç nə bilmirəm.

Əflatun 113 il yaşayıb ölüm vaxtı deyir ki, mən hələ cavan arzularımla yaşayıram, yeni şeylər düşünmək istəyirəm. Nizami deyir ki, insan ancaq gördüyünü dərk edə bilər, görmədikləri elə bağlı olaraq qalacaq. Dünyanın varlığını ancaq xaliq dərk edə bilər. Çünki kainatı o özü xəlq etmişdir və özü bilir ki, necə xəlq etmişdir.

Qərb fəlsəfə tarixində fəlsəfə 5 hissəyə bölünür:

Məntiq, camal elmi, əxlaq, siyasət və təbiət elmləri. Məntiq, fikrin əsasında cəmləşir. Camal elmi real görünüşün təcəssümüdür. Əxlaq, kamal, ağıl bəhrəsidir, siyasət ideyalar məcmuəsidir. O, cəmiyyəti dəyişməyə qadirdir. Təbiət elmi gördüklərimizin inikiasıdır. Yəni insan bunları görür və hiss edir. Hikmət əxlaqın içərisindən nəşət edib çıxır.

Bütün bunları Nizami öz şeriyyatında açıqlaya bilir.

Hikmət, fəzilət və səadətin vəhdəti. Mənəvi sifət fəzilət deməkdir. Çünki, mərifət və hikmət fəzilətə bağlıdır. Birlikdə isə mənəviyyat deməkdir. Ərəstu, Əflatun, Farabi, Xacə Nəsir hikməti ilk fəzilət hesab etmişlər.

Səadət ancaq hikmət fəzilət və kamalla yetişir deyən Nizami hamıdan öncə onu poeziyaya gətirmişdir. Hikmət və əxlaq arasında xüsusi bir rabitə vardır. Bunların birini digərindən ayırmaq və təklikdə düşünmək mümkün deyil.

Nizami təfəkküründə hikmət.

Əgər Nizami əsərlərindəki hikmət, ağıl və nəsihətli sözləri seçəsi olsaq, o zaman böyük bir kitabın meydana gələcəyinə heç şübhə yeri qalmır. Bunu şairin öyüd və nəsihətləri mövzusunda yazan onlarla müəllif təsdiq etmişlər.

Nizami yaradıcılığında islam təfəkkürü ayrıca bir yer tutur. Şair bu hikmət təfəkkürünü şeir vasitəsilə çatdırmağa müvəffəq olmuşdur. Nizaminin hikmətində əsas yeri insan və onun əxlaqı tutur. Mərifət də bura daxildir. Nizami nədən yazmasına baxmayaraq bunlardan yerli yerində istifadə etmişdir. Bəlkə elə əsas səbəb də budur ki, Nizami əsərləri daha oxunaqlı olmuş, insanlar tərəfindən sevilmişdir.

### *İnsana bələdlik*

Nizamiyə görə insan ismi və əqli ilə bağlıdır. Hər iki ünsür bir-biriylə sıxı bağlıdır. Şairin nəzərincə cismi ona yaşayış, ruhu və əldə etdiyi əqli isə ona yaşayış tərzidir. Cismi bir ovuc torpaq və Sudan ibarətdir. Ağlı isə onun dərk etmə qabiliyyəti ilə ölçülür. Yatmaq, yemək, zülm etmək, doğmaq, cahangir olmaq, mərdimazarlıq, yalan danışmaq, malpərəstlik, alicənablıq onun əsas xislətidir. Bütün bunları Nizami öz əsərlərində tərənnüm etmişdir. O, etiraf edir ki, insan yer üzünün əşrəfidir. Nizami eşqi bəşəriyyətin fövqündə dayanan ən ümdə məslələrdən biri hesab edir. Çünki, eşq insana bəxş edilmiş ən gözəl hissiyatdır, insan həm sevməli, eyni zamanda həm də sevilməlidir.

Nizami hikmətində əxlaqlı insan özünü dərk edirsə, o, allahını da dərk etmiş olur. Övladına nəsihətdə deyir ki, özünü tanı ki, allahını da tanıyasan. Nizami ağlı insana dost

sayır. «Ağıldır insanın dövləti, malı» deyir. Ağıl həm fərdi, həm də iqtisadiyyat üçün lazımdır. Çünki cəmiyyəti ağıllıar idarə etsə, onda inkişaf olar.

### *Allahı dərk etmə*

Nizamiyə görə özünü tam dərk edən insan, allahı tanımalıdır. Çünki, kamil insan bilməlidir ki, o, çox şey edə bilər lakin dünya yarada bilməz. Şair özünün hər bir əsərini allahın adı ilə başlamışdır.

Bismillahi rəhmani rəhim

Həst kelid də gənce həkim. (110-1)

Xəzinənin hər bir açılışının açarı ilk olaraq allahın adı ilə bağlıdır. Şairə görə allahını yad edənləri, allah da yad edir.

### *Ağıl*

Quranda yazılmışdır ki, insan əqli əgər salimdirsə, o, çox şeyə qadirdir. Nizaminin əqidəsinə görə ağıldan güclü heç nə ola bilməz. İnsan ancaq mövcudatını düşünsə, ağılla çalışmasa, bir heyvandır. Həkim şair ağılı insana ən vəfalı dost sayır və ağlın varsa, hər şeyin var deyir.

### *Yaşam fəlsəfəsi*

Nizaminin bu dünyada yaşam tərzinin özəl bir fəlsəfəsi vardır ki, şeir təfəkküründən axır. Onun təbiətindən səmaya və olacaqlara gətirib çıxarır. Qurani Kərimin bəzi ayələrindən faydalanan şair bunu nəzm ilə cilalamışdır. Bu cəhətdən şairlər insanı vacib yaşayış qüvvəsi hesab etmişlər. İnsan günah və xəta edə bilər. Lakin allahını yaddan çıxarmasa və bu yoldan dönmək istəsə, allah rəhimlidir onları bağışlayar. Tövbə etmək böyük bir bacarıqdır. Nizami öz qocalıq sinnində deyilənləri bir daha təkrar etmişdir.

İskəndərin dirilik suyu dalınca getməsi ona qismət deyilmiş, qaçmaq əvəzinə yerində oturmalı imiş. Nizaminin fikrincə allahın işlərinə qarışmaq olmaz.

Nizami ceyranları sevib ona nəvaziş göstərən Bəhrami Gurun eyni zamanda onların əzablı ölümünə səbəb olanın aqibətinin necə olacağını ancaq tanrının bildiyini söyləyir.

Təbiidir ki, Nizami sona qədər bu fikirdə qalır. O, fala baxmağa inanmır və deyir ki, insan ancaq çarəsizlikdən bu işə gedir. Görününr ki, Nizami xurafatın tam əleyhinə olub və demiş ki, ulduz, insanın nə dərəcədə yaxşı və pis vəziyyətə düşəcəyini xəbər verəcək?

### *Dünyanı dərk etmə*

Dünya haqqında çox şeylər yazılıb və çox sözlər deyilib. Nizami dövrünün mütəfəkkir islamşünası İmam Məhəmməd Qəzali belə xülasə edir: «Dünya özü də bir cadugərdir ki, onu insan çətin başa düşər».

Gözəl bir qadın adamı özünə aşiq edib, sonra evinə aparıb öldürə bilər.

Nizami xəmsə böyu «Sirlər xəzinəsi» əsərindən tutumuş ta «İskəndərnamə» yə qədər dünya və onda pis-yaxşı cərəyan edən hadisələrdən geniş bəhs etmişdir. Xeyir və şər, küpə girən qarı, zülm və rahatlıq, doğru-yalan kimi hadisələr oxucuya tam açıqlığı ilə çatdırılmışdır. Bu, hər şeydən əvvəl şairin özünün dünyaya baxışı ilə izah edilməlidir.

Nizami fəlsəfəsinə görə dünya bir divdir. Xalqın qanı, onun abi-həyat, günəşin çeşməsi onun nəməkdanıdır. Dünya həm də ziddiyyətlərlə doludur. Hələ heç kəs bundan nə doymuş, nə də baş açmışdır.

Şirinin ölümü zamanı Nizami bu fikrə gəlir ki, dünyaya etibar yoxdur. Nə verirsə, axırda onu da alır. Eşq olan yerdə, qəm də var. Əgər yarpaq gül açırsa, sonra yüz tikan verir. Cavanlıq şadlıq gətirirsə,  qocalıq ölümlə nəticələnir. Ölümlə olum arasında əslində elə də çox bir zaman yoxdur.

Nizami bu əqidəyə gəlir ki, ancaq ağıllı adamlar bu dünyadan yaxşı istifadə edə bilərlər. Onda ölüm onlar üçün qorxulu olmaz. Ömrün müvəqqəti, dünyanın daimi olduğunu bildirən mütəfəkkir şair ondan bəhrələnməyin vacib olduğunu bildirir. Nizami yazır ki, çətinliklə dünyaya gəlib, elə o tərzdə də dünyadan getməliyik. Əgər şeytan insanı aldada bilməsə, insan dünyada çox şadyananıqla yaşaya birlər. Sadəcə olaraq yaşamağı bacarmaq və dünyanın nəbzini tutmaq lazımdır.

### *Ölüm*

Ölümdən dəhşətli bir şey dünyada yoxdur. Yaşayanların hamısı gərçi aqibətlərinin belə olacağını öncədən bilirlər. Ancaq filosof və ağıllı adamlar əslində ölmürlər. Ona görə ki, onların əməlləri yaşadıqca özləri də yşayırlar. Ölümə çarə yoxdur. Ölüm fəlsəfi həkim Nizamidə yaşayış üçün ibrət və tənbehdir.

Nizami «Sirlər xəzinəsi», «Xosrov və Şirin», «Leyli və Məcnun», «Yeddi gözəl» və «İskəndərnamə» qəhrəmanlarının ölümlərini və son əcəl aqibətlərini müxtəlif tərzdə göstərsə də, axırı qara torpaq olduğunu vurğulayır. Keyxosrovları, İsgəndərləri udan qara torpaq gələnin bir gün gedəcəyinə bariz nümunədir. Dünya tülkü kimi hiyləgərdir.

Nizaminin tövsiyəsi budur ki, ömründəki həyatını o qədər yaxşı keçirt ki, ölüm ayağında peşman olmayasan, ömrü şadlıqla yaşayasan. Ölümü ölümdən qabaq düşün deyən Nizami ondan da qorxmamaq lazımdır əqidəsinə gəlir. Ömrü ömür kimi başa vuranlar xoşbəxtdir. Bütün mübarizələr həyatda ancaq diri olanda olur. Ölümdən sonra iki ad qalır: «Yaxşılıq və pislik».

Birinciylə yaşayanları nikbin, iknciylə yaşayanları bədbin anıb yad edirlər.

## III FƏSİL

### *Əxlaq*

Əxlaq barədə hikmət fəslində danışdıq və göstərdik ki, mütəfəkkirlərin nəzərincə islami və yunani əxlaq qədimdir. Bizə aydın oldu ki, insan rəftarında əxlaq zəruri rol oynayır. Ev, ailə, ictimaiyyətdə onun əhəmiyyəti böyükdür. İnsanın əxlaqı onun mədəniyyətinin nə dərəcədə olduğunu bildirir. Əxlaqlı insan maddi və mənəvi həyatdan ləzzət alır, dünyaya gəlib getməsindən heyfslənmir. Bu da onu fəzilətə aparır ki, insan səadətə qovuşur. Qədim xristian alimləri insan əxlaqını iki yerə bölüb onu aşağıdakı kimi səciyyələndirirlər:

1. Qurur, özünübəyənmə, şöhrətpərəstlik, həsəd, qarınquluduq, əyilmə, tənbəllik;
2. Hikmət, iffət, şücaət, ədalət, məhəbbət, yaxşı iş və ümid. Bunların bəziləri allah, bir çoxları təbiət tərəfindən verilmişdir.

Əflatun hər bir fərddə bu fəzilətlərin üç olduğuna işarə edir.

Hikmət salamatlıq və ağlın yüksək zirvəsidir.

İffət – hissiyyatların salamatlıq rəmzidir.

Şücaət – insanın idarəetmə mərkəzidir.

Dördüncüsü odur ki, fəzilət adlanır və fərdidən ictimaiyə keçir.

İslam hikmətləri Əbu Əli İbn Sina, Nəsərəddin Tusi, sonrakı mütəfəkkirlər tərəfindən Əflatunun təbirlərinin digər formasında izah edilmişdir. Qədim şərqdə təbiəti 4 ünsürlə: su, külək, od və torpaqla izah etmişlər. Bu dördlük fars ədəbiyyatında dörd ana, dörd əjdaha, dördlük anlamı gətirən bəzi ədəbi cərəyanlarda özünü göstərir. Bizim əxlaq hədəfimiz ona görədir ki, görək Nizami Hansı əxlaqı seçmişdir.

Nizami Gəncəvi əsərlərini oxuyub təhlil edərkən onun yazılarındakı əxlaq məsələlərinə aşağıdakı qənaətlə yaxınlaşırsan:

***1. İffət***

Şəhvətin ən yüksək pilləsi iffətdir. Nizami irsiyyətə böyük əhəmiyyət verir və nəfsin toxluğunu əsas hesab edir. Bu sahənin ən mühüm əsəri «Xosrov və Şirin»dir. Dastandakı Şirin surəti iffətin ən yüksək mərtəbəsidir. Bu təmiz iffətin nəticəsidir ki, Şirin özünü Xosrovun Şəhvətindən azad edib onu həqiqi mənada sevməsinə nail olur.

Məhinbanunun Şirinə verdiyi nəsihət tam iffətlə doludur. O, şaha baş əyməməyi, tez şirin sözlərə inanmamağı və şəhvət hesabına iffəti itirməməyi qardaşı qızı Şirinə tövsiyə edərək deyir:

«Gər u mah əst, ma afitabim,
Gər u Keyxosrov əst, ma Əfrasiyabim».
O, aydırsa, biz də günəşik,
O, Keyxosrovdursa, biz də Əfrasiyabıq.

Şirinin öz növbəsində Məhinbanunun nəsihətlərinə qulaq asması onun özünün iffətinin qorunmasına və şəhvətinə qalib gəlməsinə səbəb oldu.

Nizami iffətdən bəhs edərkən aşağıdakıları nəzərdə tutmuşdur:

Allahdan qorxma, pəhrizkarlıq, şərm və həya, səbr və etiqad.

Nizami sonda belə nəticəyə gəlir ki, şəhvət lazımdır, ona görə ki, bu, nəslin davamıdır. Ancaq yaxşı olar ki, bu iş savab və halal yolla həyata keçirilsin. Zinadan əmələ gəlmişlərin işindən yaxşı bir şey gözləmək mümkün deyil.

***Qənaət***

Xacə Nəsir Tusi deyir ki, qənaət insanın nəfsinin bütöv olması və sabahını nəzərə almasıdır. İnsan, heyvan deyil ki, elə əlinə keçəni dərhal yeyə.

Nizami deyib ki, heyvanlar yaşamaq üçün əllərinə keçəni yeyib onunla da qane olurlar.

İnsan isə şüuru hesabına əlinə nə keçsə toplayır, sabahı düşünür. Əlindəkindən bir qədəri gedəndə naləsi asimana çıxır.

Həyatda qane olmaq asudəçiliyin rəmzidir. İnsanın az yaşamasını nəzərə alsaq cüzi nemətlər ona bəsdir. Şairin fikrincə qənaətlə ye ki, həmişə yeyə biləsən, başqalarını da yedizdirə biləsən. İsrafçılıq insanların müflisləşdirə bilər. Nizami bütün əsərlərində bu məsələyə toxunmuş və dönə-dönə bundan bəhs etmişdir.

«İskəndərnamə» əsərində Nizami bu məsələni çox qabarıq bir şəkildə göstərməyə nail olur. Mütəfəkkir həkimin fikrincə insan yaşamaq üçün yeməlidir, lakin tamahını saxlamağı da bacarmalıdır. Bir halda ki, dünya malı dünyada qalır.

Nüşabənin şam yeməyi vaxtı iskəndərin qarşısına boşqabda ləl-cəvahirat qoydurması şahı təəccübləndirir.

İskəndər soruşur ki, yemək əvəzinə bu qızıl-gümüş nədir? Nüşabə cavab verir ki, sən ölkələri qarət etmək məqsədiylə gəlirsən, ona görə də mən səni belə qarşılayıram ki, doyasan.

İskəndər bu sözdən çox tutulur və Nüşabəyə öz dost əlini uzadır. Əsərin sonunda hətta, o dostluğun nəticəsi kimi Azərbaycana hücum edən rusları İskəndər Azərbaycan-dan qovur və Nüşabəni əsirlikdən azad edir.

Nizaminin fəlsəfəsinə görə ağlın da hamısını birdən işlətmək olmaz. Ona da qənaət et ki, sənin bərk ayaqda köməyinə gəlsin.

***2. Qoçaqlıq.***

Qoçaqlıq-cəldlik fəziləti ilə bağlı olub şücaət deməkdir. Nizami əsərlərində bu mövzuya toxunub, onu göstərmiş və tənbəlliyin əleyhinə çıxmışdır.

«Sirlər xəzinəsi» dastanında yaşlı kişinin kərpic kəsməsi, Fərhadın «Xosrov və Şirin» poemasında dağı təkbaşına çapması, «Leyli və Məcnun» əsərində Nofəlin qoçaqlığı, «Yeddi gözəl» də Bəhramın at çapma, qılınc tutma, ov ovlama qoçaqlığı və «İskəndərnamə» dastanın da İskəndərin şücaətləri söylədiklərimizə bariz nümunədir.

***Başqa fəzilətlər***

1. ***Yaşamağa sevinmək.*** Nizami bir günün yaşamağını yüz ilin ölülüyündən üstün tutur. Nizamiyə görə dünya dilxoşluq üçün yaradılmışdır. Sadəcə olaraq ondan yerində və doğru dürüst istifadə olunmalıdır.
2. ***İş və çalışqanlıq.***

Bəşər övladı öz işi və yaratdığı yaxşı nə varsa fəxr etməlidir. İş isə ancaq çalışmanın nəticəsində öz bəhrəsini verir. İş insanın cövhəridir. Nizamiyə görə iş və çalışqan insanın yeri behiştdir. Şair tənbəlliyi pis bir adət kimi tənqid etmişdir. «Yeddi Gözəl» poemasındakı Fitnə surəti iş və çalışqanlığın nə olduğunu Bəhram Gura anladır. Farslarda: «Yaxşı iş görmək, çox iş görməkdəndir» atalar sözü şairdə öz yerini alır.

3. ***Niyyət və görmə.***

Nizami şifahi xalq ədəbiyyatından bəhrələndiyi üçün «Niyyətin hara, mənzilin də ora», «Zəhmət çəksən, bəhrəsini görərsən» kimi ifadələri əsas götürərək bu fikirləri öz əsərlərində təsdiqləməyə çalışmışdır. Nizamiyə görə niyyətin hamı üçün yaxşı olmalıdır ki, nəhayətdə sənin özünə də xoş niyyət qismət olsun. Bunları «Yeddi Gözəl» əsərindəki qadınların söylədikləri nağıllardan duyuruq. Bunları yada salmaqla şairin əqidəsi aydın olur ki, hər gördüyünə yaxşı yanaş, niyyətini xoş et ki, dünya və allah səndən razı qalsın. Nizaminin dünyagörmüş insanlarla oturub-durması və onlardan öyrənməsi gələcək işinə böyük təkan vermişdir.

***Eşq***

Bəşəriyyətin ən ali və ülvi hisslərinin ifadəsi eşqdir. Bunu Nizamidən üstün heç kəs söyləyə bilməmişdir.

Eşqdir mehrabı uca göylərin,
Eşqsiz ey dünya nədir dəyərin?
Eşqsiz olsaydı xilqətin canı,
Dirilik sarmazdı ulu cahanı. (71-245)

Şirinin Xosrova, Fərhadın Şirinə, Leylinin Məcnuna və Məcnunun Leyliyə eşqi pak, saf, təmiz və ülvi hisslərlə dolu eşqi hamıya şamil olmalıdır. Eşq də əxlaqın içərisindədir. Eşq ilə yaşayanların həyatı uzun, özləri sağlam, mənəviyyatları pak olur.

Eşq elə bir sonsuzluqdur ki, ta insan özünü tanıyıb dərk edənə qədər danışılıb, hələ də davam edir, nə qədər dünya şairləri eşq və məhəbbətdən yazmışlarsa da, yenə bitmək, tükənmək bilmir. Eşq və aşıq Nizami əsərlərində çox canlı bir şəkildə ifadə olunmuşdur. Nizami eşqdən böyük ruh yüksəkliyi ilə yazsa da, onu əxlaqın tərkib hissəsi kimi görmüşdür. Elə əxlaqsız adamdan pak eşq gözləməyin özü də cahillikdir.

Şeyx və həkimin qayəsi doğru-dürüstlükdür. Özü də etiraf edir ki, Nizami ancaq düzlükdən ucalmışdır. Eşqə gəldikdə isə insanlar ona giriftar ola biləndən sonra başa düşə bilərlər. Şairə görə eşqsiz insan quru bir ağacdır. Onun yenidən göyərməsi mümkün deyil. Nizami bu sözləri ancaq şeir, ədəbiyyat xatirinə deməmiş, öz qadını Afaqı ülvi bir məhəbbətlə sevdiyini etiraf etmişdir.

## VI FƏSİL

### *Mənzil tədbiri*

İnsan yaşayışının əsas meyarlarından biri mənzildir. Çünki, ata-ana, övlad, ağa və nökər münasibətləri öncə mənzildə öz təşəkkülünü tapmalıdır. Adlarını sadaladığımız insanlar mənzildə şərikdirlər.

Nizami mənzil daxilindəki işləri aşağıdakı kimi təsəvvür etmişdir:

***1. Övlad tərbiyəsi.***

Yaxşı nəsihət seçmək övlad üçün ən gözəl addır. Uşaq üçün doğru nəsihət yolu onun şəxsiyyətinin düzgün formalaşmasına gətirib çıxarır. Nizaminin öz oğlu Məhəmmədə nəsihəti ata-oğul münasibətlərinin neçə olmasını göstərir. Nizaminin

Məhəmmədə verdiyi 7 yaşındakı nəsihət, 14 yaşındakı öyüdündən fərqlənir. Çünki, o, hər yaş xüsusiyyətinin özünə görə nəsihəti olduğunu dərk etmişdir.

Nizamiyə görə valideyn nə qədər elmli, bilikli, savadlı adam olsa da onun övladına verdiyi nəsihətin hesabına qiymətini almalıdır. Övlad da öz növbəsində valideynin adını yüksəltməlidir. Əsərlərində övlad-valideyn münasibətləri mühüm yer tutan şairin əxlaq tərbiyəsi önəmli olaraq qalır. Bu üzdən də Nizami övlad tərbiyəsinin əsasını belə təsvir edir:

Allahdan qorxma, xalqla ədəblə davranma, özünü tanıma, elm əxz etmə, dost seçiminə diqqət və həmsöhbət, ayıq olmaq, dünya işlərinə maraq, dünyanı dərk etmə, nikbinlik, peşə seçimi və mərifət, ağılla yaşayıb seçdiyin peşəni sevmək.

Uşaq elə bilər ki, onun atasından güclüsü yoxdur. Böyüyəndə də bunu desə, onda həqiqətən atasını kəsb etmişdir.

Nizami insan yüksəlişini var-dövlət, zorda görmür, ancaq elmdə təsəvvür edir.

Buna görə də Nizami öz dastanlarında Qeys, Bəhram, Xosrov və İskəndəri ağıl və elmlə məşğul olmağa çağırır. Lakin zamanında müsəlmanların hamısı mənzilində bundan istifadə edə bilməmişlər. Demək, bir Nizaminin təsiri bütün Yaxın və Orta Şərqə, Avropaya yayılaraq qiymətləndirilmişdir. Nizami tərbiyəni təlimlə bir yerdə zikr etmişdir. Elmsiz adamı alaq otuna bənzətmişdir. Özünün hərtərəfli elm alması, yazılarını cilalamış, şeriyyatına xüsusi yaraşıq vermişdir.

***2. Ər-arvad.***

Bu sahədə Nizami çox yazmamışdır. Hərçənd ki, onun qadınlara münasibəti çox yüksək olmuşdur. Şair qadını evin aparıcı qüvvəsi, övladların ümdə tərbiyəçisi və cəmiyyətin yarısı hesab etmişdir. Lakin ər-arvad münasibətlərində ara-sıra bəhs edən Nizami bu münasibətlərdə səmimi olmağın və bunun övlad tərbiyəsinə böyük təsiri olduğunu vurğulamışdır. Əsərlərinin birində insan özünə cütlük seçəndə özünə münasib tay tapmağı tövsiyə etmişdir. Lakin Nizami əsərlərindən məlum olur ki, o, qadına gözəl münasibət bəsləyir, yeri gəldikdə kişiləri onların vasitəsilə ağıllandırır. Ancaq zəhmətkeş kişini ailə başçısı kimi alqışlayır. Doğru danışmaq və vəfadarlığın hər iki

cinsə aid olduğunu göstərir. Ailə təkqanadlı quş deyil, o, ancaq iki qanadı ilə zəngin səmalara qalxa bilər.

## V FƏSİL

### *Şəhər mədəniyyəti və siyasət*

Müxtəlif ölkələrdə və şəhərlərdə insanların təbəqələşməsi, cəmiyyətdə şəhər mədəniyyəti və siyasətinə gətirib çıxarır. Burada hikmət, elm, sənətkarlıq inkişaf etməyə başlayır.

Qədim filosoflar şəhər mədəniyyəti barədə öz mülahizələrini bildirmişlər. Nizami də bu haqda öz fikirlərini bəyan etmişdir.

Qədim yunan filosoflarından Sokrat, Əflətun və Ərəstu ölkə və şəhərlər barədə öz fikirlərini demişlər. Əldə olunan məlumatlarda Sokrat dediklərindən əlimizdə əsas yoxdur. Lakin Əflatunun «Cümhuriyyət» və Ərəstunun «Siyasət» kitablarından məlum olur ki, şəhər həyatı inkişaf etdikcə o dövr siyasəti də özünü göstərir.

İran qabaqcıl fikir adamları da «İranda hökumət», «ölkəşünaslıq» kimi fikirləri izhar etmişlər. Əflatun «Cümhuriyyət» kitabını 5 hissəyə bölüb aşağıdakı kimi hissələrə ayırmışdır:

1. Ədalət və onun mahiyyəti bəhsi.
2. və 3. Dövlət və hökumətin xüsusiyyətləri, hakim təbəqə və ədalətli hökm.

4 və 5. Hökumət işlərinin gedişi və onların tərəqqisi.

Əflatunun ideal hökuməti aristokrat, elm və bilikli olmalıdır.

Amma Ərəstunun «Siyasət» əsərində hökuməti bilən adam idarə etməlidir.

İbn Sina isə demokratik əsaslarla padşahlı üsul-idarəsinə üstünlük verir.

Maraqlıdır ki, Nizami həm yunan, həm də şərq siyasətinin sintezi əsasında dövləti görmək istəyir. Onun üçün ədalət birinci yerdə durmalıdır.

Nizami insan yaşayışını cəmiyyətdən ayrı təsəvvür etmir. Onun fikrincə cəmiyyətin quruluşu hər bir fərdə öz təsirini göstərir. Nizami əsərlərindəki hekayə, təmsil, kinayə, əfsanə və eşqdə ədaləti əsas tutur. Nizami, ölkə və hökumətlərin idarəsində ədalətə üstünlük verir. Dünyanı ağıl-kamalla, ədalətli siyasətlə idarə etməyin mümkün olduğunu

vurğulayır. Nizami, Ərəstu, Əflatun, Farabi, Xacə Nəsir kimi filosofların dedikləri fəlsəfəyə bələd insan kimi bu vasitənin lazımlığını vacib saymışdır.

Nizaminin əqidəsinə görə şah özü ədalətli olmalıdır ki, rəiyyət də ona ədalətli yanaşsın. «Yeddi gözəl» dastanında Nizami Bəhram şahın surətiylə açıq göstərir ki, şahın başı dövlət işləriylə deyil, eyş-işrətə qarışırsa, onda bundan istifadə edən vəzir-vəkil hərcmərclikdən öz xeyirləri üçün istifadə edərək, ölkəni tam bərbad hala salarlar. Nizami zülm və zülmkarlıqdan uzaqdır. Şeirlərində zülm və zülmkarlığın ölkəyə mənfi təsirindən söz açmışdır. O, hər vəchlə nəsihət yolu ilə zülmdən aralı olmağı tövsiyə etmişdir.

Yaxşı və pis padşah Nizami əsərlərində əsas mövzu olaraq qalır. Yaxşılarla ölkə abad, firavan; pislərlə məmləkət bərbad, rəzil olduğunu canlı misallarla göstərir.

Nizami ölkədə cəmiyyətin rolunu mühüm sayır. Cəmiyyət çoxluq təşkil etdiyi üçün lazım gəldikdə hakim qüvvəyə öz təsirini göstərmək iqtidarına malikdir. Bu sahədə şəhər cəmiyyəti daha aktiv olmalıdır, çünki, şəhərin inkişafı digər kənd və bölgələrə nisbətən daha geniş olur.

Şairə görə mənəvi dəyərlərin şeirin də təsiri cəmiyyət üzərində etkisi vardır. Şeir insanlara nüfuz etmə qabiliyyətinə malikdir.

Nizami göstərir ki, ədalətli şahın məmləkətində yaşamaq da asan və rahatdır. Ona görə ki, hamı öz işini bilir və onu olduğu kimi yerinə yetirir.

Şəhərlərin inkişafı və onların formalaşmasında hökmdarın və cəmiyyət üzvlərinin rolu danılmazdır.

Cəmiyyəti qadınsız təsəvvür etmək mümkün deyil. İctimaiyyətin inkişafında qadının əhəmiyyətli rolu vardır. Cəmiyyətdə ancaq ağır işlər kişilər tərəfindən görülür, qalan bütün işlər qadının öhdəsinə düşür. Kişi evin sütunu, qadın isə onun dörd divarıdır. Qabusnamədə buna toxunulur; «Kimin ki, qadını düz və iffətlidir, evi və yaşayışı yüksəkdir».

Əxlaqi Nasiri də bu fikirləri təsdiq edərək deyir ki, qadın cəmiyyətin idarə edilməsində və onun inkişafında əsas qüvvədir.

Sözün əsl və həqiqi mənasında Nizami qədər dünya ədəbiyyatında qadına verilən yüksək qiyməti heç kəs verə bilməmişdir. Böyük mütəfəkkir şair elə ilk şeirlərindən başlayaraq ta sonuncu əsəri «İskəndərnamə»yə qədər qadın surətlərini ruh yüksəkliyi ilə tərənnüm etmiş, qadının cəmiyyətdəki rolunu çox qiymətləndirmiş, onu ana və qadın kimi əziz tutmuşdur. Şərq ədəbiyyatında Nizaminin qadın obrazları başqalarına nisbətən daha gözəl, cəsarətli və işgüzardırlar. Elə ilk dastanı «Sirlər xəzinəsi»ndəki Sultan Səncər və dul qoca qadın hekayəsi, «Xosrov və Şirin» dastanındakı Məhin banu və Şirin surəti, «Leyli və Məcnun» poemasındakı Leyli obrazı, «Yeddi gözəl» əsərindəki ağıllı çin qızı surəti və «İskəndərnamə» dastanındakı Nüşabə obrazı deyilənlərə əyani sübutdur.

Nizami, qadınların ancaq ev işləri görüb pərdə arxasında oturmağın tam əleyhinədir. Qadını cəmiyyətdən gizlətmək və onu təcrid etməyin əlehinə olan şair, cəmiyyətin inkişafını qadın vasitəsiylə daha yüksək olacağına inanır. Eyni zamanda qadında ona məxsus incəlik, iffət, analıq, gözəl əxlaq, ağıl olmalıdır. Nizaminin yaratdığı qadın surətləri eyni zamanda hökumət işləri və siyasət sahəsində də çox aktiv insanlardır. Şair öz qadını Afaqı çox sevmiş ona ancaq övladının anası və kəniz kimi deyil, əsl insan kimi yanaşmışdır. Şairin yazdıqları ilə şəxsi əqidəsi tam mütənasib olmuşdur. Fikrimizcə elə Nizamini sevdirən amillərdən də böyük oxucu kütləsinə bu idi.

## SÖZÜN QÜDRƏTİ

Nizami qədər qüdrətli söz deyə bilən ikinci bir şairə rast gəlmək çətin məsələdir. Fars ədəbiyyatında çox qudrətli söz ustadları vardır, lakin Nizami qədər hər sözü yerli yerində demək onlara nəsib olmayıb. İran ədəbiyyatında şeir Nizami vasitəsi ilə yüksək səviyyəyə, mədəni formaya gəlib çıxmışdır. Böyük iftixar hissi ilə deyə bilərik ki, bugün Şərqin şeiriyyatı Nizami kimi dühaların sayəsində dünya poeziyasının ən pik nöqtəsi sayılır. Bu nöqteyi-nəzərdən Nizami əvəzsiz sənətkar olaraq bəşəriyyətin hafizəsində əbədi yaşayacaqdır.

Alim Mənsur Sərvət başqa ədəbiyyatşünaslardan fərqli olaraq Nizaminin türklüyünə daha çox toxunmuşdur. Onun türk Səlcuqlarının xronoloji şəkildə harada yerləşib və dövlət qurduqlarını göstərməsi tarixi baxımından əhəmiyyəti önəmlidir.

Buradan aydın olur ki, səlcuqlar 18 böyük dövlətə çevrilmişdir.

Azərbaycan Atabəyləri bunların içərisində ən qabaqcıllarından biri kimi göstərilir. Nizaminin də belə bir mühitdə yetişməsi təsadüfi deyil.

***DOKTOR KAMİL ƏHMƏDNEJAD***

## *NİZAMİ GƏNCƏVİ ƏSƏRLƏRİNİN TƏHLİLİ*

Nizami əsərləri fars dilinə bələd olanlar arasında çox məşhurdur.

Nizami 536-cı ildə təvəllüd etmiş və 605-ci ildə dünyasını dəyişmişdir.

Nizami 570-ci ildə «Sirlər xəzinəsi»ni yazmış, 576-cı ildə «Xosrov və Şirin»i tamamlamışdı. Firdovsi Nizamidən əvvəl Xosrovdan söhbət açsa da, Fərhad surəti Nizami vasitəsiylə daha qabarıq verilmişdir. «Xosrov və Şirin» əsərində Nizami «Sirlər Xəzinəsi»ndən uzaqlaşsa da, ancaq hikmət və nəsihətlər qalmışlar. «Leyli və Məcnun»dakı eşq isə əflatuni dərəcəsinə çatır. Bu məhəbbətin «Xosrov və Şirin» eşqiylə böyük fərqi vardır.

Nizami ilk şairdir ki, «Leyli və Məcnun» dastanını nəzmə çəkmişdir.

«Yeddi gözəl» əsəri ədəbiyyatda tamam yeni bir işin başlanğıcı hesab olunur. Beşinci Sasani hökmdarı Bəhrami Gurdan danışan bu əsər Nizaminin fəlsəfi biliyi və astronomiyanı nə qədər dərin öyrənməsi məsələsini tam açır.

Əsərin yeddi gözələ aid olan hər bir hissəsində Nizami dünya görüşü, xalqların adət-ənənələri və rənglərin proporsionallığı özünü tam şəkildə açıqlaması ilə göstərir.

Vəzir Rast Rövşənin mənfi siması layiqincə öz əksini tapır. Əgər «Sirlər xəzinəsi»ndə Nizami qısa hekayət, öyüd və nəsihətlərlə kifayətlənirdisə, «Xosrov və Şirin» əsərində Xosrov Pərvizin həyat tərzi ustalıqla verilir. «Yeddi gözəl»də Bəhram şahın bütün həyat fəaliyyəti öz əksini tapır.

«İskəndərnamə» əsəri vasitəsilə o dövrün ağıl dünyasına baş vurmuş, Sokrat, Əflatun, Ərəstun kimi dünya şöhrətli alimlərdən söz açmışdır.

«İskəndərnamə» Nizami yaradıcılığının bir hikmət xəzinəsidir.

### *Nizami əsri*

VI əsrin ikinci yarısında Azərbaycanda (Arran və Azərbaycan) çox rövnəq şairlər mövcud idi. Ancaq bu şairlərin öz mətləbləri yox idi. Onlar ancaq saray şairləri olaraq hökmdarları vəsf edir, ya da bir-birləri ilə yarışa girirdilər.

Zindanlara yol tanımayan bu şairlər müəllim-şagird kimi bir-birini tərənnüm edirlər. Lakin bəzən biri digərinin yazdığı şeirlə ölümünə səbəb olurdu.

Bu dövrdə Səlcuq qələmindən çıxmış Nizami meydana gəlmişdi ki, o, başqalarından fərqlənirdi. Bu, elə bir dövr idi ki, səlcuqların hakimiyyəti sona çatmış və onların hökumətləri kiçik məhəlli bölgələrə parçalanmışdı. Bu səlcuqlar türkmənlərin gəz (əgəz) tayfalarından olub Seyhun və Ceyhun çaylarının arasında Xəzər və Aral sahillərində çadırlarda həyat sürürdülər. Onların məşğuliyyəti heyvandarlıq idi ki, bu da onların yaylaqdan qışlağa getməsinə səbəb olurdu. Mahmud Qəznəvi dövründə onları xərac verməyə cəlb etmişdilər. Mahmudun ölümündən sonra onun oğlanları Məhəmməd və məsud bir-biriylə çəkişməyə başladılar, nəticədə Məsud məğlub oldu. Abbasi xəlifəsinin Xorasandakı təxtini ələ keçirib, Toğrul Mikayıl oğlunun rəhbərliyi ilə ta Bağdada qədər irəlilədilər, onun canişini Alp Arslan Səlcuqların inkişafında böyük rol oynayır.

Bu dövrdə Azərbaycan Atabəyləri hicri-qəməri 531-ci ildə Səmsəddin Eldəgizin rəhbərliyi ilə qüdrətli bir dövlət yaratmışlar. Onun oğlu Cahan Pəhləvan İraqdan Azərbaycana qədər hicri-qəməri 568-581 hökumət yaratdıqdan sonra qardaşı Qızıl Arslan onun yerini tutub hicri-qəməri 581-587-yə qədər bu səltənətə rəhbərlik etmişdir. Bundan sonra hakimiyyət Cahan Pəhləvanın oğlu Nüsrəddin Əbubəkr, nəhayət o biri oğlu Müzəffərəddin Özbək tərəfinə keçib davam edir.

Azərbaycan Atabəyləri şairlərə xüsusi maraq göstərirdilər və o zaman tanınmış şairləri Zəhir Farabi, Müciröddin Beyləqani, Xaqani Şirvani onların məclislərində iştirak etmişlər. Nizami Gəncəvi də «Xosrov və Şirin», «İskəndərnamə» əsərlərini Atabəylər sarayında onlara hədiyyə etmişdir. Nizami dövründə Şirvanşah Səlcuqilərinin hakimiyyəti zamanı Xaqan Əkbər, Mənuçehr və onun oğlu Asitan şeir, sənət vurğunu idilər. Onlar Əbu Üla Gəncəvi, Xaqani, Fələki kimi şairlərə qiymət verirdilər. Lakin Nizami bunların fövqündə dayandığı üçün məhz Asitan İbn Mənuçehr «Leyli və Məcnun»u yazmağı ondan xahiş etmiş, Nizami də bu xahişə əməl etmişdir. Onu qeyd etmək yerinə düşər ki, əsərin kim tərəfindən və necə sifariş edilməsindən asılı olmayaraq, misilsiz şairlik istedadına malik olan Nizami ədəbiyyat aləminə gözəl bir əsər bəxş etmişdir. Bu rəvayət hekayə şəklində Ərəbistandan bütün şərqə keçsə də, Nizami şeriyyatı bunu daha da rövnəqləndirmişdir.

Nizaminin əsərləri qonşuları Gürcüstan və Ermənistandan daha çox İranı maraqlandırmışdır. Çünki, bu ölkə şeirə daha çox meyilli idi və şeirin mərkəzi hesab olunurdu. Digər tərəfdən Nizaminin farsca yazması bunu daha real edirdi.

Səlcuqilərin dövründə ordu, elm, məktəb, əkinçilik, şeir, sənət dövlət nəzarətində idi.

Azərbaycanda bu dövrdə islamı qəbul etmiş olsalar da sufilik çox yayılmışdır. Nizamini tam sufii saymaq olmasa da, onu sufilikdən kənar da tutmaq olmaz. Gəncə o zaman böyük şəhər olaraq inkişafda idi. Nizami belə bir mühitdə dünyaya göz açmış, əsərlərində bu mühitin siyasi, ictimai və iqtisadi mənzərəsini əks etdirmişdir. Lakin Nizami nə qədər dəvət alsa da, o, saraya gedib «saray şairi» olmaqdan imtina edib sərbəst olmağa üstünlük vermişdir. O, saraya getməyərək qeylü-qaldan azad olmuş və istədikldərini daha dəqiq təsvir etmək imkanı olmuşdur. Bunu Ripka «İran ədəbiyyatı tarixi» əsərində və Bertels «Böyük Azərbaycan şairi» məqaləsində açıq-aydın göstərmişdir. Nəticə etibariylə belə fikrə gəlmək olar ki, Nizami ideyalarını heç bir təsir almadan həyata keçirməyin üstün olduğunu nəzərdə tutmuşdur.

## *Nİzamiylə tanışlıq*

Nizaminin həyat və yaşayışının dəqiq şəhrini vermək çətindir, ona görə ki, bu barədə tam məlumat yoxdur.

Əlbəttə, şair öz əsərlərinin bəzilərində buna toxunsa da, hələ bu da ardıcıl şəkildə deyil. Onun əsl adının İlyas, təxəllüsü Nizami, atasının adı Yusif, anası isə kürd tayfalarından olduğunu bütün təzkirəçilər qeyd etmişlər. Nizaminin şairlikdən başqa parçaçılıq, tikiş işləri və yaxud o zaman Gəncədə ipəkçiliyin inkişafı ilə əlaqədar bu sənətlərin birini bilməyi ehtimal olunur. Səid Nəfisi və Bertels bu barədə «Leyli və Məcnun» əsərinin 29-cu səhifəsindəki yazıya əsasən bu fikri yürüdürlər. Ancaq orada da konkret bir şey söyləmək çətindir.

Nizaminin özünün əsərlərindəki deyilənlərdən məlum olur ki, Atasının adı Yusif, anası kurd qızı, qadını Afaq, oğlu Məhəmməd yeganə övladı və dayısı Xacə Ömərdir. Məhəmməddən başqa övladı olmasına işarə edilməmişdir. Məhəmməd də Nizaminin «Xosrov və Şirin», «Leyli və Məcnun» və «Yeddi gözəl» poemalarını oxumuş və şair oğluna nəsihət də yazmışdır.

## *Nizaminin anadan olduğu yer*

Nizaminin doğulduğu yer Gəncə və ömürboyu yaşadığı yer də elə oradır. Bir dəfə Qızıl Arslanın dəvətiylə Gəncədən 30 kilometrlik bir məsafəyə qısa səyahətə çıxmışdır. Heç yerdə Nizaminin yaşayış və ölümü barədə müfəssəl məlumat verilmir. 534-cü il Gəncə zəlzələsi haqqında Nizami məlumatından belə anlaşılır ki, o, zəlzələdən özündən böyüklərdən eşitmişdir. Özü isə zəlzələdən 2 il sonra dünyaya gəlmişdir şairin özünün işarə etdiyi kimi «Xosrov və Şirin»i yazanda artıq onun 40 yaşı var imiş. Aydındır ki, «Xosrov və Şirin» hicri-qəməri tarixiylə 576-cı ildə yazılmışdır. Bununla Nizaminin təvəllüd tarixini bilmək olar. «İqbalnamə» beytlərinin sonunda da şairin yaş əndazəsinə toxunulur. Buradandır ki, onun 63 il 6 ay yaşadığı məlum olur. Nəhayət «İskəndarnamə» əsərini bitirdikdən sonra 599-cu ildə vəfat etmişdir ki, bu da qəbul olunmuşdur.

### *Nizaminin söz yaradıcılığı*

Nizami şerinin səbkisi Xorasan və İraq şeir formaları arasındadır. Əgər fars şeir dilini Xorasan, İraq, Hind məktəbi ilə müqayisə etsək onda belə qənaətə gələrik ki, Nizami poeziyası İraq şeir nümunələrinin bariz oxşarıdır. Onun məsnəvi, ürəyəyatan, düzülüş qaydası, xeyli ərəb kəlmələrinin işlədilməsi buna dəlalət edir. Bununla belə şeirdəki fars üslubu, Nizaminin öz dəsti-xətti olması, hətta Qərb təmayülü və Yunan forması da özünü göstərir. Sokratdan əvvəlki fəlsəfə və islam dəyərləri Nizami yaradıcılığında özünü biruzə verir. Digər tərəfdən elmi istilahlar, xüsusiylə astronomiyaya bələdlik onun əsərlərində özünü tam göstərir. Nizaminin saraydan uzaq olmasına gətirib çıxardır ki, bu da şairin yaradıcılığına müsbət təsirsiz ötüşməmişdir. Bu da onun şahlara mədh yazmaqdansa, əxlaq, hikmət və cəmiyyətin real həyatından yazmağa imkan vermişdir. Nizami şeriyyatının gücü ondadır ki, o, acı, mənfi işləri göstərsə də, əsas etibariylə işıqlığa can atan sənətkar kimi özünü göstərmişdir. Əksər vaxt da xeyrin şər üzərindəki qələbəsi, haqqın nahaqqa qalibiyyətini deməklə öz ideyalarını tərənnüm etmişdir. Bunları söyləməyə hünər tapmışdır. Onun ilk əsəri «Sİrlər xəzinəsi», sonuncu dastan «İskəndərnamə»dən fərqlənsə də, öz aralarında bir həmahənglik təşkil edir. Nizami cavanlıqdan bir əxlaqı götürüb sona qədər də onunla gedir. Bədii şeir təsvirinə gəlincə Nizami qədər onu ilahi bir qüvvəyə çevirə biləcək bir adam, və yaxud ikinci bir  şairə rast gəlmək müşkül məsələdir.

### *Nizaminin əsərləri*

Nizami əsərlərinə vaqif olduqda ilk növbədə onun istifadə etdiyi məxəzlərdən qədim tarix, islam, İskəndər nəzəri çəkir. Digər tərəfdən mütailəsi və şəxsi çıxardığı fikrilər köməklik edir.

### *“Sirlər xəzinəsi”*

Nizaminin ilk mühüm və çətin əsəri Sirlər xəzinəsidir. Bu çətinlik şairin yaşadığı keşməkeşli dövrlə birbaşa əlaqəlidir. Digər tərəfdən onun gənclik illəri və özünə ad-san

qazanması ilə bağlıdır. Nizaminin bu kiçik və qısa məsnəvisi Allahın, peyğəmbərlərin, Fəxrəddin Bəhram şahın, kitabın yazılma səbəbi, sözün fəziləti kimi mövzuları əhatə etməklə 20 hissədən ibarətdir. Bəzi təzkirəçilərin fikrincə 21. Hətta 22 hekayədən ibarət olduğu iddia edilir. Ancaq qədim nüsxələrdə 20 hissədən ibarətdir ki, Əmir Xosrov Dəhləvi də ondan faydalanaraq 20 məqaləlik bir sirlər xəzinəsini nəzirə yazmışdır. Görünür 21-ci məqalə sonradan artırılmışdır.

Nizami özü əsərin başlanğıcında belə söyləmişdir:

Qəbul etdiyimi ar bilməmişəm,
Ürəyim deyəni mən söyləmişəm.

Düşünməyə əsas verir ki, Nizami "Sirlər xəzinəsi"ni yazarkən Sənainin "Hədiqət əlhəqiqi" əsərindən faydalanmışdır. Sənai o dövrdə çox şöhrət qazanmışdı və bu üzdən Xaqani və Nizami kimi şairlər ondan bəhrələnmişlər. Ancaq qeyd etmək yerinə düşər ki, Nizaminin elmi bilikləri özünün sələf və xələflərini geridə qoymuş yeni bir şeir aləmi yaratmışdır. "Sirlər xəzinəsi" 2400 beytdən ibarətdir, səri bəhrində yazılmışdır. Böyük alim Səid Nəfisi Nizami yaradıcılğından bəhs edərkən səri bəhrindən Rudəki və Nasir Xosrov da istifadə etdiyini göstərmişdir.

Nizami "Sirlər xəzinəsi" dastanını Fəxrəddin Bəhram şaha Ərzincan sahibinə həsr etmişdir. Əsərin başlanğıcında onun adını çəkmişdir. Şair ədalətin zəfər çaldığına, zülmün dəf olmasına çalışıb ədalətli şah fikrini bəyan etmişdir. Nizami "Sirlər xəzinəsi"ni yazmaqla böyük bir ədəbi məktəbin başlanğıcını qoydu, o, eyni zamanda əxlaq, hikmət və elmin təcəssümünü əks etdirdi. "Sirlər xəzinəsi" didaktik baxımdan çox dəyərli bir əsər olaraq öz təravətini itirməyəcək.

### *Eşq kitabı*

Nizami əxlaqla dolu "Sirlər xəzinəsi"ndən sonra bir eşq dastanı yazmaq fikrinə düşür. Şairə görə dünyanı eşq, mehr, məhəbbət və sevgisiz təsəvvür etmək olmaz. Bu eşq əsəri Sənainin "Hədiqətəl Həqiqe" və Fəxrəddin Gürganinin "Vis və Ramin" əsərlərindən tamamiylə fərqlənirdi. "Xosrov və Şirin" poemasında da şair ənənəsinə sadiq qalaraq əxlaq, mənəviyyat məsələlərini unutmamış, yeri gəldikdə onları bəzi

şəkildə göstərmişdir. Bu eşq məsnəvisinin yazılmasında onun Qıpçaq qızı həyat yoldaşı Afaqın rolu az olmamışdır. Nizami Afaqla yaşadığı illəri özünün ən xoşbəxt illəri sayır və "Xosrov və Şirin"i yazdıqda öz Afaqını gözünün önünə gətirdiyini vurğulayır. Nizamidən əvvəl yazılan eşq məsnəviləriylə əlbəttə, şair tanış idi, lakin o elə bir məhəbbət dastanı yaratmışdır ki, o biriləri kölgədə qoymuşdur.

Nizaminin hər iki əsəri Səlcuq qələmindən çıxmış və Cahan Pəhləvanla Qızıl Arslana ithaf olunmuşdur. Ədəbi nöqteyi-nəzərdən də "Vis və Ramin", "Xosrov və Şirin"ə çatmır.

"Xosrov və Şirin" dastanı əvvəldən axıra qədər sasani tarixindən bəhs edir və İran şahlarından olan Xosrov Pərvizin həyatını tam əks etdirir. Xosrovun Hörmüzün oğlu olduğu və şah nəslinin davamçısı kimi bütün kitablarda göstərilmişdir. Rum türkü olan Şirin də Azərbaycan hökmdarıdır. Bu tarixi şəxslərdən başqa digər adamlar da əsərdə iştirak edirlər, onlar Nizaminin öz təxəyyülünün məhsuludur. Həqiqətən Şirin Fərhada vurulur, ancaq o, Xosrovu sevir. Xosrovun isə Məryəm və Şəkərlə evlənməsi tarixdə yoxdur. Bunlar Nizaminin öz düşüncəsi kimi qəbul edilir. Bertelsin fikrincə Nizami əfsanəvi gürcü gözəli Tamaradan xəbərdar olmuş, bəzi cizgiləri Şirin üzərinə gətirməklə bu Qafqaz gözəlini vəsf etmişdir.

Nizami "Xosrov və Şirin" dastanını 576-cı ildə Azərbaycan Atabəylərindən Məhəmməd Cahan Pəhləvana həsr edib təhvil vermişdir. Ancaq 581-ci ildə Cahan Pəhləvanın ölümündən sonra onun qardaşı Qızıl Arslan əsəri əlinə keçirir. Lakin necə olsa da, "Xosrov və Şirin" bir qiymərli əsər kimi həm şahlar tərəfindən, həm də xalq içərisində böyük rəğbətlə qarşılanır.

### *Nakam eşq*

Hicri tarixiylə beşinci əsrin ortalarında Nasir Xosrovun şərəfnaməsində göstərilir ki, Hecaz qəbiləsinin yaşadığı uçuq qalanın divarları Leyligilin oturaq məntəqəsi idi. "Məcnun və Leyli" ərəb şifahi ədəbiyyatında nəsrlə mövcud idi. Asitan İbn Mənuçehr isə Nizaminin "Xosrov və Şirin" dastanı ilə tanış olduğu üçün şairdən "Leyli və

Məcnun"u nəzmə çəkməyi xahiş etmişdir. Nizaminin oğlu Məhəmməd də atasından bu əsərin yenidən yazılmasını rica etmişdir.

Nizami ilk şairdir ki, bu əsəri nəzmə çəkmiş və bundan sonra bütün "Leyli və Məcnun" yazanlara yol açmışdır. Əbuəlfərəc İsfahani də bu əsərə müraciət etmiş və bəzi məxəzləri göstərmişdir. Bu səpkidə yazanların əsərlərinə qəti rəy vermək doğru olmazdı, hər kəs müəyyən zəhmət çəkmiş, ancaq demək lazımdır ki, Nizami həm bu dastanı nəzmə çəkən ustad və şeriyyət baxımından əvəzsiz şair kimi mislsizdir.

Ərəb mənbələrindən götürülən faktlar bizə əsas verir ki, bu eşq mövcud imiş. Bu dastan şairlərin dilində hicri IX əsrə qədər davam etdirilmişdir. "Leyli və Məcnun" dastanı ərəb, hind və fars ədəbiyyatında geniş vüsət almışdır və görünən budur ki, Nizami bunlardan xəbərdar idi. Lakin doğurdan da Nizaminin bunlardan fərqli olaraq öz dəsti-xətti mövcuddur. Əflatuni eşq burada özünü göstərir. Ərəb təbiri ilə nakam eşq anlamına gəlir. Aşiq və məşuqun bir-birlərinə qovuşmasının səbəbi o ictimai quruluşla əlaqədardır.

Nizami təsiri bir şərqlə bitmir o, özündən sonra yazıb-yaradan qərb dramaturqu Şekspirə belə təsir etmişdir. Nizami Xaqaninin "Töhfeye-əleraqeyn" vəzniylə "Leyli və Məcnun" məsnəvisini yazmışdır. Lakin Nizami əxlaqi və ictimai məsələlərə toxunmuş, onları qabartmışdır.

Beləliklə Şivanşah hökmdarı Axistanın xahişi ilə 400 beytlik əsəri 14 aydan da az bir müddətdə Nizami tamamlamışdır.

Hazırda 50-dən artıq şair farsca və türkcə "Leyli və Məcnun" dastanına nəzirə yazmışlar ki artıq onlar tanınırlar.

### *"Yeddi gözəl"*

Nizaminin "Yeddi gözəl" mənzuməsi tarixi mənbə, əfsanə və şairin öz bilik və təfəkkürü əsasında yazılmışdır.

Hadisələr Sasani hökmdarı Bəhrami Gurdan (beşinci Bəhram) bəhs edir. Bu haqda Firdovsi özünün məşhur "Şahnamə" əsərinda yazmışdır. Lakin Nizami bu mövzuya

müraciət etməklə yeni bir əsərin yaranmasına səbəb olmuşdur. Onun Küpr Arslana dua və nəsihəti göstərir ki, bu poemanı Küpr Arslanın xahişi ilə yazılmışdır.

Nizami sözün hikməti, oğluna nəsihətdən sonra dastanı Bəhramla belə başlayır. Memar Simnarın Bəhrama müəzzəm bir saray tikməsini tərənnüm etdirir. Əsərdə göstərilir ki, birinci Yəzdgerd Bəhramın atasının ölümündən sonra taxt-taca sahib olmaq üçün Bəhrama ciddi cəhd göstərir. Lakin camaat onun da atası kimi zülümkar olacağından qorxub istəmirlər. Ancaq Bəhram öz gücü vasitəsiylə buna layiq olur. Bu hadisənin böyük Firdovsi tərəfindən qələmə alındığı da tarixdə həqiqətdir. Oxşarlıq da ondadır ki, Firdovsidə Bəhramın kənizi Azadə, Nizamidə Fitnə adlandırılmışdır.

Fitnə ilə Bəhramın mübahisəsi şairin öz amalından doğan fikirdir ki, adət etmək vərdiş yaradır.

Dövlətşahın yazdığına görə Nizaminin xəmsəsi 20 min beytdən ibarət olmuşdur. Əldə olunan dəlillər də bunu sübut edir. Nizaminin özündən sonra gələn şairlərə təsirindən danışarkən, onu qeyd edək ki, uzun müddət bu təsir özünü göstərmişdir. Azərbaycan və Tacikistan ədəbiyyatında əsrlərlə davam etmişdir. 1953-cü ildə Mirzo Tursunzadə, 1940-cı ildə Səməd Vurğun, 1949-cu ildə Nazim hikmət yaradıcılığında öz əksini tapmışdır. Xosrov Dəhləvi 2 il Nizami xəmsəsindən bəhrələnərək ömrünü sərf etmişdir. Nizami 5 dastanına 30 il sərf etmişdir.

### *“İskəndərnamə”*

Iki böyük hissədən ibarət olan Nizaminin bu sonuncu əsəri “Şərəfnamə” və “İqbalnamə” adlanır.

### *“Şərəfnamə”*

Nizami ömrünün axırıncı illərini “İskəndərnamə”yə sərf etmişdir. Bu fateh haqqındakı dastan uzun zaman Şərq və Qərbdə müxtəlif xalqların dilində şifahi və yazılı şəkildə mövcud olmuşdur. Lakin Nizami yaradıcılığında bu əfsanə bir əbədilik simvoluna çevrilmişdir. Nizamidən öncə tarix, təvsir, İskəndərnaməyə aid yazılarda və Firdovsi “Şahnamə”sində xeyli deyilmişdir. “Şərəfnamə” də təxminən 6800 beyt vardır.

“İqbalnamə” ikinci hissə olaraq 3500 beyirdən ibarətdir. Burada İskəndərin şəxsi yaşayışı, himmət və peyğəmbərliyindən bəhs edilir. Belə aydın olur ki, Nizami “Şərəfnamə”ni Nüsrəddin Əbubəkr Məhəmməd Cahan Pəhləvanın oğlu və Qızıl Arslanın əmisi oğluna Atabəylər nəslinə ithaf etmişdir. Azərbaycanda Atabəylərin hörməti çox olduğundan Nizami onların xahişini rədd etməmişdir. Şair bu əsər vasitəsiylə bəyan edəcəyi sözləri demiş və özü də etiraf etmişdir ki, onun ən dəyərli əsəri məhz “İskəndərnamə»dir. Nizami iskəndər barədə mövcud olan yəhudi və pəhləvi dilində yalnız məlumatları nəzərdən keçirmiş, öz şairlik istedadı nəticəsində onlara yeni həyat vermişdir.

### *Dastanın başlanğıcı*

Rumda cavan və adlı-sanlı bir şah var idi ki, ona Filqus deyərdilər. Rum və rus onun hökmdarlığı altında idi. Filippin oğlu olan bu şəxs Yunan tarixində və islam tarixlərində mühüm yer tutumuşdur. Yunan, Rum və İslam mənbələrinə əsasən demək olar ki, qərbdən şərqə ta okeanlara qədər böyük ərazini istila etmişdir. Bu rum və yunanlar müştərək idilər. Onların yaşayış tərzi, məzhəbi və əxlaqı çox oxşardır. Bir iranlının vəsiyyətinə görə İskəndər böyük Daranın oğlu, kiçik Daranın isə qardaşı hesab olunur. Nizami isə bu vəsiyyətləri qəbul etmir və İskəndərin Filquis oğlu olduğunu iddia edir. İskəndərin müəllimi isə Ərəstu olduğuna işarə edir. İskəndər də həmişə öz müəlliminə qulaq asmış və ona hörmətlə yanaşmışdır. İskəndərin dünyaya şahlıq etmək arzusunu Ərəstu ona tövsiyə etmişdir.

İskəndərin taxta çıxmasından bir müddət sonra bütün ölkədə ədalət bəqərar oldu. O, ölkəni tutub dağıtmadı. Yalnız özünə tabe etdirib xərac alırdı. İskəndər atasından qüvvətli, tədbirli və dostpərəst idi. Nizami öz fikirlərini «Sirlər xəzinəsi»ndən başlayaraq ədalətli şah prinsipini sona qədər aparmağı qarşısına məqsəd qoyduğundan dünyanı yalnız ədalətlə idarə etməyin mümkünlüyünü vurğulayır.

Zəncilər içərisinə hücum və qələbə İskəndəri Misirdən Ruma qədər məşhurlaşdırmışdır. Bundan sonra İskəndəri hətta, peyğəmbər kimi qəbul etməyə başlayırlar. İskəndərin zəncilər üzərindəki qələbəsi və Misirdə ədalət və sakitliyin bərpasından sonra

dəniz kənarında İskəndəriyyə şəhərinin salınmasına başlanılır. Bu iş sonradan davam etdirilib 12-13 şəhərin salınmasına gətirib çıxarılır.

İskəndər bundan sonra Yunana qayıdır. Lakin xərac vermək bütün dövlətləri razı salmır. Ona görə də Dara İskəndərlə müharibəyə başlayır. Ancaq İran xalqı Dara zülmündən qurtarmaq üçün İskəndərin bu yerlərə gəlməsini məqbul sayırlar.

Nizami «Şərəfnamə» də yazır ki, ağıllı filosoflar İskəndərin Daranın zülmünə son qoymağın vaxtı çatdığını deyirlər. İskəndər və Daranın bir-birinə göndərdiyi məktublar bir fayda vermədiyindən müharibə labüdləşir. Hətta, ordu başçıları da Dara əlindən zinhara gəldiyini deyib İskəndərə təslim olurlar. Onlar Daranı öldürməyə hazır olduqlarını İskəndərə bəyan edirlər. İskəndər buna inanmasa da, alimlərin nəsihəti yadına düşür ki, «Hər yerin dovşanını onun öz tazısı tutar» nəzərnə gəldi. İki ordu başçısına tapşırdı və onlar da öz növbələrində fürsət tapıb Daranı öldürdülər. Qorxuya düşən İranlıların sülhdən başqa bir çarəsi qalmadı. Rəvayətə görə Dara yaralanıb yataqda ikən İskəndər onun yanına gəlir. Bu səhnəni Firdovsi və Nizami böyük ustalıqla vermişlər. Qəribə burasıdır ki, iki böyük sərkərdə ağır döyüşlərlə bir-biriylə vuruşmuş, ancaq birinin məğlubiyyəti o birini sevindirməmişdir. İskəndərin ürəyi yumşalıb Daranın vəsiyyətlərinə əməl edəcəyinə söz vermişdir.

Daranın ondan üç xahişi olmuşdur: Birincisi odur ki, ona xainlik edənləri cəzalandırsın, ikncisi ailəsi ilə işi olmasın, üçüncüsü isə qızı Rövşənəki özünə arvad etsin. Nizami bu yerdə yazır:

İskəndər qəbul etdi, Dara hər nə dedi,
Qəbul edən qalxdı, deyən dünyadan getdi. (87-235)

Bundan sonra matəm günlərinin qara örtükləri şadlıq libası ilə əvəz olur və İsfahanda İskəndər Rövşənəklə şahlara məxsus toy edir. Bundan sonra İskəndər Rövşənəki Ruma aparır və ondan İskəndərus adlı bir oğlu olur ki, onu da Ərəstun tərbiyə edir.

Daha sonra İskəndərin ərəb ölkələrinə səfəri başlayır, o, hətta Kəbəni ziyarətə gedir. Nəhayət İskəndər Bərdə və Abxaza gəlir. Əslində tarixdə İskəndərin Kiçik Asiya və Qafqaza gəlişi olmamışdır.

Nizami Şəddadilərin dövründə kürdlərin onun vətəni Gəncədə gördüyü işləri qabartmaq üçün, öz anasının kürd olması onun «Yeddi gözəl» poemasındakı müsbət kürd surəti bu millətə hüsnü-rəğbətindən xəbər verir.

Bərdə də Azərbaycanın o vaxtkı paytaxtı olduğundan Nizami İskəndəri oraya türk qadını Nüşabənin qarşısında mat qoyur. Bunu şairin vətənpərvərliyi və öz xalqına sevgisi ilə izah etmək olar. Nüşabə dastanı «İskəndərnamə» əsərinin ən maraqlı bölümüdür. Maraqlı burasıdır ki, dünyanı fəth edən İskəndər qadının belə ədalətlə dövlət idarə etməsinə heyran qalır.

Əlbətdə, ədaləti şah prinsipini ilk əsəri «Sirlər xəzinəsi» dastanından qarşıya qoyan Nizami öz ənənəsinə sadiq qalır.

İskəndər sonra Dərbəndə gəlib oraya sədd çəkdirib Dərbənd qalasının düşmənlərdən qorunmasıana şərait yaradır.

İskəndər Keyxosrovun qalasına tələsib orada oturmaq istəyir. Keyxosrovun nəvələrindən oln Sərir hakimi İskəndəri layiqincə qarşılayıb onu Keyxosrovun təxtində otuzdurur.

İskəndərin səfərləri Rey və Nişapura davam edir. Nizami İskəndərdən əvvəl Keyxosrovun gəzdiyi şəhərləri xüsusilə Bərdəyə gəlişini İskəndərə şamil etməklə vətənini sevdirməyə çalışmışdır. İskəndərin istilaları davam edir, o, bu dəfə Hindistana hərbi yürüş edir. 30 ilə yaxın bir ömr yaşamasına baxmayaraq tarixdə bu qısa zaman kəsiyində dünyanın bir çox ölkələrini fəth edir. Hindistana gedib çıxması da buna işarədir. İskəndər Çinə və Tibetə tarixdə getməsə də, Nizami yeni bir övqat yaratmışdır. Müxtəlif ölkələrin hikmət və mədəniyyətlərindən danışaraq dünya xalqlarının adət-ənənələri və sivilizasiyası poeziyada şairin böyük ustalıqla verilməsinə heyran olursan. İskəndərin Qıpçaq çölünə gəlməsi və burada qadınların üzü örtüksüz gəzməsi onu heyrətə salır. Burada Nizami öz qadını Afaqın yurdundan söz açaraq bu yerlərdə qadınların cəsarətindən bəhs edir. Qadının cəmiyyətdə böyük qüvvə olduğunu göstərməyə çalışır.

### *İskəndərin ruslarla müharibəsi*

Nizami İskəndər surəti vasitəsiylə ədalətli hökmdar prinsipinə sadiq qalaraq abxaz və rusların Bərdəyə hücumunun qarşısını almaq və Nüşabəni onların zülmündən qurtarmaq üçün ruslara qarşı müharibə edir. Nizami bunu göstərməklə öz kinini ruslara bildirmiş və onların istilalarını pisləmişdir. 332-333-cü illər arasında hicri tarixində rüslar Bərdəni işğal altında saxlamışlar. Nizami yazılarından başqa bir mənbə olmadığından biz onunla razılaşmalı oluruq. Rusları qırmızı sifət və sarı tüklü kimi təsvir edən Nizami Abxazların da qəsbkarlıqda əli olmalarını təsdiq edir.

Ruslar İskəndərin gəlməsini eşidib səfərbər olurlar. Hər iki tərəf müharibəyə başlayır. 6 gün şiddətli döyüşlər gedir, hər iki tərəf xeyli itki verir. Nəhayət İskəndər qələbəni bayram edir. İskəndər bu döyüşdən xeyli qənimətlər əldə edir. Bununla da İskəndər camaatı o cümlədən Nüşabəni ruslardan azad edir. Rusların ordusu darmadağın edilir. Çoxu öldürülür, bir hissəsi əsir düşür, sağ qalanları qaçıb canını qurtarır. Nizaminin vətəni azad görmək arzuları çin olur.

İskəndərin bu qələbəsi ona ölməzlik rəmzi gətirir və buna görə də, dirilik suyu axtarışına çıxır.

### *«İqbalnamə»*

Nizami «İskəndərnamə» poemasını iki yerə bölməklə onun I hissəsini «Şərəfnamə» adlandırılıb daha çox İskəndərin qoçaqlığı, hərbi yürüşlərdəki şücaəti və ədalətindən bəhs edir. II hissəni «İqbalnamə» adlandıraraq şair burada hikmət, əxlaq və elmə üstünlük verir. Digər tərəfdən dünyada heç nəyin əbədi olmadığına işarə edir. Ancaq yaxşılıq və pislik kimi iki qutbün olduğuna ehkam vurur.Şubhəsiz, Nizami heç də tarixdəki hikmətdən danışmaq istəməmiş, amma bəşəri hisldərdən də geridə qalmaq istəməmişdir. Çünki, onun seçdiyi qəhrəman da elə bu nəticəyə gəlir. Nizami göstərir ki, dünyanı güc və zor hesabına deyil ağıl və ədalətin təntənəsi ilə idarə etmək olar. Nizami qədim Yunan tarixini bilib, bütün islamı dəyərlərdən istifadə etmişdir. Nizami bu qədim mədəniyyətləri tərənnüm etdirmiş, dünyanın yadından çıxanları bir daha xatırlatmışdr. Şair xristian və müsəlmanların yaxşı nəyi varsa əxz etmişdir. O, Bizans

imperiyası, qədim yunan elmi, əxlaqını dəqiq verməklə bütün bunlar barəsində doğru fikir yaratmışdır. Əlbəttə, yunan mədəniyyəti daha qədimdən mövcud idi, lakin Nizami onu Şərqlə-Qərb vəhdətində birləşdirən yeganə adam olmuşdur.

İskəndərin ən böyük işi onun İskəndəriyyə şəhərini saldırıb adını tarixdə əbədi olaraq yaşatmaq idi ki, o da ona müyəssər oldu. İskəndəriyyə bu gün də Misirin ən böyük və gözəl liman şəhərlərindən biridir.

hər bir işin başlanğıcı olduğu kimi sonu da vardır. İskəndər də doğulur, məşhurlşır və ölür, ancaq Nizami qələmiylə o, əbədi bir dirilik simvoluna çevrilir. Nizami qələmi və elminin gücü bəşəriyyətin qibləgahı kimi daima səcdə yeri olaraq qalacaqdır.

Doktor Kamil Əhmədnejad Nizamini özünəməxsus meyarlarla açmışdır. Nizamini şahlara tabe olmamaq, saraydan qaçmaq və sərbəst işləməsini özəl olaraq vurğulayır ki, bu da doğrudur.

***Doktor Barat Zəncani***

**Nizami Gəncəvinin «Sirlər xəzinəsi» məsnəvisinin şərhi**

Tehran universitetinin nəşriyyatı, 2008 Nizaminin adının İlyas olduğunu şairin özü «Leyli və Məcnun» poemasında yazmışdır. (səh. 44)

Nizaminin arvadının adı Afaq Qıpçağı idi ki, Dərbənd hökmdarı Ərzincan padşahı Fəxrəddin Bəhram şah şairə bağışlamışdı. Nizami «Xosrov və Şirin» əsərində Şirinin ölümündən sonra bunu xatırladaraq yazır ki, mən Afaqı nəzərdə tutub bunu yazmışam. («Xosrov və Şirin» səh 430)

Oğlunun adının Məhəmməd olması barədə bütün təzkirəçilər qeyd etmişlər.

Afaqdan sonra Nizaminin ikinci arvadı da olub ki, onu da «Leyli və Məcnun»u yazandan sonra itirmişdir. («İqbalnamə» səh. 61)

Şairin öz yazılarına görə onun üçüncü qadını da olmuşdur. («İqbalnamə» səh. 61). Bu, Nizaminin sonuncu arvadı olmaqla o da həyatını qeyb etmişdir. Sonralar şair daha evlənməmiş, tək yaşamağa üstünlük vermişdir.

Deyilənlərə görə Nizaminin ilk övladı oğlan olmuş və 8-10 yaşında ikən dünyasını dəyişmişdir.

Məhəmməd isə «Xosrov və Şirin» yazılanda 7 yaşında, «Leyli və Məcnun» əsəri tamamlananda 14 yaşında imiş. Şairin «Leyli və Məcnun» dastanında oğluna nəsihəti və yaşının da göstərilməsi bunu bir daha təsdiqləyir.

### *Nizaminin doğulduğu yer və mənşəyi*

Nizaminin doğulduğu yer Gəncə və şöhrət tapdığı şəhər də Gəncədir. Şair öz iqamətgahında xəmsəsini yazmışdır. Buna sübut kimi Nizaminin «Sirlər xəzinəsi» səh. 180; «Xosrov və şirin» səh. 37; «Şərəfnamə» səh. 25; «İqbalnamə» səh 29-da Gəncəyə həsr etdiyi misralardan aydın görmək olar. Bunu o dövrün təzkirə yazanları da təsdiq etmişlər. Əvfi və Dövlətşah Səmərqəndi onun Gəncədə doğulduğunu və Gəncəvi təxəllüsünü götürdüyünü göstərmişlər. Lakin bəziləri onun əhli Qum olduğunu iddia edirlər. Ancaq görünür bu fikir sonradan əlavə edilmişdir. Digər tərəfdən nəsli Qumdan olsa belə vətəni Gəncə olduğuna şübhə yeri qalmır. Azərbaycan alimləri və rus şərqşünası Bertels onun Gəncəli olduğunu vurğulamışlar. Lakin başqa bir təzkirəçi Əbdülqəni sahib yazır ki, şeyxin əcdadı Qumdandır və onun atası Gəncəyə gəlib orada evlənib Nizami də Gəncədə anadan olmuşdur.

Böyük İran alimi Vəhid Dəstgerdi yazır ki, bütün bu mülahizələri sübut edəcək dəlillər əlimizdə yoxdur. Onun İraqdan olması fikirləri də mövcuddur, ancaq Gəncədə doğulduğu hamı tərəfindən qəbul edilmişdir. Nizami «Şərəfnamə» əsərinin 53-cü səhifəsində, "İqbalnamə"nin 29-cu səhifəsində İraq, Qum və Gəncə adlarını çəkir. Ancaq bəzi təzkirəçilərin onun əslən İraq əcəmlərindən olması fikri heç bir yerdə təsdiqlənmir. Bütün bunlar mülahizələrdir. Əsas odur ki, Nizami Gəncəlidir.

### *Nizaminin doğum tarixi.*

Ayrı-ayrı təzkirəçilər Nizaminin doğum tarixini müxtəlif illərlə göstərmişlər.

1. Ripka və Bertels şairin təvəllüdünü hicri 535 göstərmişlər.

2. Məctəbi Minui 535.
3. V.Dəstgerdi 533-dən 540-a qədər.
4. Minnreski 541-dən 551 hicri arasında.
5. Darab Xan (Sirlər xəzinəsini ingiliscəyə mütərcimi) 540 hicri.
6. Doktor Məhəmməd Moin 542-543 hicri.
7. Doktor Zəkihulla Səfa 530 hicri.
8. Doktor Şəhabi 530-540 arasında hicri.
9. Mirabbas Bağırzadə 520 hicri hesab edir.

Ancaq bir mətləb var ki, Gəncə zəlzələsi 534 hicridə baş vermiş və Nizami onun törətdiyi dəhşətləri göstərmişdir.

### *Nizaminin ölüm tarixi*

Şairin vəfat etmə tarixi də müxtəlif illərlə göstərilir:

1. Təzkirəçi Dövlətşah Nizaminin ölüm tarixini hicri 576 göstərir.
2. Qəzvini, Gəncə qeydlərində şairin vəfatını hicri 590 qeyd edir.
3. Hacı Xəlifə isə 596-597 kimi təqdim edir.
4. Bertels və Ripka 599 hicriyə təsadüf etdiyini iddia edirlər.
5. Şəbli «Əcəm şeri» əsərində hicri 599-u təsdiq edir.
6. Bəzi nüsxələrdə doktor Şəfa hicri 589 göstərir.
7. Doktor Məhəmməd Moin və doktor Zəbihulla Səfa 614 hicri qeyd edir.
8. Vəhid Dəstgerdi 600-602 hicri arası izah edir.
9. Müxtəlif təzkirəçilər 576, 586, 596, 597,602, 606 hicri tarixlərilə vermişlər.

### *Nizaminin dəfn olduğu yer.*

Nizami Gəncədə dəfn edilmişdir. Onun məzarı ziyarətgaha çevrilmiş və movzoley şəklindədir.

### *Nizaminin xəmsəsi.*

Nizaminin 5 məsnəvisi xəmsə kimi məşhurdur. Nizami bu məsnəviləri xəzinə adlandırmışdır. «Şərəfnamə» də xəzinələr deyə müraciət etmişdir. (Şərəfnamə səh.78)

### *"Sirlər xəzinəsi"*

Bu poema 2288 beytdir və səri bəhrində yazılmışdır. Şair bu mənzuməni Məlik Fəxrəddin Bəhram şaha həsr etmişdir. Bunun müqabilində şah, Nizamiy 5 min dinar mükafat vermişdir. Əlavə olaraq qıpçaq qızı Afaq adlı kənizi də ona bağışlayıb, 5 hektar da yer ayırmağı əmr etmişdir. Bu əsər irfan və əxlaq üzərində qurulmuşdur. Şair iki yerdə xəlqedəndən bəhs etdikdən sonra 20 məqalat yazır ki, onların hər biri ayrı-ayrılıqda bir dastanı xatırladır.

### *"Xosrov və Şirin"*

Bu əsər 6500 beyt olub müsəddəs bəhrində yazılmış, Toğrul İbn Arslan Səlinqi və Atabəy Şəmsəddin Məhəmməd Cahan pəhləvan ibn Eldəgiz, Qızıl Arslan ibn Eldəgiz üçün başlanıb və Toğrul Qızıl Arslan xatirinə sona çatır. Bu əsər eşq macərası olsa da, yenə hikmətlərlə əlaqəlidir. Buna görə də Nizamiyə hətta kənd də bağışlamışdır və «Xosrov və Şirin» tezliklə dillər əzbəri olmuşdur. Bu mənzumə Firdovsi «Şahnamə»sinə oxşayışı ilə diqqəti cəlb edir.

### *"Leyli və Məcnun"*

Bu məsnəvi 4130 beytdən ibarət olub musəddəs bəhrində yazılmışdır. Bu əsər Şirvanşah Cəlaləddin Əbu Müzəffər Axistan ibn Mənuçehrə həsr edilmişdir. Bu dastan Qeysin və Leylinin eşqinə həsr edilmişdir ki, onların hər ikisi Bəni Amir qəbiləsindən

olmuşlar. Bu dastan ərəb şifahi xalq ədəbiyyatında olsa da zəmanəsinin hökmdarı Mənuçehrin xahişi ilə Nizami onu nəzmlə yenidən yazmalı olur. Bu məsnəvi Nizaminin sayəsində daha da məşhurlaşır.

### *“Yeddi Gözəl”*

Bu əsərə «Bəhramnamə» və «Yeddi Gözəl» adları da verilmişdir. Bu mənzumə 5 min beytdən artıq olub xəfif müsəddəs bəhrində yazılmışdır. Əsər Sultan Ələddin Kürp Arslan Marağa hakiminə ithaf edilmişdir. Nizamidən əvvəl bu dastan Firdovsi tərəfindən nəzmə çəkilmişdir. Bu mənzumə Sasani hökmdarı 5-ci Bəhramın həyat və fəaliyyətindən bəhs edir. Ona Bəhrami Gur deyərdilər. Nizami Bəhramın taxta çıxmasından onun 7 gözəllə evlənməsini, 7 künbəz, 7 iqlim, 7 rəngi göstərir. Bəhramın hər künbəzdə bir ölkənin qadınlarının yerləşdirib və həftənin bir gününün onların yanına gedib birlikdə keçirməsini yazır. Nizami bu 7 gözəlin dili ilə 7 dastan danışıb rəvayət şəklində çatdırır. Müəllif fars şeir üslubundan istifadə edib bu əsəri çox gözəl bir şeriyyatla oxucuya təqdim etdi.

### *“İskəndərnamə”*

Bu poema iki hissədən ibarətdir:

1. Şərəfnamə ki, 6800 beytdir;
2. İqbalnamədir ki, 3700 beytdir.

Bəzən buna «Xerədnamə», «Ağılnamə» və ya «Nəsihətnamə» də deyirlər.

Bu əsər mütəqarib bəhrində yazılmışdır, Nüsrətəldin Əbubəkir İbn Məhəmməd İbn Eldəgizə ithaf olunmuşdur.

Qeyd edək ki, heç kəs Nizamiyə qədər bu haqda yazmamışdır.

Nizami Şərəfnaməni 50 yaşında hicri tarixi ilə 576, 577, 578-ci illərdə tamamlayır və Nüsrəddin şahın taxta çıxması münasibətilə ona təqdim edir.

Şairin «İskəndərnamə» mənzuməsinin proloqunda yazdığına görə bu əsər onunun sonuncu poeması və ən fəlsəfi fikirlərin təcəssümüdür.

Nizami İqbalnaməni Məlik İzzəlağdin Məsudin Arslan Səlimqiyə həsr etmiş və yaşının 63 il yarımında vəfat etmişdir.

### *Nizami divanı*

Nizami divanı qəsidə, qəzəl, qitə və rübailərdən ibarət olmuşdur ki, onların bir hissəsi itmiş, əlimizə gəlib çatmamışdır. Digər tərəfdən başqa «Nizami» təxəllüslü şairlərin yazdıqları ilə qarışdırılmışdır. Bunlardan Nizami Təbrizi, Nizami Əstərabadi və Səfəvi dövrü Nizamiləridir ki, müəyyən dövrlərdə yaşamışlar. Nizami şeirlərinin bəzi nüsxələri Mançestr, Oksford, Kəlküttə və Rampurda mövcuddur. Bu barədə V.Dəstgerdi məlumat vermişdir. S.Nəfisi də 1928-ci ildə buna işarə etmişdir. Məhəmməd Əvfi Sahib isə 625-ci ildə yəni Nizaminin vəfatından azca sonra onun divanından söz açmış və bəzi nümunələri göstərmişdir.

Səbəbsiz deyil ki, Nizami hələ sağlığında «həkim» adına layiq görülmüş, «şeyx» mərtəbəsinə qədər yüksəlmişdir. Səbəb odur ki, o bütün elmlərə vaqif olmuşdur. Xüsusilə o dövr üçün qapalı sayılan astronomiya elmində çox yeniliklər etmiş, onun dəqiq açıqlamasını göstərə bilmişdir. Əlavə olaraq türk, kürd, ərəb, fars və yunan dillərini yaxşı bildiyi üçün «İskəndərnamə» kimi bir əsəri yazıb meydana gətirmişdir.

Nizami özündən sonra əbədi və ədəbi bir məktəb qoyub getmişdir. Ondan nə qədər bəhrələnsək də bitən-tükənən deyil. Bunu Nizamidən sonra gələn şairlər etiraf etmiş və ondan faydalandıqlarını vurğulamışlar. Təsvir Nizamidə o qədər güclü olmuş ki, onu indi də təsəvvür etmək mümkün deyil. Nizami dilindəki sinonim, omonim və antonimlər o qədər ustalıqla verilmiş ki, insan istər-istəməz heyran olub mat qalır.

Bir sözlə Nizami, allah-təalanın bəşəriyyətə bəxş etdiyi çox nadir insanlardan biridir ki, heç bənzəri yoxdur. Həqiqətən də onu oxuyub araşdırdıqca özün də heyran olub düşünürsən ki, bu qədər fitri istedad sahibi olmaq üçün gərək allahın nəzəri daima üzərində ola.

### *«Sirlər xəzinəsi»*

Nizami Gəncəvi bu ilk məsnəvisini Ərzincan hökmdarı Fəxrəddin Bəhram şaha hədiyyə etmişdir. O da öz növbəsində 5 min dinar, müxtəlif mükafatlar və üstəlik Afaq adlı qıpçaq qızını şairə göndərmişdir. «Sirlər xəzinəsi» poemasının yazılma səbəbi və tarixi əsərin 26-cı səhifəsində Nizami tərəfindən göstərilmişdir. Qədim və indiki nüsxələrdə 550-561 tarixləri arasında göstərilir.

Bu əsərlə Nizami özünün irfan və əxlaq sahibi olduğunu göstərmiş, özünün şəxsiyyətini açmağa müvəffəq olmuşdur.

Bu kitabın mənbəyi bir neçə sirdən ibarətdir ki, şair ona həqiqi ürək vermişdir. Ariflər də onu həqiqət məcrası kimi qəbul etmişlər. Şairin hər məqaləsi ayrıca bir əsərdir.

Doktor Barat Zəncani əslən Zəncan azərbaycanlılarındandır. Onun araşdırmalarında Nizaminin doğum və ölüm tarixləri verilir. Müəllim göstərir ki, ayrı-ayrı tədqiqatçılar şairin olum və ölüm tarixlərini 10 il fərqlə göstərirlər. Lakin bu, o qədər də önəmli rol oynamır.

Əsəri barədə məlumat verən B. Zəncani onların bir neçə beytdən olması və yazılma səbəbini göstərir.

Nizaminin İrana xüsusi rəğbəti olduğu və fars dilinə pərəstiş etdiyi göstərilir.

Lakin bizim fikrimizcə buna əsas səbəb İran şahlarından və farsca yazmasına dəlalət edir.

*Ustad Məhəmməd Tağı Cəfəri*

## NİZAMİ GƏNCƏVİNİN ŞEİRLƏRİNDƏ HİKMƏT İRFAN VƏ ETİK MÖVZULAR

İlyas Yusif oğlu Nizami Gəncəvi 520 hicridə Azərbaycanın qədim şəhəri Gəncədə bir sənətkar ailəsində anadan olmuşdur. Atası Yusif, anasının hansı qəbilədən olduğu və adı məlum deyildir. Şairin yaşadığı dövrdə Gəncə şəhəri böyük karvan yolunun üstündə olduğundan dünyanın müxtəlif ticarət karvanları bu şəhərlə əlaqə saxlayırdılar. Burada böyük saraylar, mədrəsələr və çox geniş bir bazar var idi. Bu səbəbdən Gəncədə mədəniyyətin başqa sahələri kimi şeir də geniş vüsət almışdır. Eyni zamanda o dövr Gəncədə ipək, saxsı, dəmir karxanaları da mövcud idi. Şeir və şairlər ancaq şah saraylarına xidmət edirdi. Azərbaycan saray şeiri hələ beşinci əsrdə inkişafına başlamışdır. Bu zaman Şəddadilər hökmranlıq edirdilər. O dövr Gəncədə yaşayan Qətran Təbrizi öz qəsidələri ilə məşhur idi. VI əsrdən başlayaraq Xaqani Şirvani, Fələki, İzzəddin Şirvani kimi söz ustaları meydana çıxmışdı. Bu şairlər arasında yalnız Xaqani öz etiraz səsini qaldırıb saraydan uzaqlaşır. O, öz mütərəqqi fikirləri ilə şahların zülmünə qarşı çıxır və şairlərin azad şəkildə istədiklərini yazmaq kimi mühüm məsələni ortaya atır.

Nizamiyə gəldikdə isə o, saray qulluğunda duranlara nifrət bəsləyib belə deyir:

Bu qarın otaran duzsuz şairlər
Sayəmdə dünyanı basıb yedilər. (87-12)
Şikarı tutmağa aslan gərəkdir
Tülkünün işi də müftə yeməkdir.
Əlimin muzdu ilə dolanıram mən
Cəlalım yaranır söz xəzinəmdən,
Şahlar məclisindən kənar ol, kənar
Pambıq od görəndə alışıb yanar. (87-12)

Nizaminin sevincli günlərindən ən mühümü qıpçaq qızı Afaqa qovuşmaq, kədəri isə onu itirmək olmuşdur.

Şair «Xosrov və Şirin» mənzuməsində buna belə toxunmuşdur:

İbrət gözüylə bax sən bu əsərə
Özünü çox uydurma əfsanələrə.
Çünki tez tərk etdi o, bu aləmi
Cavanlıqda soldu qızıl gül kimi,
Qıpçaq bütün təki ox kimi süzdü
Afaq sevgilimin sanki özüydü.
O, Dərbənd şahının bir töhvəsiydi
Saf, ağıllı, gözəl gül qönçəsiydi.
Əğyara qəzəbli, mənə mehriban
Könül yoldaşımdı o nazlı canan. (87-318)

Nizaminin müəllifi olduğu «Sirlər xəzinəsi», «Xosrov və Şirin», «Leyli və Məcnun» və «İskəndərnamə» əsərlərində aşağıdakı mövzular diqqət mərkəzindədir:

1. Dini-fəlsəfi dünyagörüşü.
2. Məntiq.
3. Məhəbbət mövzusu və ilahi eşq (irfan).
4. Nəsihət.
5. Zülmə qarşı mübarizə.
6. Elmi mövzular.
7. Əxlaq və etik normalar.

Nizami hər şeydən əvvəl İslam fəlsəfəsi ilə silahlanmış bir şair və arifdir. O, öz fikirlərini və ilahi eşqi açıqladıqda mey, şərab, meyxana, qədəh, məstlik və s. terminlərdən faydalanmışdır. Lakin hamıya aydındır ki, bunlar həqiqi mənada deyil, məcazi anlamda işlədilmişdir.

Nizami əsərlərini məntiq və hikmətlə təchiz edən şair və sözü bədii dildə dolayı yolla deyil, bir başa ifadə edən sənətkardır. O, «Şərəfnamə»də belə deyir:

Qəbrimə gələrkən qədəhi doldur
Nizami yatdığı yerə qədəh vur.

Ey uğurlu xızır sanma ki, mənim,
Qədəhdən içilən meydir məqsədim. (87-386)

Aydındır ki, Nizami mey içməmiş, hətta, Qızıl Arslan onu mey məclisindən mey nuş etmədiyi üçün çıxarır. Nizami bunu belə təsvir edir:

Xəbər veriləndə ki, gəldi Nizami
Dərhal əmr verildi yığdırdı meyi.

Nizami allahı daima nəzərdə tutub deyir:

Bütün insanlara sual ver bu dəm,
Nə yolla boşluqdan yarandı aləm? (87-116)

Şair insanları inama, nizam-intizama və düşünməyə çağırır.

Nizami yerin hərəkətdə olması, kürə şəklində fırlanması, torpaq, külək, su, hava, atəş kimi elmi və təbii mövzulara toxunub onları fələyin möcüzəsi adlandırır.

Yerin hüdudundan o tərəfdə də
Buludlar, fələklər qaçışır yenə
Onlar bir-birinə sarılmış bərk-bərk
Hamısı top kimidir, gəzir kürətək
Hər xətt ki, hərlənir yuvarlaqdır bil …
Pərgar xətti kimi dolanan fələk
Yalnız bu qaydayla dövr edir, gerçək … (87-258)

Nizami insanın hələ çox bilmədiyini və zaman gələcək ki, elm və bilik vasitəsiylə bi sirlərə bələd olacağına inanır.

### *Şeirin vəzifəsi, şairliyin məsuliyyəti*

Şeir–şairin daxilində xüsusi bir ritmlə səslənib, insanın düzgün mövqeyini həqiqətlər və onlardan necə faydalanmaq yollarını bəyan etmək barəsində insanın düzgün mövqeyini göstərən bir fenomendən ibarətdir.

Şair yazdığı şeirin mahiyyətinə varmalı və ona məsuliyyət daşımalıdır.

İslamın müqəddəs kitabı Qurani Kərimdə şeir və şairə o qədər də yüksək qiymət verilməmişdir. Ancaq Həzrəti Əli yaxşı şeirləri əzbərləmiş, hətta yeri gəldikdə onlardan nümunələr gətirmişdir.

Nizamiyə gəldikdə isə pis şeirlərdən azad olub, həqiqi şeir yazanlara qiymət verib üz tütmalıyıq:

Şeirdən ucalıq umma dünyada
Çünki Nizamiylə qurtardı o da … (87-472)

Görəsən səmərəsiz və mənasız şeir kimə lazımdır? Şair olan şəxs də bu məsuliyyəti duymalıdır.

Dahi Nizaminin əsərlərinin müqəddiməsində söylədiyi irfan və hikmət məsələləri haqda bəzi mülahizələr.

***I. Müqəddimə***

Poema sənəti vasitəsilə özünə yüksək elm, əxlaq, irfan, hikmət prinsiplərini bəşəri düşüncənin sahələrinə daxil edən böyük tarixi şəxsiyyətlər arasmında tam ləyaqətlə «həkim» ləqəbi qazanan Nizami Gəncəvi xüsusi yer tutur. O, mərifət, düşüncə aləmində elə bir mövqe qazanmışdır ki, bəzi nəzəriyyəçilərə görə Cəlaləddin Məhəmməd Mövləvi ilə müqayisə edilə bilər. Bu alimlər qeyd edirlər ki, Mövləvi, Nizamidən faydalanmışdır. Bu müddəanı sübut etmək üçün onların arxalandığı dəlillər də maraqlıdır. Əgər şeriyyət baxımından yanaşsaq Nizami, Mövləvidən üstün şairdir. Digər tərəfdən Nizaminin farscası o qədər zəngindir ki, bəlkə də misilsizdir. Lakin dini baxış və islam elmi, kamalı, hikməti, irfanı, psixologiyası, əxlaqı və təfsiri Mövləvidə daha güclüdür. Ancaq Nizamidə ərəb və fars sözlərinin düzümü o qədər güclüdür ki, elə düzgün qurulmuş ki, mətləb tamamiylə aydın olur.

***II. Müqəddimə***

Nizami şeriyyətin gücü ilə hikmət və əxlaq, eləcə də irfan o dərəcə yüksək yazılmışdır ki, onun yenidən mədhə ehtiyacı qalmır. Əslində böyük şəxsiyyətlərin barəsində fikir söyləmək çətindir. Şairin bütün müraciətlərində allah birinci yerdə durur.

Əsər onun adı ilə başlayıb, onun varlığı ilə də sona çatır. Yeri-göyü xəlq edən və insanlara ağlı verənin allah olduğu Nizamidə açıqca təsdiqini tapır.

***Nizami Gəncəvi münacatlarının təfsiri.***

Qeyd etdik ki, Nizami Gəncəvi əsərlərindəki başlanğıc münacatları ilahiyyət, əxlaqiyyət, hikmət, irfan sahələrində yüksək keyfiyyətə malik olan maarifləndirici sözlər getmişdir. Şairin ayrı-ayrı dünyagörüşü, ideologiya və s. sahələrə aid olduğu təşəbbüslər irəli sürülmüşdür. Lakin təəssüflə qeyd edək ki, onların haqqında ətraflı və əsaslı izaha rast gəlmədik. Bu sahədə hələ xeyli işlər görülməlidir. Şair demişdir: «Hər əhəmiyyətli iş allahın adı ilə başlamasa, o iş naqisdir».

Varlıq aləminin mövcudatını yaradan və onları yaşadan ilk əzəl də Allah-təaladır. Allaha müraciət etdiyi beytlərin hamısında bu aşkar şəkildə özünü göstərir. Allah bir şeyi xəlq etməzdən əvvəl onu necə yaradacağını bilir və buna görə də Allahdır.

O, hökmü və hakimiyyəti aşkar,
Hikməti gizli olan Allahdır. (İqbalnamə) (71-468)

Nizami bu beytlərdə ədəbiyyat, irfan, kəlam, hikmət kimi maraqlı məsələləri irəli sürmüşdür. Kainatın sirli və böyük sehirgahına baxmışam, onu öyrənib təsvir etməkdə çox düşünmüşəm, bu səyahətdə özümə suallar vermişəm. Bu, fitrət, vicdan və ağlımın birlikdə mənə vadar etdikləri maraqlandırıcı səyahət idi. Bunların hamısını mənə o böyük yaradan bəxş etdi. Hər şeyin mahiyyətini öyrənmək, o şeyi yaratmaq kimidir. Nizami əxlaqı əsas prinsip hesab edib, onun etik normalar çərçivəsində işlətməyin tərfdarı olmuşdur. Allaha yaxın olanların əxlaqının pak və təmiz olma şərtlərini Nizami göstərmiş və bu normaların insanlar arasındakı münasibətlərin ali dərəcəsinə çatacağına inanmışdır. Şair ömrü boyu bəşəriyyəti doğruluğa səsləmişdir.

Nizaminin irfan, hikmət və etik məsələlərindən böyk bir kitab yazan ustad Məhəmməd Tağı Cəfəri hər cür təqdirə layiqdir. O bütün Nizami əsərlərini oxuyub geniş təhlil etməyi bacarmışdır. Bu da Nizami fəlsəfəsinə bələd olmaqdır.

# NƏTİCƏ

Yazdığımız elmi işin mahiyyəti ondan ibarətdir ki, dahi Azərbaycan şairi Nizami Gəncəvinin həyat və yaradıcılığına bir daha nəzər salıb, onun əsl azərbaycanlı olmasını tutarlı dəlillərlə əsaslandıraq. Artıq indi bütün dünya ədəbiyyatşünas, alim və şərqşünasları etiraf edirlər ki, Nizami Azərbaycan xalqının layiqli oğludur.

İran alimlərinə gəlincə əvvəllər bunu etiraf etməkdən çəkinsələr də, indi göstərilən faktlar onu sübut etdi ki, Nizami, Gəncə şəhərinin ən hörmətli sakinlərindən biri olmuş və bu şəhərdə də dünyaya göz açmışdır.

Gəlin nəticə olaraq aşağıdakılara nəzər salaq:

1. Nizami doğulub boya-başa çatdığı Gəncə şəhərini özünə təxəllüs seçmişdir.
2. Şairin məzarının da məhz bu şəhərdə olması əsas amillərdən biridir.
3. Atası, babası və dayısı da o dövr Gəncənin savadlı və tanınmış adamlarından idilər.
4. O dövr yəni XII əsrdə Azərbaycanda intibah dövrü sayılır. Gəncədə Əbu Üla Gəncəvi, Qivami Gəncəvi, Məhsəti Gəncəvi kimi şairlərin olması, sənətkarlıq, ipəkçilik, xalçaçılıq, dulusçuluq və ticarətin inkişafı, ipək yolunun Gəncədən keçməsi Nizami kimi bir şəxsiyyətin də yetişməsində böyük rol oynamışdır.
5. Nizaminin farsca yazmasına səbəb orta əsr şeir dilinin fars dili olmasıdır. Axı, Nizami bu ənənədən geri qala bilməzdi. Əks halda o, bütün Yaxın və Orta Şərqdə tanınmayacaqdı.
6. Nizamidə işlədilən türk sözləri və Azərbaycan zərbi-məsəlləri hətta fars şeirinin əsasını qoyan Firdovsidə də yoxdur. Ona görə Nizamini 30 il tədqiq etmiş böyük İran alimi V.Dəstgerdi demiş ki, Nizamidən türklük qoxusu gəlir. O, Nizamini 100 dəfədən çox oxuyan, onu ən çox tədqiq edən alimdir.
7. Nizami, dünyanı fəth etmiş İskəndəri Azərbaycana gətirməklə, onu Bərdə hökmdarı Nüşabənin qarşısında çətin duruma salması, ancaq şairin vətənpərvərliyi ilə bağlıdır.
8. İran ədəbiyyatşünasları dərk etmişlər ki, onların ədəbiyyatı dünya ədəbiyyatının dəyərli hissəsidir. Əgər Nizamini oradan təcrid etsələr, onda bu ədəbiyyat yetim qalar.
9. Nizamini təhlil və tədqiq etməklə dünya ədəbiyyatına töhfələr vermiş olarlar.

10. SSRİ-nin o zamankı rəhbəri Stalin əmr vermişdir ki, Nizaminin 800 illik yubileyi böyük təntənə ilə keçirilsin. 1941-ci ildə alman faşizminin Sovet İttifaqına hücumu buna mane olsa da, 1943-cü ildə müharibənin şiddətli bir vaxtında Leninqradın blokadası zamanında əzəmətli Ermitajda şairin yubileyi keçirilir. Hər kəsə 50 qram çörək verilməklə oradan bir başa cəbhəyə yollanırlar.

Alman komandanlığı məəttəl qalır ki, acından ölən bir xalq, hələ mənəviyyatini itirməmişdir. Öz dahilərinə ehtiramını ölüm ayağında da göstərir.

11. Yeri gəlmişkən onu da qeyd etmək yerinə düşər ki, ümummilli liderimiz Heydər Əliyev Nizami irsinin öyrənilməsi haqda iki fərman vermişdir. Bu fərmanlar şairin 800-850 illik yubileylərini layiqincə keçirilməsi və müasir gəncliyin öz irsini öyrənilməsi baxımından çox vaxtında və vacib verilmiş fərmanlar idi. 1979 və 1981-ci ildəki bu fərmanlardan sonra Azərbaycanda Nizami yaradıcılığına xüsusi bir yanaşma müşahidə olundu. Nəticədə illərcə yazılmayan, tərcümə edilməyən mövzular meydana çıxdı.

12. İndi İranda elə bir konqres, konfrans, şairlərin yığıncağı olmur ki, Nizamidən danışılmasın. Ondan bəhs edilməsin.

13. Aparılan tədqiqat işlərinin və elmi yazıların hamısında göstərilir ki, Nizami Gəncədə anadan olmuş, təhsilini orada almış və oradan da kənara çıxmamışdır. Necə ola bilər ki, bu dahi insan hansısa başqa bir yerin sakini olsun?! Riyaziyyatda belə bir fikir mövcutdur ki, aksiyomaların isbata ehtiyacı yoxdur.

Əlbətdə, bir elmi dissertasiya çərçivəsində bütün İran alimlərinin Nizami barədə yazdıqlarını cəmləşdirib şərh etmək mümkün deyil. Bizcə bu alimlərdən dünya şöhrətlilərinin əsərlərini və onların yazdıqlarını tədqiq işlərini göstərib, onların elmi mahiyyəti haqqında açıqlama vermək daha məqsədə uyğun olardı. Bu baxımdan Nizamidən ilk araşdırmalar aparan alimlərdən başlayaraq, ta indiki zəmanəmizə qədər məşhur olan alimlərin əsərlərini araşdırmağa çalışdıq.

Söz yox ki, V.Dəstgerdi bu işin başında dayanır. S.Nəfisinin də araşdırmaları diqqəti cəlb edir. Şəhabi, Zərrinkub, M.Sərvət, K.Əhmədnejad, M.Cəfəri kimi alimlərin

də tədqiqatları və elmi fikirləri diqqətdən kənarda qalmamalıdır. Bu alimlər ayrı-ayrı dövrlərdə bəzi yanlışlıqlara yol versələr də, Nizami haqqında yeni mülahizələr, dəyərli tədqiqatlr aşkar etmişlər.

Arzu edərdik ki, İran alimlərinin Nizami haqqındakı bu qədər çalışmaları, Azərbaycan alimləri üçün bir örnək olsun.

Şairin vətənində açıq etiraf etməliyik ki, onun irsi hələ də layiqincə araşdırılmamış, tədqiqata ehtiyac duyulan sirləri bağlı olaraq qalmaqdadır. Xüsusiylə də Nizaminin ölməz xəmsəsinin yalnız bir dəfə Azərbaycan dilinə tərcüməsi və onunla da kifayətlənmək, bizcə doğru olmazdı. Çünki, bu tərcümələrdə çatışmayan cəhətlər çoxdur. Fikirlərimizi dəqiqləşdirmək üçün bəzi misallara müraciət edək:

Qoftən ze mən , əz to kar bəstən
Bikar nəmitəvan neşəstən.

(orijinalda)

Məndən söyləməkdir, səndən eşitmək,
Bir insan əliboş gəzməsin gərək. (87-32)

(tərcümədə)

Orijinaldan məlum olur ki, əgər sən iş görsən, əlin boş qalmayacaq və sən öz təminatını ödəyə biləcəksən.

Tərcümədən belə çıxır ki, mən deməliyəm, sən eşitməlisən. Nizami yaxşı bilirdi ki, hər eşidilən sözə əməl edilməz. Digər tərəfdən «eşitmək» feli orijinalda ümumiyyətlə yoxdur. Tərcüməci bu feli hardan ağlına gətirmiş, hələ də şübhə doğurur.

Digər bir misala nəzər salaq:

Mikuş be hər vərəq ke xani,
Ta mənaye an təmam dani.

(orjinalda)

Bir elmi öyrənmək istədikdə sən,
Çalış ki, hər şeyi kamil biləsən. (87-32)

(tərcümədə)

Bu beytdə də yenə yanlışlıq var. Söhbət ancaq oxuduğumuz vərəqdən gedir. Burada elmdən danışılmır. Digər tərəfdən biz Nizamini öz səviyyəmizlə ölçməyə ixtiyarımız yoxdur. Nizamidəki dil zənginliyi, rəvan yazı, füsunkar şeir forması və gözəl nitq mədəniyyəti ona imkan vermir ki, poliqlot olan Nizami, elmə, palançıya və pinəçiyə «kamil» deyə. Xeyir, Nizamiyə görə elm kamil, palançı mahir, papqçı yaxşı ustadır.

Bunu daha da artırmaq olar. Lakin bizim məqsədimiz ondan ibarətdir ki, Nizamini hər bir iranlı orjinaldan oxuyub anlaya bilər. Biz özümüz isə ancaq tərcümə vasitəsi ilə onu başa düşməyə çalışırıq. Bu da yuxarıda qeyd etdiyimiz kimi yanlışlıqlara gətirib çıxara bilir.

İran alim, ədəbiyyatşünas və Nizamişünaslarının mütəmadi olaraq Nizami barəsindəki elmi araşdırmaları öz bəhrəsini vermiş, hətta o dərəcəyə gəlib çatmışdır ki, şairi özlərinki hesab edərək, onu digər xalqlara belə də təqdim etməyə çalışmışlar.

Bizcə, artıq Azərbaycan alimlərinin də bu sahədə deyiləcək sözlərinə meydan vardır. Belə bir şairi biz ancaq yubileydən-yubileyə yad etsək, itirdiklərimiz içərisində ən qiymətli qaş-daşı da qeyb edəcəyik. Gəlin bütün qonşularımızın yaxşı cəhətlərindən faydalanaq, pis tərəflərini dərk edib vaxtında əncam qılaq.

Biz zülməti boğmasaq,
Zülmət bizi boğacaq…

Son olaraq demək lazımdır ki, İran alim, ədəbiyyatşünasları Nizaminin əsərləri farsca yazıldığından, onu dəfələrlə oxuyub öyrənmiş və tədqiq etmişlər. Hətta bəzən əndazədən çıxaraq şairi farslaşdırmağa çalışmışlar. Göstərilən müəlliflərin hamısı yeri düşər-düşməz Nizamini fars şairi adı ilə qələmə verib, ona bu prizmadan yanaşmışlar.

Lakin olanlara olduğu kimi nəzər saldıqa görürük ki, Nizamidə işlədilən türk sözləri və Azərbaycan zərbi-məsəlləri onun xəmsəsi boyu öz əksini tapmış, heç bir İran şairinin əsərində bu qədər türk sözləri olmamışdır.

Nizami xəmsəsini diqqətlə mütaliə etdikdə orada təxminən 120 türk sözü və kifayət qədər Azərbaycan zərbi-məsəlləri mövcuddur ki, bu sözlər fars dilində yoxdur, ibarələr isə ancaq Azərbaycan dilinə xasdır. Bu kəlmə və ibarələrdən bir neçəsinə nəzər salaq:

Alaçıq, amac, tutuq, çirkin, dağ, qırmızı, kişmiş, dolma, köç, kömək və s. Atalar sözlərini Nizami böyük ustalıqla iki misraya çevirib fars oxucusuna çatdırmışdır:

"Sirkə nə qədər tünd olsa, öz qabını çatladar".

Nizaminin "Xosrov və Şirin" poemasında:

Şirin bu sözləri birdən eşitcək,
Tündləşdi sirkətək, coşdu şirətək. (87- 370)

"Acın toxdan nə xəbəri var".

Nizamidə: Ac üçün kəpək də yağlı çörəkdir,
Tox üçün yağ-çörək sanki kəpəkdir. (87-101)

"Pişik balasını istədiyindən yeyər".

Atalar sözü Nizamidə:

Qorbe ço bovəd nazok pusti,
Bəççeye xod ra xorəd əz dusti. (87- 642)

Belə misalların sayını artırmaq olar. Lakin buna ehtiyac duymuruq. Nəticə etibariylə o qənaətə gəlirik ki, dünyaca tanınmış dahi Azərbaycan şairi hansı dildə yazmağından asılı olmayaraq istər şərq, istərsə də qərb alim, şərqşünas və ədəbiyyatşünasları tərəfindən Azərbaycan xalqının o cümlədən Gəncə şəhərinin dünya arenasına bəxş etdiyi misilsiz şairidir.

Güman edirik ki, 900 ilə yaxın bir məsafə keçsə də Nizami bəşəriyyət tərəfindən öyrəniləcək və tədqiq ediləcəkdir. Çünki, hələ Nizamidə açılmayan mətləblər qalmaqdadır. Elə Nizami də öz inci xəmsəsini yazarkən bəşəriyyətin xoşbəxtliyini nəzərdə tutmuşdur.

«Nizami İran ədəbiyyatşünaslığında» mövzusu Azərbaycanda ancaq bir dəfə alim Gülçin xanım Hüseynova tərəfindən araşdırılıışdır. Mən bu işi ilk dəfə yazıldığı üçün alqışlayıram. Lakin bununla belə iradlarımı da bildirmək istərdim: Əvvəla Gülçin xanım ancaq 3-4 müəllif üzərində dayanmışdır. Bu sahədə yazdığı məqalələr də 3-4 olmaqla ancaq konfrans çıxışlarına əsaslanmışdır. Xaricdə heç məqaləsi dərc edilməmişdir. Mən,

əlbətdə anlayıram, dövr, zaman, təlimat və tələblər dəyişir. Elm də bir yerdə dayana bilməz.

Guman edirəm bizim yazdığımız dissertasiya işi «İran ədəbiyyatşünaslığında Nizami irsinin tədqiqi» Nizamişünaslıqda qabağa doğru atılmış addım kimi qiymətləndiriləcəkdir.

# ƏDƏBİYYAT

1. Ağamirov C. Nizami yaradıcılığında işlədilən türk sözləri və Azərbaycan zərbi – məsəlləri. Gəncə, 2005. 65 s.
2. Ağamirov C. Nizami və türklük. Monoqrafiya 140 s. Gəncə, 2008.
3. Abbasov Ə. Nizami Gəncəvinin "İskəndərnamə" poeması. 182 s.
4. Ağah Sirri Ləvənd Arp. Fars və türk ədəbiyyatında Leyla və Məcnun hikayəsi, Ankara, 1959. 126 s.
5. Axundov A. və Məmmədov N. Dilçiliyə giriş. Bakı, 1966. 210 s.
6. Axundov A. Dil və üslub məsələləri, Bakı, 1966. 88 s.
7. Axundov Ə. Nizami Gəncəvi və xalq yaradıcılığı. Azərbaycan SSR EA xəbərləri. Bakı, 1954, № 2
8. Arif M. Nizami Gəncəvinin "Yeddi gözəl" poeması. Bakı, 1983. 165.s
9. Arzumanlı V. Nizami Gəncəvinin dünya şöhrəti. Bakı, 1992. 322 s.
10. Araslı H. Nizami Gəncəvi. Bakı, 1947. 146.s.
11. Araslı H. Azərbaycan ədəbiyyatı: tarixi və problemləri. Bakı, 1998. 420 s.
12. Araslı H. Şərqdə "Leyli və Məcnun" əsərləri və Nizami. Bakı, 1940. 208 s.
13. Araslı H. Nizami əsərlərinin el variantları. Bakı, 1941. 342 s.
14. Araslı H. "Yeddi gözəl" və "Yeddi cam" əsərlərinin müqayisəsi. Bakı, 1941. 310 s.
15. Araslı H. Nizami və Azərbaycan xalq ədəbiyyatı. Bakı 1947. 442 s.
16. Araslı H. Nizami və Vətən. Bakı, 1948. 158 s.
17. Araslı H. Şairin həyatı. Bakı, 1967. 78 s.
18. Araslı H. Nizami Gəncəvi "Sirlər xəzinəsi" Bakı, 1981. 218 s.
19. Araslı H. Nizami və qadın obrazları. "Azərbaycan qadını" jurnalı, Bakı, 1939 №10.
20. Araslı H. Nizamidə xalq sözləri və xalq ifadələri. SSRİ EA Azərbaycan filialı xəbərləri. 1942 № 8
21. Araslı H. Nizami (həyat və yaradıcılığı) "Azərbaycan" jurnalı, Bakı, 1946 № 10
22. Araslı N. Nizami və türk ədəbiyyatı. Bakı, 1980. 280 s.

23. Apoyev B. Nizami Gəncəvinin pedaqoji görüşləri. Bakı, 2008.242 s.
24. Baldırev A. N. Xaqani, Nizami, Rustaveli M. – L. 1935. 294 s.
25. Beqdeli Q. Şərq ədəbiyyatında "Xosrov və Şirin" mövzusu. Bakı, 1971. 374 s.
26. Budaqov B. Nizami əsərlərində təbiət. "Ədəbiyyat və incəsənət" qəzeti Bakı, 26 sentyabr, 1980.
27. Bertels Y. E. Nizami Gəncəvinin 5 poeması, Moskva, 1968. 560 s.
28. Bertels Y. E. Nizami Gəncəvi, Bakı, 1940. 112 s.
29. Bertels Y. E. Nizami və Firdovsi. Bakı, 1940. 248 s.
30. Bertels Y. E. Böyük Azərbaycan şairi Nizami Gəncəvi. 1940. 174 s.
31. Bünyadov Z. Azərbaycan Atabəylər dövləti. (1136 - 1225) Bakı, 1978. 326 s.
32. Cəfər Məmməd. Nizaminin fikir dünyası. Bakı, 1982. 128 s.
33. Cəfər Məmməd. Ədəbi düşüncələr. (sözlərin hakimi məqaləsi) Bakı, 1958.
34. Cəmaləddin Məhəmməd. Divan, Tehran, 1320. 480 s.
35. Cavad Heyət. Nizami haqqında qeydlər. Ədəbiyyat və incəsənət qəzeti. (1970 - 1990)
36. Cəhani Q. Azərbaycan ədəbiyyatında Nizami ənənələri, Bakı, 1979. 224 s.
37. Dəstgerdi V. Nizami Gəncəvi. Tehran. 1318. 188 s.
38. Ələkbərov M. Nizami Gəncəvi və Azərbaycan xalq yaradıcılığı. "Azərbaycan məktəbi" jurnalı. Bakı, 1938.
39. Ələkbərov M. Nizami və xalq yaradıcılığı. Namizədlik disertasiyası, Bakı, 1947.
40. Əliyev R. Nizaminin hikmət və nəsihətləri. Bakı, 1982. 410 s.
41. Əliyev R. Nizami. Bakı, 1982. 210 s.
42. Əliyev R. Nizami Gəncəvi "Yeddi gözəl" Bakı, 1983. 302 s.
43. Əliyev R. Nizami və Azərbaycan renossansı. "Ədəbiyyat və incəsənət" qəzeti. Bakı 10 fevral 1979.
44. Əliyev R. Nizaminin naməlum müasiri "Ədəbiyyat və incəsənət" qəzeti. Bakı, 14 sentyabr 1979.

45. Əliyev R. Nizami poemalarında Qıpçaq – Oğuz gözəli. “Azərbaycan” jurnalı.Bakı, 1980 № 4.
46. Əliyev R. Nizaminin tərcümeyi – halına dair yeni araşdırmalar. “Azərbaycan” jurnalı. Bakı, 1981, № 6.
47. Əliyev R. Yeganə səfər. “Ədəbiyyat və incəsənət” qəzeti. Bakı 26 sentyabr 1980.
48. Əliyev R. Nizaminin doğma xalqına məhəbbəti “Ədəbiyyat və incəsənət” qəzeti 29 may 1981.
49. Əliyev R. Nizami və dünya ədəbiyyatşünaslığı. “Ədəbiyyat və incəsənət” qəzeti. 4 sentyabr 1981.
50. Əliyev Q. Nizamişünaslığın izi ilə “Azərbaycan müəllimi” qəzeti 2 oktyabr 1987.
51. Əliyev Q. Məhinbanu surəti və onun tarixi şəxsiyyəti. Azərbaycan SSR EA məruzələri. Bakı, 1957, № 2.
52. Əliyeva D. Nizami əsərləri gürcü dilində.Azərbaycan SSR EA xəbərləri Bakı, 1978 № 4.
53. Əliyeva D. Gürcü dilində “Yeddi gözəl” poeması. Azərbaycan SSR EA xəbərləri. Bakı 1975 №4.
54. Əlizadə M. Nizami yaradıcılığına Azərbaycan folklorunun təsiri. “Ədəbiyyat” qəzeti. 24 iyun 1938 № 29.
55. Əlizadə M. Nizaminin sənətkarlıq xüsusiyyətləri. “Ədəbiyyat və incəsənət” qəzeti. 12 dekabr 1953.
56. Ə. Əhmədov. Nizami elmşünas. Bakı, 2001. 324 s.
57. Ərəb – fars sözləri luğəti. Bakı, 1965. 496 s.
58. Ərmağan jurnalı. Tehran, 1318,
59. Nəbiyev B. H.Əliyev və Azərbaycan ədbyyatı. Bakı, 2009.
60. Fərzanə M. Ə. Nizamidən 30 qəzəl. Tehran, 1370. 60 s.
61. Hatəmi N. Z. Fars dili, Bakı 1984. 298 s.
62. Həsənzadə S. Nizaminin “xəmsə” də işlətdiyi Azərbaycan zərb məsəlləri. Gəncə 2005. 70 s.

63. “Hikmət” jurnalları.AMEA və İİR M M Bakı, 2003 – 2008.
64. “Xalq” qəzeti. H. Əliyev Azərbaycan ədəbiyyatının böyük himayədarıdır. 29 oktyabr 2003.
65. H. Əliyev. Ədəbiyyat və incəsənət haqqında. Bakı 2004.
66. H. Əliyev. Vicdanımızın normaları ilə. Bakı, 1979.
67. H. Əliyev. Qoy ədalət zəfər çalsın. Bakı 1981.
68. Xalisbəyli T. Nizami Gəncəvi və Azərbaycan qaynaqları. Bakı, 1991. 286 s.
69. Xalisbəyli T. Nizaminin mənşəyinə dair bəzi qeydlər. “Elm və həyat” jurnalı. Bakı, 1984.
70. Xalisbəyli T. Nizami Gəncəvi və Azərbaycan termini. Azərbaycan terminologiyası problemləri. APİ nəşri Bakı, 1988.
71. Xuduyev N. Heydər Əliyev və Azərbaycan dili. Bakı, 1977. 308 s.
72. İbrahimov M. Günəş kimi parlaq Nizami Gəncəvi. “Leyli və Məcnun” Bakı, 1983. 174 s.
73. İsmayılzadə R. Nizaminin musiqi dünyası, Gəncə 2001. 126 s.
74. İstanbul Universiteti aylıq dərgiləri, 1960 – 1990.
75. Kərimli T. Nizami və tarix. Bakı, 1986. 258 s.
76. Krımski A. E. Nizami və onun öyrənilməsi, Bakı, 1977. 286 s.
77. Köçərli F. Azərbaycan ədəbiyyat tarixi I cild, Bakı, 1960. 318 s.
78. Quliyev C. Nizami yaradıcılığı və mənəvi tərbiyə. “Azərbaycan müəllimi” qəzeti, Bakı 16 may 1979.
79. Quliyev H. Klassik irsin tətqiqi və nəzəriyyə məsələləri. “Azərbaycan” jurnalı, Bakı, 1971.
80. Qasımov Q. Nizami dövründə musiqi alətləri “Ədəbiyyat” qəzeti. Bakı, 27 sentyabr 1947.
81. Qasımov Q. Nizami dövründə musiqi mədəniyyəti “Ədəbiyyat” qəzeti 30 iyun 1947.
82. Quluzadə M. Nizami Gəncəvi. Həyat və yaradıcılığı. Bakı, 1953. 164 s.

83. Məhəmməd Moin. “Həft peykəre Nezami” Tehran, 1338. 208 s.
84. Məmmədov K. Nizami poemalarında zəhmətkeş insan obrazları. Azərbaycan SSR EA xəbərləri. Bakı, 1954 №2.
85. Mir Cəlal. Yeddi gözəldəki hekayələr haqqında. Bakı, 1947.120 s.
86. Nizami Gəncəvinin farsca xəmsəsi. Tehran. 1330. 510 s.
87. Nizami xəmsəsinə daxil olan 5 poema. Bakı, 1991-1992. 320-500 s.
88. Nizaminin 5 poeması. Rusca. Bakı, 1989. 310 s.
89. Nizami Gəncəvi. Xəmsə, Tehran, 1882. 490 s.
90. Nizami Gəncəvi. Xəmsə, Tehran, 1276. 520 s.
91. Nizami Gəncəvi. Kolliyate Nezami, Təbriz, 1904. 506 s.
92. Nizami Gəncəvi. Divan. Azərbaycan MEA-nın mətnşünaslıq şöbəsi. Bakı, 1990.
93. Nəfisi S. Nizami Gəncəvi, Tehran, 1338. 469 s.
94. Ordubadi M.S. Nizami dövrü və həyatı. Bakı, 1940. 282 s.
95. Ordubadi M.S. Qılınc və qələm. Bakı, 1961. 422 s.
96. Paşayev S. Nizami və folklor. Bakı, 1976. 182 s.
97. Paşayev S. Nizami və xalq əfsanələri. Bakı, 1983. 168 s.
98. Rəfili M. Nizamiyə qədər Azərbaycan kulturası. Bakı, 1940. 140 s.
99. Rəfili M. Nizami, həyat və yaradıcılığı. Bakı, 1939. 116 s.
100. Rəfili M. Nizami Gəncəvi. Bakı, 1939. 108 s.
101. Rəsulzadə M.Ə. Azərbaycan şairi Nizami. Bakı,1991. 246 s.
102. Rüstəmova A. Nizami Gəncəvi. Bakı, 1979. 278 s.
103. RüstəmovaA. Azərbaycan epik şerinin inkişaf yolları. Bakı. 1975. 86 s.
104. Səfərli Ə. Nizami Gəncəvi 850. Bakı, 1992. 316 s.
105. Sultanov M. Bir daha Nizami divanı haqqında. «Ədəbiyyat və incəsənt» qəzeti, Bakı, 12 oktyabr 1974.
106. Şaqinyan M. Nizami haqqında etiüdlər. Yerevan, 1955. 94 s.
107. Şəhabi Əli Əkbər. Nizami. Tehran, 1350. 304 s.
108. Şirvani Y.Z. «Leyli və Məcnun» əsərinin meydana gəlməsinə dair. Bakı, 1941.148 s.

109. Şükürov S. Heydər Əliyev: Ədəbiyyatımız və mədəniyyətimiz. Bakı, 2005. 204 s.
110. Vurğun S. Dahi Azərbaycan Şairi. «Azərbaycan müəllimi» qəzeti. Bakı, 26 sentyabr, 1947.
111. Vurğun S. Böyük Azərbaycan şairi. «Ədəbiyyat qəzeti». 2 sentyabr 1939.
112. «Yeni Azərbaycan» qəzeti. 2 iyul 1977.
113. Yusifov M. Heydər Əliyev və Azərbaycançılıq ideologiyası. Bakı, 2003. 276 s.
114. Yusifov X. Nizaminin lirikası. Bakı, 1968. 274 s.
115. Yusifov X. Şərqdə intibah və Nizami Gəncəvi. Bakı, 1982. 184 s.
116. Zəkiyev M. «Sirlər xəznəsi». Bakı, 2007. 216 s.
117. Zərinəzadə H. Fars dilində Azərbaycan sözləri. Bakı, 1962. 284 s.

Azf-286040